Xalqın qəzeti!

# Xalq qəzeti

№91 (30495) 4 may 2024-cü il, şənbə

Gündəlik ictimai-siyasi qəzeti

1919-cu ildən çıxır | Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti | xalqqazeti.az

## İslam dünyası COP29-un Azərbaycanda keçirilməsindən məmnundur

### Prezident İlham Əliyev Səudiyyə Ərəbistanının Energetika nazirini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 3-də Səudiyyə Ərəbistanı Krallığının energetika naziri Şahzadə Əbdüləziz bin Salman Əl Səudu qəbul edib.**

Görüşdə Azərbaycan ilə Səudiyyə Ərəbistanı Krallığı arasında dostluq münasibətlərinin müxtəlif istiqamətlərdə, o cümlədən enerji sahəsində uğurla inkişaf etdiyi bildirildi.

Söhbət zamanı ölkələrimizin OPEC+ çərçivəsində əməkdaşlığının önəmi vurğulandı.

Azərbaycan ilə Səudiyyə Ərəbistanı Krallığının aparıcı "ACWA Power" şirkəti arasında ölkəmizdə bərpaolunan enerji sahəsində uğurlu əməkdaşlığın həyata keçirildiyi qeyd edildi və bu sahədə yaxşı potensialın olduğu bildirildi.

Görüşdə COP29-un Azərbaycanda keçirilməsinin əhəmiyyətinə toxunuldu.

***AZƏRTAC***

## Revanşistlərin kürklərinə birə düşüb

**Ermənistanda Azərbaycanla sülh müqaviləsinin imzalanmasına, dövlətlərarası münasibətlərin qurulmasına hər vəchlə qarşı çıxan, "bəlkə də qaytardılar" xülyası ilə xumarlanan revanşistlər öz amplualarındadır. Onlar indi də iki ölkənin xarici işlər nazirləri – Ceyhun Bayramov və Ararat Mirzoyan arasında Qazaxıstanın Almatı şəhərində keçirilməsi nəzərdə tutulan görüşlə bağlı neqativ fikirlər səsləndirirlər.**

Məsələn, Varujan Geqamyan adlı türkoloq mediaya açıqlamasında deyib ki, Almatıda keçiriləcək görüşdə Ermənistan onu məğlub edən dövlətlə təkbaşına, yəni, vasitəçilərin iştirakı olmadan çətin vəziyyətdə qalacaq. Onun sözlərinə görə, görüşdə vasitəçilərin iştirak etməməsi Azərbaycanın danışıqlarda dominantlıq etmək istəyindən xəbər verir: "Adətən, daha zəif və daha həssas tərəfin maraqlarını qorumaq üçün vasitəçi tələb



olunur. İndiki vəziyyətdə Ermənistan beynəlxalq birliyin dəstəyinə arxalana bilməyəcək və mövcud şəraitdə hərəkətə keçmək məcburiyyətində qalacaq. Türkiyə və Azərbaycan vasitəçilik platformasının mövcudluğunu istisna edən bir formatın yaradılmasına nail oldular. Nəticədə Ermənistan onu məğlub edən iki ölkə ilə (?) birbaşa təmasda olacaq. Biz Almatıda dəstək tapa bilməyəcəyik. Xüsusilə demarkasiya kontekstində sərhədyanı rayonların sakinlərinin hüquqlarını qoruya biləcək vasitəçi kimi beynəlxalq birliyə arxalanmaq çətindir".

V.Geqamyan deyib ki, Qərb də Azərbaycanı dəstəkləyir: "Ermənistan müdafiə olunmaq siyasətinə sadiqlik nümayiş etdirmək əvəzinə, güzəştə getmək xəttinə üstünlük verdi. Bu, son nəticədə onun suverenliyinin əhəmiyyətli dərəcədə zəifləməsinə, ölkənin Türkiyənin təsir zonalarından birinə çevrilməsinə (?) səbəb oldu".

*(ardı 3-cü səhifədə)*

## Sülhə məcburetmə – Azərbaycanın diktəsi və ilahi ədalət

### Ölkəmizin missiyası mütərəqqi ruhludur və beynəlxalq hüquqa əsaslanır



**Prezident İlham Əliyev mayın 1-də Bakıda işə başlamış "Sülh və qlobal təhlükəsizlik naminə dialoq" mövzusunda keçirilən VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun açılış mərasimindəki çıxışında ölkəmizin sülhü müharibə yolu ilə təmin etdiyini vurğulayıb. Dövlətimizin başçısının bu fikri düşünməyə əsas verir. Yazımız bu barədədir. Amma əvvəlcə Ermənistanın baş naziri Nikol Paşinyanın Azərbaycanın nəzarəti altına keçməli olan kəndlərdə yerli əhali ilə bir müddət əvvəlki görüşündə səsləndirdiyi bir fikri diqqətə çatdıraq. Bildirmişdi ki, mən istəyirəm siz deməyəsiniz ki, Azərbaycan 50 metrliyimizdədir, istəyirəm deyəsiniz: nə yaxşı Azərbaycan 50 metrliyimizdədir.**

Göründüyü kimi, Ermənistanda, belə demək mümkünsə, sülhə ən yaxşı məcbur olan elə Paşinyanın özüdür. Ən azı revanşist-şovinistlərdən fərqli olaraq, o, vəziyyəti duymağı, reallığı düzgün qiymətləndirməyi bacarır. Amma onun bu bacarığı nəticə verəcəkmi? Nəticə verməyəcəyi təqdirdə Ermənistanın hansı perspektivi gözləyəcəyini sonda vurğulayacağıq.

Hələlik isə bildirək ki, Azərbaycanın təmin etdiyi sülh ədalət anlayışını əsas götürür. Psixoloji nöqteyi-nəzərdən yanaşsaq, ədalətli olmaq hər bir insan kimi, dövləti də güclü edir. Azərbaycan ədaləti təmin etmək üçün otuz ilə yaxın müddətdə təkcə güclənmədi, eyni zamanda, səbrlə məqamı gözlədi. Ədalət anını. Yaşadığımız Cənubi Qafqaz coğrafiyası, bütövlükdə, dünya üçün mühüm əhəmiyyət daşıyır. Ona görə də bu regionda sülhün yaradılması dünya əhəmiyyətli hadisədir. Deməli, Azərbaycanın yaratdığı sülh, eyni zamanda, bəşəri anlama söykənir.

Digər tərəfdən, müharibə yolu ilə sülhyaratma missiyası da beynəlxalq hüquqa əsaslanmalıdır. Yəni müharibə sülhü təmin edəcək ən son vasitə kimi nəzərdə tutulmalıdır. Hesab edirik ki, Azərbaycan mövcud tələbi nəzərə alıb. Çünki ölkəmiz uzun illər Ermənistanla sülh danışıqlarına sadiq qalıb. Dövlətimiz, həmçinin sülhə sadiqliyinin özünün beynəlxalq imici ilə də təsdiqləyib. Axı müharibə mahiyyət etibarilə dəhşətli olay olduğundan, dünya səni yaxşı tanımalıdır ki, savaşa əl atmağının ən son vasitə olduğuna inansın.

*(ardı 3-cü səhifədə)*

## Türk Dövlətləri Təşkilatı – coğrafiya geniş, imkanlar böyükdür




**2024-cü ilin yanvar–mart ayları ərzində Azərbaycanın Türk Dövlətləri Təşkilatına (TDT) üzv və müşahidəçi statusa malik ölkələrlə ticarət dövriyyəsi 1 milyard 709,1 milyon ABŞ dolları təşkil edib. Bu da ölkəmizin ümumi ticarət dövriyyəsinin 17,6 faizinə bərabər olub.**

Dövlət Gömrük Komitəsinin məlumatına görə, cari ilin ilk rübündə Azərbaycan Türkiyə ilə 1 milyard 469,1 milyon dollar, Türkmənistanla 96 milyon 926 min dollar, Qazaxıstanla 70 milyon 829 min dollar, Özbəkistanla 35 milyon 814 min dolar, Qırğızıstanla 23 milyon 382 min dollar, Macarıstanla isə 13 milyon dollar məbləğində idxal-ixrac əməliyyatları həyata keçirib.

2024-cü ilin yanvar-mart aylarında Azərbaycandan Türkiyəyə 150 milyon 291 min dollar, Qırğızıstana 20 milyon 815 min dollar, Türkmənistana 16 milyon 861 min dollar, Qazaxıstana isə 11 milyon 731 min dollar dəyərində qeyri-neft məhsulları ixrac edilib.

Xatırladaq ki, 2023-cü ildə Azərbaycanın TDT-yə üzv ölkələrlə ticarət dövriyyəsi 8 milyard 208 milyon dollar təşkil edib ki, bu da əvvəlki illə müqayisədə 23,7 faiz və ya 1 milyard 574 milyon dollar çox olub. Ümumilikdə, ötən il təşkilata üzv ölkələrlə aparılan idxal-ixrac əməliyyatları Azərbaycanın ümumi ticarət dövriyyəsinin 16 faizinə bərabər olub.

*(ardı 7-ci səhifədə)*

## Ermənipərəst Konqresdə "lobbi" epidemiyası



Səhifə 4-də

## "Sərhədsiz Reportyorlar" Fransa xarici siyasət kursunun icraçısına çevrilib

**"Sərhədsiz Reportyorlar" (RSF) təşkilatı mayın 3-də ənənəvi hesabatını "Ümumdünya Mətbuat Azadlığı İndeksi"ni açıqlayıb (https://rsf.org/en/index?year).**

İndeks 2023-cü ildə dünya ölkələrində media üzrə baş vermiş hadisələrin dəyərləndirilməsi ilə hazırlanıb. 180 ölkədə media mühiti qiymətləndirilib. Azərbaycanın adı siyahıda 164-cü yerdə, yəni ən geri sıralardadır. Bizdən öncə Nikaraqua, geridə isə Banqladeş və digər bu kimi dövlətlərin adları yer tutur. Yanaşı sırada yerləşdirilmiş adlara baxmaq kifayətdir ki, RSF-nin Azərbaycana qarşı neqativ, qeyri-obyektiv münasibət göstərdiyi bəlli olsun. Təsəvvürümüzü daha da aydınlaşdırmaq üçün qeyd edək ki, Ermənistanın adı eyni siyahıda bizdən 121 pillə öndə, 43-cü yerdə işarələnib.

RSF-nin öz hesabatlarını belə əcaib formada hazırlamaqla hansı hədəflər güddüyünü anlamaq üçün "İndeks" üzərində son illər ərzində aparılan əməliyyatları müqayisə etmək lazım gəlir.

**(ardı 3-cü səhifədə)**

# Polşa Respublikasının Prezidenti Zati-aliləri cənab Andjey Dudaya

**Hörmətli cənab Prezident!**

3 May – Konstitusiya Günü münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi və xoş arzularımı çatdırıram.

Azərbaycan ilə Polşa arasında dostluq və qarşılıqlı hörmət ənənələrinə əsaslanan əlaqələrin hazırkı səviyyəsi məmnunluq doğurur. İqtisadiyyat, nəqliyyat, mədəniyyət və digər sahələrdə dinamik inkişaf edən əməkdaşlığımız ölkələrimizin və xalqlarımızın mənafelərinə xidmət edir.

Avropa İttifaqı üzv dövləti və Şərq Tərəfdaşlığı proqramının təşəbbüskarı kimi Polşanın bütün Cənubi Qafqazı əhatə edən regional əməkdaşlığı təşviq edən Avropa İttifaqının siyasətinin formalaşmasına xidmət edən mövqeyini yüksək qiymətləndiririk.

Əminəm ki, Azərbaycan–Polşa əlaqələrinin mövcud potensialının reallaşdırılması, əməkdaşlığımızın əhatə dairəsinin genişləndirilməsi və yeni məzmunla zənginləşdirilməsi naminə birgə səylərimizi bundan sonra da ardıcıl şəkildə davam etdirəcəyik.

Bu bayram günündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə müvəffəqiyyətlər, dost Polşa xalqına daim əmin-amanlıq və rifah arzulayıram.

**Hörmətlə,**

**İlham ƏLIYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı şəhəri, 1 may 2024-cü il**

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 235 Bakı şəhəri, 1 may 2024-cü il**

"Kəlbəcər şəhərinin 2040-cı ilədək inkişafına dair Baş planı"nın təsdiq edilməsi haqqında

"Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəllə-sinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə haqqında" Azərbaycan Respublikasının 2012-ci il 29 iyun tarixli 392-IVQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 4 sentyabr tarixli 695 nömrəli Fərmanının 4.2-ci bəndinə əsasən, Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin təklifini nəzərə alaraq Azərbaycan Respublikasının Nazirlər Kabineti qərara alır:

"Kəlbəcər şəhərinin 2040-cı ilədək inkişafına dair Baş planı" təsdiq edilsin (əlavə olunur).

**Əli ƏSƏDOV,**
**Azərbaycan Respublikasının Baş naziri**

***Qeyd: Qərara edilmiş əlavələrin tam mətni ilə www.nk.gov.az və www.xalqqazeti.com saytlarında tanış ola bilərsiniz.***

# Ortamüddətli xərclər çərçivəsinin tətbiqi, proqram və nəticəəsaslı büdcə mexanizminə keçid islahatlarının genişləndirilməsi və bundan irəli gələn bəzi məsələlərin tənzimlənməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, ortamüddətli xərclər çərçivəsinin tətbiqi, proqram və nəticəəsaslı büdcə mexanizminə keçid islahatlarının davam etdirilməsi, sistemliliyinin təmin edilməsi və səmərəliliyinin artırılması məqsədilə **qərara alıram:**

**1** Dövlət büdcəsi xərclərinin funksional təsnifatının "Təhsil", "Kənd təsərrüfatı" və "Ətraf mühitin mühafizəsi" bölmələrinə daxil olan sektorlar üzrə strateji planların, habelə bu planlar əsasında həmin sektorların ortamüddətli (növbəti il və sonrakı üç il üçün) xərclər çərçivəsinin Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 24 avqust tarixli 235 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Ortamüddətli xərclər çərçivəsinin hazırlanması Qaydası"na uyğun olaraq hazırlanması və aidiyyəti üzrə təqdim olunması işi davam etdirilsin.

**2** Növbəti ortamüddətli dövr (2025 – 2028-ci illər) ərzində dövlət büdcəsi xərclərinin funksional təsnifatının "Səhiyyə", "Sosial müdafiə və sosial təminat", "Mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi, gənclər siyasəti və bu qəbildən olan digər fəaliyyət" bölmələrinə daxil olan sektorlar ortamüddətli xərclər çərçivəsinin tətbiqi, proqram və nəticəəsaslı büdcə mexanizminə keçid islahatlarına cəlb edilsinlər.

**3** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

3.1. bu Fərmanın 2-ci hissəsində nəzərdə tutulan sektorlarda yeni büdcə mexanizminin tətbiqi və potensialın artırılması istiqamətində zəruri tədbirlər həyata keçirsin;

3.2. sektorlar üzrə strateji planların hazırlanması qaydasını, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi və Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə razılaşdırmaqla, beş ay müddətində təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

3.3. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

**4** "Ortamüddətli xərclər çərçivəsinin hazırlanması Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 24 avqust tarixli 235 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 8, maddə 1685 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

4.1. 2.4-cü bənd ləğv edilsin;

4.2. həmin Fərmanla təsdiq edilmiş "Ortamüddətli xərclər çərçivəsinin hazırlanması Qaydası" aşağıdakı redaksiyada verilsin:

### "Ortamüddətli xərclər çərçivəsinin hazırlanması

### QAYDASI

**1. Ümumi müddəalar**

1.1. Bu Qayda "Azərbaycan Respublikasının 2017-ci il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 27 dekabr tarixli 1180 nömrəli Fərmanının 3.7.3-cü yarımbəndinə uyğun olaraq hazırlanmışdır və ortamüddətli xərclər çərçivəsinin hazırlanması ilə bağlı məsələləri tənzimləyir.

1.2. Ortamüddətli xərclər çərçivəsini Azərbaycan Respublikasının Maliyyə Nazirliyi (bundan sonra – Maliyyə Nazirliyi) hazırlayır.

**2. Əsas anlayışlar**

2.1. Bu Qaydada istifadə olunan əsas anlayışlar aşağıdakı mənaları ifadə edir:

2.1.1. ortamüddətli büdcə çərçivəsi (bundan sonra – OMBÇ) – dövlət büdcəsi və icmal büdcə xərclərinin ortamüddətli büdcə siyasətinə uyğun idarə olunması məqsədilə milli xərc prioritetlərinin ortamüddətli resurs zərfinə uyğunlaşdırılmasını təmin edən, ortamüddətli iqtisadi və sosial inkişaf proqnozlarına, eləcə də dövlət büdcəsinin və icmal büdcənin baza proqnozlarına əsasən hazırlanan, dövlət büdcəsi və icmal büdcə xərclərinin, həmçinin büdcə qaydasının hədəf göstəricilərinin yuxarı hədlərini ehtiva edən fiskal tədbirlərin məcmusu;

2.1.2. ortamüddətli xərclər çərçivəsi (bundan sonra – OMXÇ) – ölkə iqtisadiyyatının dayanıqlı inkişafını və strateji məqsədlərinin maliyyələşdirilməsini təmin edən, OMBÇ-yə və sektorlar üzrə strateji planlara uyğun olaraq hazırlanan, ortamüddətli büdcə siyasətini, resurs zərfini və milli xərc prioritetlərini, habelə makrofiskal risklər üzrə idarəetmə tədbirlərini əks etdirən strateji büdcə planı;

2.1.3. ortamüddətli resurs zərfi – makroiqtisadi fərziyyələr və proqnozlar, habelə büdcə qaydasının hədəfləri nəzərə alınmaqla, ortamüddətli dövr üçün dövlət büdcəsinin və icmal büdcənin hesablanmış gəlir və daxilolmalarının məcmusu;

2.1.4. ortamüddətli büdcə siyasəti – ortamüddətli dövr üçün ölkənin makroiqtisadi proqnozlarını, büdcə qaydasına uyğun olan fiskal tədbirləri, habelə büdcə-vergi siyasətini, milli prioritetlərlə uzlaşdırılmış dayanıqlı inkişaf və digər siyasət məqsədlərinin maliyyələşdirilməsini əks etdirən prinsip, qayda və fəaliyyətlərin məcmusu;

2.1.5. nəticəəsaslı büdcə – dövlətin maliyyə resurslarının Azərbaycan Respublikası Prezidentinin aktları ilə təsdiq edilmiş sənədlərdə müəyyənləşdirilmiş strateji məqsəd və hədəflərə nail olunmasına yönələn proqramlar və bu proqramların həyata keçirilməsi üçün nəzərdə tutulan tədbirlər üzrə bölüşdürülməsini və icrasını təmin edən, həmin resurslardan təyinatı üzrə səmərəli istifadə sahəsində nəzarət mexanizminin və hesabatlılığın qurulmasını nəzərdə tutan, habelə proqramlar üzrə tədbirlərin icrasının səmərəliliyini və effektivliyini nəticə göstəriciləri əsasında qiymətləndirməyə imkan verən strateji büdcə planlaması;

2.1.6. nəticə göstəriciləri – sektor üzrə strateji plan çərçivəsində həyata keçirilən proqramlarla bağlı tədbirlərin icrasından əldə edilmiş nəticələrin ölçülməsinə imkan verən göstəricilər;

2.1.7. yeni siyasət təşəbbüsü (bundan sonra – YST) – ortamüddətli dövr ərzində dövlət büdcəsinin və icmal büdcənin vəsaiti hesabına həyata keçirilməsi təklif olunan yeni proqram, layihə və islahat tədbirlərinin təsvirini və onların maliyyələşdirilməsini, habelə icrası davam edən proqram, layihə və islahat tədbirlərinin genişləndirilməsini, təkmilləşdirilməsini və ya ixtisarını əks etdirən gəlir və ya xərclər toplusu;

2.1.8. milli xərc prioritetləri – Azərbaycan Respublikası Prezidentinin aktları ilə təsdiq edilmiş sənədlərdə müəyyənləşdirilmiş strateji məqsəd və hədəflərlə uzlaşdırılan, ölkənin ortamüddətli və uzunmüddətli hədəflərinə əsaslanan xərc istiqamətləri;

2.1.9. sektor – dövlət büdcəsi xərclərinin funksional təsnifatının müvafiq bölməsindən maliyyələşən və maliyyə yardımı alan təşkilatlar, habelə icmal büdcə ilə əhatə olunan qurumlar tərəfindən dövlətin məqsəd və funksiyalarının həyata keçirildiyi fəaliyyət sahəsi;

2.1.10. sektor üzrə strateji plan – sektor üzrə ortamüddətli strateji siyasəti və sektor üzrə icmallaşdırılmış büdcə planını özündə ehtiva edən sənəd;

2.1.11. sektor üzrə ortamüddətli strateji siyasət – Azərbaycan Respublikası Prezidentinin aktları ilə təsdiq edilmiş sənədlərdə müəyyənləşdirilmiş qısa, orta və uzunmüddətli hədəflər və ölkənin sosial-iqtisadi inkişaf konsepsiyası nəzərə alınmaqla, sektor üzrə aparıcı qurum və həmin sektorda fəaliyyəti olan təşkilatlar tərəfindən ortamüddətli dövrdə həyata keçiriləcək tədbirlərin əsas istiqamətlərini özündə əks etdirən bəyanat;

2.1.12. sektor üzrə icmallaşdırılmış büdcə planı – sektorda fəaliyyəti olan təşkilatların (o cümlədən sektor üzrə aparıcı qurumun) həmin sektor üzrə büdcə planlarının məcmusu;

2.1.13. sektor üzrə aparıcı qurum – Azərbaycan Respublikasının Prezidenti tərəfindən müəyyən edilən və müvafiq sektorda dövlət siyasətini və tənzimləməsini həyata keçirən, həmin sektor üzrə büdcə planlarını icmallaşdıraraq sektor üzrə strateji planı hazırlayan, həmin planda müəyyənləşdirilmiş məqsəd və hədəflərə nail olunmasına görə məsuliyyət daşıyan və bu məqsədlə sektorda fəaliyyəti olan təşkilatların büdcə planlarının icrasına fəaliyyət istiqamətlərinə uyğun olaraq nəzarət edən orqan (qurum);

2.1.14. sektorda fəaliyyəti olan təşkilat – sektor üzrə strateji planın hazırlanmasında fəaliyyət istiqamətlərinə uyğun olaraq iştirak edən və büdcə planına daxil olan tədbirlərin (layihələrin) icrasına, həmin tədbirlərdən gözlənilən nəticələrə nail olunmasına görə məsuliyyət daşıyan və həmin sektordakı fəaliyyəti büdcə xərclərinin funksional təsnifatının müvafiq bölməsindən maliyyələşdirilən təşkilat, orqan (qurum), o cümlədən sektor üzrə aparıcı qurum;

2.1.15. təşkilatın sektor üzrə büdcə planı – sektorda fəaliyyəti olan təşkilat (o cümlədən sektor üzrə aparıcı qurum) tərəfindən hazırlanan, sektor üzrə strateji planda müəyyən edilən hədəflərə nail olmaq üçün ortamüddətli dövrdə həyata keçiriləcək tədbirləri və YST-ləri, onların maliyyələşmə mənbələrini, eləcə də icrasını qiymətləndirən nəticə göstəricilərini ehtiva edən sənəd;

2.1.16. proqram – sektor üzrə strateji planda müəyyənləşdirilmiş əsas strateji məqsəd və hədəflərə nail olmaq üçün sektorda fəaliyyəti olan təşkilatlar tərəfindən həyata keçirilən və qruplaşdırılaraq eyni hədəfə yönəlmiş tədbirlərin məcmusu;

2.1.17. tədbir – icrası nəticə göstəriciləri ilə qiymətləndirilən, mal və xidmətin keyfiyyətini və ya həcmini artırmaq məqsədilə həyata keçirilən müddətli və ya davam edən layihə, eləcə də sektor üzrə strateji plana daxil olan proqramlar üzrə müəyyənləşdirilmiş hədəflərə nail olmaq üçün həmin sektorda fəaliyyəti olan təşkilat (o cümlədən sektor üzrə aparıcı qurum) tərəfindən həyata keçirilən fəaliyyət;

2.1.18. baza proqnozları – hər hansı siyasət dəyişikliyi tətbiq edilmədən dövlət büdcəsi və icmal büdcənin gəlir və xərclərinin, o cümlədən mövcud və davam etməkdə olan proqram və tədbirlər üzrə cari, əsaslı və dövlət borcuna xidmətlə bağlı xərclərin (növbəti illərdə təkrarlanması nəzərdə tutulmayan tədbirlər üçün tələb olunan resurslar istisna olmaqla) proqnozlaşdırılan məbləğləri;

2.1.19. ssenarilər – müxtəlif fərziyyələrə əsaslanan, iqtisadi siyasət parametrlərinə və ölkənin sosial-iqtisadi inkişafına təsir edə biləcək xarici və daxili amillər, habelə ortamüddətli sosial-iqtisadi inkişafa dair məqsəd və hədəflər nəzərə alınmaqla baza, optimist və pessimist variantlar əsasında hazırlanan əsas makroiqtisadi göstəricilərin proqnozlarının məcmusu;

2.1.20. büdcə sifarişi – təşkilatın sektor üzrə büdcə planında nəzərdə tutulan tədbirlərin icrası üçün tələb olunan maliyyə vəsaiti;

2.1.21. fiskal risklər – ortamüddətli dövr ərzində dövlət büdcəsinin və icmal büdcənin icra göstəricilərinin proqnozlardan, habelə sektorda fəaliyyəti olan təşkilatların büdcə planlarında əks olunan tədbirlərin icrasından gözlənilən nəticələrdən kənarlaşmasına səbəb olan, habelə dövlət büdcəsinin və icmal büdcənin icrasına mənfi təsir göstərə biləcək risklər;

2.1.22. fiskal risklərin idarə edilməsi – fiskal risklərin mümkün təsirlərinin minimuma endirilməsi məqsədilə onların müəyyən edilməsini, qiymətləndirilməsini, qarşılanmasını və bununla bağlı təklif və tövsiyələrin hazırlanaraq aidiyyəti üzrə təqdim edilməsini əhatə edən fəaliyyət.

2.2. Bu Qaydada istifadə olunan digər anlayışlar Azərbaycan Respublikasının normativ hüquqi aktlarında müəyyən edilmiş mənaları ifadə edir.

**3. Ortamüddətli xərclər çərçivəsinin məqsədi**

3.1. OMXÇ-nin əsas məqsədləri aşağıdakılardır:

3.1.1. makroiqtisadi sabitlik və dayanıqlı iqtisadi artım üçün tələb olunan məcmu fiskal intizamın təmin edilməsi;

3.1.2. ortamüddətli resurs zərfi daxilində xərc istiqamətlərinin sektorlar arasında prioritetləşdirilməsi;

3.1.3. fəaliyyətin göstəricilər əsasında ölçülməsini nəzərdə tutan nəticəəsaslı büdcə tərtibi mexanizminin təşkili üçün zəruri şərait yaradılması.

**4. Ortamüddətli iqtisadi və sosial inkişaf proqnozlarının hazırlanması**

4.1. Ortamüddətli dövr üçün ilkin iqtisadi və sosial inkişaf proqnozlarının hazırlanması məqsədilə aşağıdakı məlumatlar cari il fevralın 5-dək Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinə (bundan sonra – İqtisadiyyat Nazirliyi) təqdim edilir:

4.1.1. Maliyyə Nazirliyinin təqdim etdiyi aşağıdakı məlumatlar:

4.1.1.1. ötən ilin dövlət büdcəsinin gəlir və xərclərinin ilkin icra göstəriciləri, ortamüddətli dövr üçün isə dövlət büdcəsinin ilkin ssenarilər üzrə proqnoz göstəriciləri:

4.1.1.1.1. gəlirlər, o cümlədən neft və qeyri-neft gəlirləri (tədiyə növləri üzrə) və Azərbaycan Respublikasının Dövlət Neft Fondundan (bundan sonra – Neft Fondu) dövlət büdcəsinə transfertin yuxarı həddi;

4.1.1.1.2. xərclər, o cümlədən cari, əsaslı və dövlət borcuna xidmətlə bağlı xərclər (daxili və xarici, əsas borc və faiz ödənişləri olmaqla), habelə funksional və iqtisadi təsnifatın bölmələri səviyyəsində xərclər;

4.1.1.1.3. dövlət büdcəsi kəsirinin maliyyələşdirilməsi mənbələri;

4.1.1.1.4. dövlət büdcəsinin xarici valyutada olan xərcləri barədə məlumat;

4.1.1.2. dövlət borcu və dövlət zəmanətlərinin həcmi barədə ötən ilin sonuna olan ilkin məlumat və növbəti ortamüddətli dövr üçün dövlət borcu barədə proqnoz;

4.1.2. Azərbaycan Respublikası Mərkəzi Bankının (bundan sonra – Mərkəzi Bank) təqdim etdiyi aşağıdakı məlumatlar:

4.1.2.1. monetar sektor üzrə ətraflı faktiki statistik məlumatlar (pul bazası, pul aqreqatları, pul icmalı, Mərkəzi Bankın analitik balansı, həmçinin Mərkəzi Bankın əməliyyatları);

4.1.2.2. tədiyə balansı üzrə ötən ilin ətraflı faktiki statistik məlumatları (cari hesab, kapital hesabı, maliyyə hesabı, həmçinin xarici borc və onun dəyişməsi, xalis aktivlərdə dəyişmə və beynəlxalq ehtiyatlar);

4.1.3. Neft Fondu tərəfindən Fondun gəlir və xərclərinin ilkin icra göstəriciləri, cari il üçün gözlənilən, ortamüddətli dövr üçün proqnozlaşdırılan aşağıdakı məlumatlar:

4.1.3.1. Neft Fondunun xam neftin müxtəlif ortaillik ixrac qiymətlərinə uyğun hesablanmış gəlir və xərclərinin proqnozu;

4.1.3.2. neft-qaz sahəsində hasilatın pay bölgüsü sazişləri çərçivəsində fəaliyyət göstərən ödəyicilərin hasilat göstəriciləri;

4.1.3.3. Neft Fondunun vəsaiti hesabına həyata keçirilən layihələrin maliyyələşdirilməsi üçün sifarişçi təşkilatların vəsait ehtiyacı barədə proqnoz məlumatı;

4.1.3.4. Neft Fondunun aktivlərinin orta gəlirlilik dərəcəsi;

4.1.4. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi tərəfindən İqtisadiyyat Nazirliyinin təqdim etdiyi formaya uyğun olaraq, əvvəlki il üçün ilkin statistik məlumatlar;

4.1.5. Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən dövlət sosial müdafiə fondunun, işsizlikdən sığorta fondunun gəlir və xərcləri barədə ötən il üzrə ilkin icra göstəriciləri, dövlət sosial müdafiə fondunun, işsizlikdən sığorta fondunun gəlir və xərcləri, ortaaylıq əməkhaqqı, yaşayış minimumu, minimum əməkhaqqı, ehtiyac meyarı, məşğulluq, sosial və demoqrafik göstəricilər barədə cari ildə gözlənilən, ortamüddətli dövr üçün proqnozlaşdırılan məlumatlar;

4.1.6. Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi tərəfindən idxal-ixrac əməliyyatları üzrə əvvəlki ilin faktiki göstəriciləri, cari ildə gözlənilən, ortamüddətli dövr üçün isə proqnozlaşdırılan məlumatlar;

4.1.7. İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi tərəfindən icbari tibbi sığorta fondunun ötən il üzrə ilkin icra göstəriciləri, cari ildə gözlənilən, ortamüddətli dövr üçün proqnozlaşdırılan gəlir və xərcləri barədə məlumatlar.

4.2. İqtisadiyyat Nazirliyi ölkənin ortamüddətli dövr üzrə proqnoz göstəricilərinin tərtibi üçün əlavə əsaslandırıcı materialları və hesablamaları mərkəzi və yerli icra hakimiyyəti orqanlarından, həmçinin onların struktur bölmələrindən, mülkiyyət və təşkilati-hüquqi formasından asılı olmayaraq digər hüquqi şəxslərdən, o cümlədən büdcə və büdcədənkənar dövlət fondlarından və bələdiyyələrdən tələb edə bilər.

4.3. Aidiyyəti qurumların nümayəndələri ortamüddətli dövr üzrə proqnoz göstəricilərinin tərtibində iş qaydasında iştirak edir və hesablamalar üçün tələb olunan əlavə məlumatların təqdim edilməsini təmin edirlər.

4.4. Ortamüddətli iqtisadi və sosial proqnoz göstəricilərinin koordinasiyalı şəkildə hazırlanması üçün İqtisadiyyat Nazirliyinin rəhbərliyi ilə Komissiya yaradıla bilər.

4.5. İqtisadiyyat Nazirliyi bu Qaydanın 4.1-ci bəndinə əsasən təqdim olunan məlumatları nəzərə alaraq, cari il üçün gözlənilən, ortamüddətli dövr üçün ilkin iqtisadi və sosial inkişaf proqnozlarını ssenarilərə uyğun olaraq hazırlayır və cari il martın 1-dək Maliyyə Nazirliyinə təqdim edir.

4.6. Bu Qaydanın 4.1.1 – 4.1.7-ci yarımbəndlərində qeyd olunan aidiyyəti dövlət qurumları həmin bənddə göstərilən məlumatları dəqiqləşdirərək cari il iyulun 15-dək İqtisadiyyat Nazirliyinə təqdim edir.

4.7. İqtisadiyyat Nazirliyi cari ilin altı ayının faktiki nəticələri nəzərə alınmaqla, cari il üçün gözlənilən, ortamüddətli dövr üzrə dəqiqləşdirilmiş iqtisadi və sosial inkişaf proqnozlarını ssenarilərə uyğun olaraq cari il avqustun 1-dək Maliyyə Nazirliyinə təqdim edir.

4.8. Bu Qaydanın 4.7-ci bəndinə əsasən Maliyyə Nazirliyi tərəfindən təqdim edilmiş ortamüddətli dövr üçün dövlət büdcəsinin və icmal büdcənin proqnozlarında dəyişiklik olduğu təqdirdə, həmin məlumatlar yenidən dəqiqləşdirilərək İqtisadiyyat Nazirliyinə təqdim olunur, İqtisadiyyat Nazirliyi tərəfindən isə təqdim edilən məlumatlara əsasən dəqiqləşdirilmiş iqtisadi və sosial inkişaf proqnozları Maliyyə Nazirliyinə təqdim edilir.

**5. OMXÇ-nin hazırlanması**

5.1. Maliyyə Nazirliyi bu Qaydanın 4.5-ci bəndində qeyd edilən göstəricilər, habelə tərtib etdiyi ortamüddətli resurs zərfi və baza proqnozları əsasında OMBÇ-ni hazırlayır və cari il aprelin 5-dək Azərbaycan Respublikasının İqtisadi Şurasına (bundan sonra – İqtisadi Şura) təqdim edir.

5.2. Maliyyə Nazirliyi İqtisadi Şuranın tövsiyələri nəzərə alınmaqla dəqiqləşdirilmiş OMBÇ-ni cari il aprelin 15-dək özünün rəsmi internet səhifəsində yerləşdirir.

5.3. Sektorlar üzrə aparıcı qurumlar aidiyyəti sektorlar üzrə ortamüddətli strateji siyasətlərini bu Qaydanın 5.2-ci bəndində qeyd olunan OMBÇ nəzərə alınmaqla hazırlayır və cari il mayın 1-dək həmin sektorlarda fəaliyyəti olan təşkilatları məlumatlandırır, yaxud öz rəsmi internet səhifələrində yerləşdirirlər.

5.4. OMXÇ və nəticəəsaslı büdcə mexanizminin tətbiqi məqsədilə Maliyyə Nazirliyi "Büdcə sistemi haqqında" Azərbaycan Respublikası Qanununun 11.6-cı maddəsinə uyğun olaraq hazırlanan təlimat məktubunu cari il mayın 1-dək OMXÇ və nəticəəsaslı büdcə mexanizminə cəlb olunan sektorlarda fəaliyyəti olan təşkilatlara, o cümlədən həmin sektorlar üzrə aparıcı qurumlara və publik hüquqi şəxslərə göndərir. Təlimat məktubunda müvafiq sektorda fəaliyyəti olan hər bir təşkilat üçün dövlət büdcəsi hesabına xərclər, o cümlədən mövcud və davam etməkdə olan proqramlar üzrə xərclərin baza proqnozları, həmçinin YST-lər üzrə yuxarı hədlər aydın göstərilir.

5.5. Müvafiq sektorda fəaliyyəti olan təşkilatlar bu Qaydanın 5.4-cü bəndində qeyd edilən təlimat məktubunda müəyyən olunan hədlər nəzərə alınmaqla hazırladıqları müvafiq sektorlar üzrə ortamüddətli büdcə planlarını həmin sektorlar üzrə aparıcı quruma, büdcə (o cümlədən YST) sifarişlərini isə Maliyyə Nazirliyinə cari il iyulun 1-dək təqdim edir.

5.6. OMXÇ və nəticəəsaslı büdcə mexanizminə cəlb olunan sektorlarda fəaliyyəti olan təşkilatlar, o cümlədən həmin sektorlar üzrə aparıcı qurumlar və publik hüquqi şəxslər fiskal risklərin idarə edilməsi üçün tələb olunan məlumatları bu Qaydanın 5.4-cü bəndində qeyd edilən təlimat məktubuna uyğun olaraq cari il iyulun 1-dək Maliyyə Nazirliyinə təqdim edir.

5.7. Sektorlar üzrə aparıcı qurumlar həmin sektorlarda fəaliyyəti olan təşkilatlar tərəfindən təqdim olunan büdcə planlarını icmallaşdıraraq, Azərbaycan Respublikası Nazirlər Kabinetinin (bundan sonra – Nazirlər Kabineti) müəyyən etdiyi qaydada sektorlar üzrə strateji planları tərtib edirlər və bu Qaydanın 5.4-cü bəndində qeyd edilən təlimat məktubuna uyğun olaraq cari il avqustun 1-dək İqtisadiyyat Nazirliyinə və Maliyyə Nazirliyinə təqdim edirlər.

5.8. Maliyyə Nazirliyi müvafiq sektorlarda fəaliyyəti olan təşkilatlardan, o cümlədən sektorlar üzrə aparıcı qurumlardan əlavə məlumat, sənəd və izahatlar da tələb edə bilər.

5.9. Maliyyə Nazirliyi İqtisadiyyat Nazirliyi tərəfindən təqdim edilmiş bu Qaydanın 4.7-ci bəndində qeyd olunan dəqiqləşdirilmiş və ya bu Qaydanın 4.8-ci bəndində qeyd olunan yenidən dəqiqləşdirilmiş iqtisadi və sosial inkişaf proqnozları, habelə sektorlar üzrə aparıcı qurumlar tərəfindən təqdim edilmiş sektorlar üzrə strateji planlar, o cümlədən həmin sektorlar üzrə icmallaşdırılmış büdcə planları və sektorlarda fəaliyyəti olan təşkilatlar tərəfindən təqdim edilən büdcə (o cümlədən YST) sifarişləri əsasında OMXÇ-ni hazırlayaraq cari il sentyabrın 5-dək OMXÇ-ni və sektorlar üzrə strateji planları İqtisadi Şuraya, cari il sentyabrın 15-dək isə dövlət büdcəsinin layihəsi ilə birlikdə Nazirlər Kabinetinə təqdim edir.

5.10. Nazirlər Kabineti İqtisadi Şuranın tövsiyələrini də nəzərə almaqla, OMXÇ-ni dövlət büdcəsinin layihəsi ilə birlikdə cari il sentyabrın 25-dək Azərbaycan Respublikasının Prezidentinə təqdim edir.

5.11. Maliyyə Nazirliyi Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla, OMXÇ-ni cari il oktyabrın 15-dək özünün rəsmi internet səhifəsində yerləşdirir.

6. Hesabatlılıq və monitorinq

6.1. Sektorlarda fəaliyyəti olan təşkilatlar büdcə planlarının ötən il üzrə icrası barədə məlumatları Maliyyə Nazirliyinin müəyyən etdiyi formalara uyğun olaraq cari il martın 1-dək həmin sektorlar üzrə aparıcı qurumlara təqdim edirlər.

6.2. Sektorlar üzrə aparıcı qurumlar sektorlar üzrə strateji planlar çərçivəsində ötən il ərzində həyata keçirilən proqramlar üzrə müəyyən edilmiş hədəflərə nailolma səviyyəsini əks etdirən məlumatları İqtisadiyyat Nazirliyinə və Maliyyə Nazirliyinə, sektorlar üzrə icmallaşdırılmış büdcə planlarının ötən il üzrə icrası barədə məlumatları isə Maliyyə Nazirliyinin müəyyən etdiyi formalara uyğun olaraq Maliyyə Nazirliyinə cari il aprelin 1-dək təqdim edirlər.

6.3. Sektorlar üzrə aparıcı qurumlar sektorlar üzrə strateji planların ötən il üzrə icrası barədə hesabatlarını, Maliyyə Nazirliyi isə sektorlar üzrə icmallaşdırılmış büdcə planlarının ötən il üzrə icrasına dair monitorinqin nəticələrini cari il iyulun 15-dək İqtisadi Şuraya, iyulun 30-dək İqtisadi Şuranın təklif və tövsiyələri nəzərə alınmaqla Nazirlər Kabinetinə təqdim edir.

6.4. Nazirlər Kabineti bu Qaydanın 6.3-cü bəndində qeyd olunan hesabatlara və monitorinq nəticələrinə əsasən aşkar olunmuş nöqsan və problemlərin aradan qaldırılması məqsədilə zəruri tədbirlər görülməsi üçün fəaliyyətində nöqsanlar aşkar edilmiş təşkilatlara, həmçinin sektorlar üzrə aparıcı qurumlara müvafiq tapşırıqlar verir və həmin tapşırıqların icrasına fəaliyyət istiqamətinə uyğun olaraq nəzarət edir.

6.5. Sektorlar üzrə aparıcı qurumlar sektorlar üzrə strateji planların ötən il üzrə icrası barədə hesabatlarını, Maliyyə Nazirliyi isə sektorlar üzrə icmallaşdırılmış büdcə planlarının ötən ilin icrası üzrə monitorinqinin nəticələrini cari il avqustun 15-dək öz rəsmi internet səhifələrində yerləşdirir.".

**İlham ƏLIYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı şəhəri, 3 may 2024-cü il**

# Sülhə məcburetmə – Azərbaycanın diktəsi və ilahi ədalət



(əvvəli 1-ci səhifədə)

Yeri gəlmişkən, 44 günlük müharibənin ilk günlərində ermənipərəst media müharibənin dəhşət motivlərinə güc verərək, Azərbaycanın haqq davasına zorakılıq görkəmi verməyə çalışmışdı. Lakin həmin vaxt Prezident İlham Əliyev yalnız Ali Baş Komandan kimi deyil, eyni zamanda, Azərbaycanın bir nömrəli təbliğatçısı kimi davranmışdı. Dünyanın otuzdan artıq media orqanına müsahibələr verməklə beynəlxalq aləmə əsl həqiqətləri çatdırmışdı.

Bu yerdə Azərbaycan Prezidentinin köməkçisi, Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevin 2020-ci il sentyabrın 28-də xarici ölkələrin səfirləri, diplomatları üçün keçirilən brifinqdə bildirdiyi fikirlərə diqqət yetirək: “Azərbaycan Respublikasının Silahlı Qüvvələri Azərbaycan Respublikasının suveren ərazilərində fəaliyyət göstərərək, Azərbaycanın müdafiəsini təşkil edir. Bu müdafiə xarakterli olan əməliyyatlardır. Burada da əsas məqsəd təmas xəttinə yaxın, kompakt şəkildə yaşayan mülki Azərbaycan əhalisinin təhlükəsizliyini təmin etmək və Ermənistanın bu kimi təxribatlarının qarşısını almaq üçün əks-həmlə tədbirləri həyata keçirməkdir. Hətta, bu əməliyyatları sülhə məcburetmə əməliyyatı da adlandırmaq olar. Bu yolla Ermənistan, nəhayət ki, sülhə məcbur edilsin və danışıqlar prosesində də konstruktiv şəkildə iştirak etsin”.

Bəli, beynəlxalq hüququn prinsipləri Azərbaycanın işğala son və sülhə məcburetmə əməliyyatlarının legitim xarakter daşıdığını söyləməyə əsas verir. Dünyada “Peace Enforcement” kimi qəbul edilmiş bir ifadə var. Bu ifadə sülhün tətbiqi, ümumiyyətlə, döyüşənlərin iradəsinə zidd olaraq, münaqişədə sülhə məcbur etmək üçün hərbi gücdən istifadə anlamı daşıyır. Məsələn, BMT öz Nizamnaməsinin VII fəslinə uyğun olaraq, Təhlükəsizlik Şurası vasitəsilə qətnamələrini və qüvvədə olan atəşkəsləri yerinə yetirmək üçün güc tətbiqi səlahiyyətinə malikdir. Həmin fəslin ayrı-ayrı müddəalarında hər hansı bir dövlətin məcburi hərəkət elementlərindən istifadə olunmaqla, təcavüzün və ya beynəlxalq sülhə və təhlükəsizliyə qarşı təhdidedici hərəkətlərin qarşısını almaq məqsədi ilə əməliyyat aparmaq hüququ təsbit olunub. Mövcud hüquqa görə, sülhə məcburetmə əməliyyatı münaqişə aparan tərəflərin və ya ərazisində münaqişə gedən dövlətin müvafiq orqanlarının beynəlxalq birlik tərəfindən müdaxiləyə razılığı olmadan həyata keçirdikləri əməliyyatdır.

Əlbəttə, başlıca hədəf sülhü bərqərar etməkdir və bu tipli əməliyyatlar reallaşdırılarkən, BMT Təhlükəsizlik Şurasının qətnaməsinə əsaslanılmalıdır. Daha doğrusu, BMT TŞ bununla bağlı qətnamə çıxarmalıdır. Qurumun Azərbaycan torpaqlarının işğalı ilə bağlı dörd qətnaməsi olmuşdu. Lakin heç vaxt həmin qətnamələrin icrası istiqamətində fəaliyyət gerçəkləşdirilməmişdi. Faktiki olaraq, işğalın leqallaşdırılması yolu tutulmuşdu. Elə buna görə də Azərbaycan Prezidenti çıxışlarında və müsahibələrində ölkəmizin işğala son qoymaqla, əslində, BMT qətnamələrinin icrasını təmin etdiyini vurğulayır. Sırf Azərbaycanla bağlı 44 günlük müharibə zamanı bir paradoksal durumun yaşandığından da xəbərdarıq. Bəzi ermənipərəst dairələr BMT TŞ-nin Azərbaycanı işğalçı kimi göstərən və hərbi əməliyyatları dayandıran qətnaməsinin qəbuluna nail olmaq istəmişdilər. Lakin buna müyəssər ola bilməmişdilər.

BMT-nin Azərbaycan torpaqlarının işğalı ilə bağlı sözügedən qətnamələrində bölgədə sabitliyin və əmin-amanlığın təhlükə altında olduğu qeyd edilir, məcburi köçkünlərin sayının artmasından narahatlıq ifadə olunurdu. Həmçinin işğal olunmuş rayonlarda yaranmış fövqəladə vəziyyətin doğurduğu problemlərin aradan qaldırılmasının zəruriliyi bildirilirdi. Habelə, BMT TŞ atəşin həmişəlik dayandırılması üçün işğalçılıq əməllərinə son qoyulmasına çağırır, təcavüzkar qüvvələrin Azərbaycanın işğala məruz qalmış ərazilərindən çıxarılmasını tələb edirdi. Yəni, bu kimi hallara göz yumulması da ölkəmizin sülhə məcburetmə missiyasına haqq qazandırır.

Onu da bildirək ki, beynəlxalq hüquqda sülhə məcburetmə mexanizmlərinin Kamboca, Şərqi Timor, Ruanda, Somali, Yuqoslaviya kimi presedentləri var. Bu mexanizmin tətbiqi ilə bağlı ayrı-ayrı razılaşmalar da mövcuddur. Məsələn, 1995-ci ilin Deyton razılaşmasını götürək. O razılaşmanı ki, o zamankı Bosniya və Herseqovina daxilindəki separatçı Serbiya Respublikasının varlığına soy qoydu. Yəni, sülhə məcburetmə yolu ilə münaqişə həllini tapdı.

Bir məqama da diqqət yetirək. İkinci Dünya müharibəsi zamanı Hitler Almaniyası SSRİ ərazilərini işğal etmişdi. Lakin tədricən təşəbbüsü ələ alan Sovet İttifaqı almanları öz sərhədlərindən uzaqlaşdırdı. Amma bununla kifayətlənmədi və düz Berlinədək gedib Almaniyanı təslim olmağa, həm də sülhə gəlməyə məcbur etdi. İndiki durumda Azərbaycan 44 günlük müharibə ilə Ermənistanı 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanata imza atmağa məcbur edib.

Ancaq hadisələr göstərdi ki, bəyanatın bir sıra bəndləri yerinə yetirilsə də, erməni avantürizminin Qarabağdakı “separatçı qalası” yıxılmadı. Separatçılıq ömrünü yalnız 2023-cü ilin sentyabrında ölkəmizin həyata keçirdiyi lokal xarakterli antiterror tədbirləri nəticəsində başa çatdırdı. Hazırda Ermənistanda Azərbaycanın bu ölkəyə 44 günlük müharibədən dərhal sonra uzatdığı sülh əlini sıxmaqla bağlı pozitiv elementlər yaranıb. Əlbəttə, bu elementlərin də məcburiyyətdən irəli gəldiyi məlumdur. Ermənistan həm də ona görə sülhə məcbur olmalıdır ki, tarixdə SSRİ-nin Almaniyanı sülhə məcburetmə missiyası var. Həmin missiya təkrarlansa, silahlı qüvvələrimiz İrəvanda olacaqlar. Almaniya ərazisinin SSRİ-yə tarixi bağlılıq faktoru yoxdur. İrəvanın isə Azərbaycana məxsusluğunu sübuta yetirmək heç bir çətinlik törətmir.

**Ə.CAHANGİROĞLU**
**XQ**

# Revanşistlərin kürklərinə birə düşüb

(əvvəli 1-ci səhifədə)

Qeyd edək ki, Prezident İlham Əliyev aprelin 28-də ABŞ Dövlət katibi Antoni Blinkenlə telefon danışığı zamanı iki ölkənin delimitasiya komissiyası tərəfindən əldə olunmuş razılaşmanın ikitərəfli əsasda aparılmış dialoq və qarşılıqlı anlaşma şəraitində keçirilmiş müzakirələrin nəticəsi olduğunu bildirmişdi. Dövlətimizin başçısı sülh müqaviləsi üzrə danışıqların davam etdirilməsi üçün Qazaxıstan tərəfinin təklifinə uyğun olaraq tezliklə Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin Almatıda görüşəcəklərini qeyd etmişdi. Sülh müqaviləsinin və onun əsasını təşkil edən 5 prinsipin təşəbbüskarının Azərbaycan tərəfi olduğunu xatırladan cənab İlham Əliyev ölkəmizin sülh gündəliyinin bundan sonra da davam etdirilməsi üçün səylərini əsirgəməyəcəyini vurğulamış və Azərbaycanın bu məsələdə qəti siyasi iradəyə malik olduğunu qeyd etmişdi. Dövlətimizin başçısı onu da bildirmişdi ki, Azərbaycan regionda hər hansı ayırıcı xətlər olmadan inteqrasiya olunmuş Cənubi Qafqaz regional əməkdaşlıq modelinin qurulmasını dəstəkləyir.

Otuz ilədək danışıqlar yolu ilə bölgədə sülhü təmin etməyə çalışan Azərbaycanın təşəbbüslərinə Ermənistan və onun havadarları tərəfindən qarşılıq verilmədi və ölkəmiz son nəticədə sülhü müharibə vasitəsilə təmin etməli oldu. Ərazi bütövlüyümüzü, suverenliyimizi tam şəkildə bərpa etdikdən sonra yenə də Ermənistana sülh sazişi ilə bağlı danışıqlara başlamaq təklifini ölkəmiz verdi. Bununla bağlı baza prinsipləri, hətta sülh sazişinin layihəsi də hazırlandı. İki ölkə arasında danışıqlar hazırda məhz Azərbaycanın təkliflərinin layihəsi üzərində aparılır. Bu prosesdə diqqəti cəlb edən Almatıda keçirilməsi gözlənilən görüşün hər hansı vasitəçinin iştirakı olmadan baş tutacağıdır. Ölkəmiz həmişə bu təşəbbüslə çıxış edib. Çünki ATƏT-in Minsk qrupunun mövcud olduğu dövrdə danışıqlar məhz vasitəçilərin münaqişəni həll etmək istəyindən daha çox, şəxsi maraqları prizmasından məsələyə yanaşmasına görə həll olunmurdu. Onların əlində Ermənistana işğal etdiyi torpaqlardan çəkilməklə bağlı çoxlu təsir vasitələrinin olmasına baxmayaraq, bundan istifadə etmədilər.

Praktika isə Ermənistan və Azərbaycanın birbaşa danışıqlar yolu ilə bir çox məsələni həll edə biləcəyini dəfələrlə sübut edib. Qazaxıstanda keçiriləcək görüş, əslində, sülh müqaviləsinin imzalanmasına və dövlətlərarası münasibətlərin qurulmasına doğru atılacaq mühüm addım sayıla bilər. Azərbaycan tərəfinin prinsipial mövqeyi burada da həlledici rol oynadı. Daha Bakı və İrəvanın vasitəçilərə ehtiyacı yoxdur. Hazırkı format hər iki tərəf üçün ən məqbul variant sayılmalıdır. Ancaq Ermənistandakı revanşistlər buna qarşı çıxırlar. Onların bu addımı Ermənistanın Azərbaycan torpaqlarını havadarlarının dəstəyi ilə işğal etməsinin, işğal etdiyi əraziləri yenə xarici himayəçilərinin köməyi ilə 30 ilə yaxın əlində saxlamasının növbəti sübutudur. İrəvan uzun illər danışıqlar prosesində onun tərəfini saxlayan ölkələrin köməyi ilə qarşılıqlı güzəştlərə getməyib, konstruktiv mövqe nümayiş etdirməyib.

Zənnimizcə, bu məqamda Prezident İlham Əliyevin mayın 1-də “Sülh və qlobal təhlükəsizlik naminə dialoq” mövzusunda VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun açılış mərasimində çıxışından iqtibas gətirmək yerinə düşər: “İndi isə biz, əslində, müsbət tendensiyaya və sülhə doğru gedirik, sərhədlərin delimitasiyası başlanıb. Nəinki delimitasiyası, hətta demarkasiyası başlanıb. Mən burada çıxış etdiyim zaman bu iş gedir. Buna iki ölkə tərəfindən hər hansı bir vasitəçi olmadan nail olunub. Bu, bir daha onu göstərir ki, bizə vasitəçi lazım deyil. Xüsusən də o insanlar ki, məhz öz məqsədlərini güdürlər və yardım etmək istəmirlər. Onlar bizim bölgəyə öz fərdi, siyasi və iqtisadi maraqları naminə müdaxilə etmək istəyirlər. Onlar həmin alova yenidən odun atmaq istəyirlər. Biz Cənubi Qafqazda buna icazə verməyəcəyik, imkan verməyəcəyik. Otuz illik toqquşmadan sonra Ermənistan da aydın şəkildə anlayır ki, biz Cənubi Qafqazda sülh istəyirik və sülh bu bölgədə yalnız Azərbaycanla Ermənistan arasında normallaşma vasitəsilə həll oluna bilər”.

**Mövzu üzrə “XQ”nin suallarını cavablandıran politoloq Aydın Quliyev** bildirdi ki, Almatıda Azərbaycan



və Ermənistan xarici işlər nazirləri arasında vasitəçilərin iştirakı olmadan, ikitərəfli əsasda görüşün keçirilməsinə dair razılığın əldə olunması özü uğurlu nəticədir. Onun sözlərinə görə, nəzərə almaq lazımdır ki, görüşün ikitərəfli formatda keçirilməsi ölkəmizin təşəbbüsüdür. Ermənistan tərəfi bir vaxtlar indiki formatdan o qədər də məmnun olmadığını bəyan etmişdi. Bu gün isə İrəvan ikitərəfli görüş platformasında iştiraka razılaşıb və onun müsbət nəticələr verəcəyinə inanır: “Bu mənada Almatı görüşünü 2023-cü il dekabrın 7-də qarşılıqlı olaraq saxlanılmış şəxslərin dəyişdirilməsi və 2024-cü il aprelin 19-da Qazaxın 4 kəndinin qaytarılması ilə nəticələnmiş ikitərəfli danışıqlardan sonra irəliyə doğru atılan mühüm addım kimi qiymətləndirmək olar. Heç bir vasitəçinin iştirakı olmadan ikitərəfli görüşün keçirilməsinə dair razılaşmanın əldə olunması özü uğurdur. Çünki Azərbaycanın görüşün ikitərəfli formatda keçirilməsi təşəbbüsü özünü praktik şəkildə doğruldub. Bu mənada Almatı görüşü nəticəsiz başa çatsa belə, uğurlu proses kimi qiymətləndirilməlidir”.



A.Quliyev qeyd etdi ki, Ermənistanda ikitərəfli görüşlərə qarşı çıxanlar həmişə eyni şəxslər olurlar. Onlar, ümumiyyətlə, ölkəmizlə hansısa razılaşmanın əldə olunmasına qarşıdırlar. Bütün vasitələrlə prosesi pozmağa çalışırlar: “Xüsusilə, Hayastandakı bəlli qüvvələr, yəni revanşistlər münasibətlərin normallaşdırılması prosesində Türk Dövlətləri Təşkilatına üzv ölkələrin iştirakından qıcıqlanırlar. Hətta, türkdilli ölkələrin prosesdə iştirakını Türk-İslam dünyasının təntənəsi kimi qiymətləndirənlər də var. Halbuki, iki ölkənin münasibətlərinin normallaşdırılması prosesində heç bir türkdilli ölkə vasitəçi kimi çıxış etmir. Onlar, sadəcə olaraq, platforma, yaxud meydan təqdim edirlər. Hazırda Qazaxıstan belə bir platforma təqdim edib. Vaxtilə Türkiyə də belə təşəbbüslə çıxış edib. Ankara da iki ölkəyə görüşməsi üçün öz ərazisini təqdim etməyə hazır olduğunu dəfələrlə bəyan edib. Amma Ermənistan, təbii ki, bununla razılaşmayıb”.

Politoloq bildirdi ki, Ermənistandakı qisasçı qüvvələrin Almatı görüşündən qıcıqlanmaları səbəbsiz deyil. Onlar Ermənistanın, ümumiyyətlə, Azərbaycanla hansısa razılığa gəlməsini istəmirlər. Onların hədəfi danışıqların, sülh prosesinin pozulmasıdır. Revanşist qüvvələr danışıqların getdiyi 30 il yaxın dövr ərzində vasitəçilərə möhkəm güvəniblər: “Revanşistlər yaxşı bilirlər ki, vasitəçilik edən tərəflər həmişə Ermənistan üçün sərfəli vəziyyətin formalaşdırılması ilə məşğul olublar. Vasitəçilər uzun illər ərzində status-kvonun möhkəmləndirilməsinə, onun legitimləşdirilməsinə çalışıblar. Buna görə revanşistlər vasitəçilərin timsalında özlərinə tərəfdaş görüblər. Bu mənada Azərbaycanın ikitərəfli görüş platforması təşəbbüsünün qalib gəlməsi revanşistləri yandırıb yaxır. Onlar bu platformanın baş tutmamasında maraqlıdırlar”.

Müsahibimiz onu da bildirdi ki, Almatı görüşündə nəticələr ola bilər. Onun sözlərinə görə, Qazaxıstanın hazırda Orta dəhlizin imkanlarını daha da genişləndirməkdə maraqlı olduğunu lazımınca dəyərləndirmək lazımdır. Rəsmi Astana Trans–Xəzər nəqliyyat dəhlizinin də, Orta dəhlizin də, Zəngəzur dəhlizinin də mümkün qədər və tam potensialı ilə işləməsində maraqlıdır: “Çünki özünün mallarının Avropaya daşınmasından tutmuş istehsal olunacaq “yaşıl enerji”nin də Trans-Xəzər marşrutu ilə Azərbaycan üzərindən “qoca qitə”yə çatdırılmasını istəyir. Buna görə də Almatı görüşündə, xüsusilə Zəngəzur dəhlizinin açılması ilə bağlı prosesin yerindən tərpədiləcəyini də istisna etmirəm. Çünki həmin dəhliz artıq praktik şəkildə Qazaxıstanın özünün də marağındadır”.

Politoloq güman edir ki, layihəyə Ermənistanın diqqətini cəlb etmək üçün Astananın xüsusi gündəliyi olmamış deyil: “Əgər Ermənistan bu gün Azərbaycanın bəzi layihələrinə, xüsusilə Orta dəhlizlə bağlı təşəbbüslərinə, eləcə də Avropaya gedən “yaşıl enerji” layihəsinə qoşulmaqda maraqlıdırsa, İrəvan Zəngəzur dəhlizinin açılmasında da bu gün həmişəkindən fərqli mövqe nümayiş etdirməlidir. Bu məntiqlə Almatıdakı görüş, xüsusilə də Zəngəzur dəhlizinin açılması məsələsində müəyyən irəliləyişlərə səbəb ola bilər”.

**Səxavət HƏMİD**
**XQ**

# “Sərhədsiz Reportyorlar” Fransa xarici siyasət kursunun icraçısına çevrilib

(əvəlli 1-ci səhifədə)

Məlumat üçün qeyd edək ki, son 22 il ərzində ənənəvi olaraq ardıcıllıqla hazırlanan bu hesabatların hər biri özündən əvvəlki ilin nəticələrini göstərir. Məsələn, 2024-cü ildə açıqlanan hesabat 2023-cü ilin göstəriciləri üzrə qurulub. Bu münvalla 2020-ci il göstəricilərində (yəni 2021-ci



**Müşfiq ƏLƏSGƏRLİ,**
**XQ-nin media eksperti**

ildə açıqlanmış hesabatda) Azərbaycan adı 168-ci pillədə olmaqla ən pis məqamda yerləşdirilib. Sonrakı illərdə 154-cü pillələyə endirilib. 2023-il göstəricilərində isə yenidən sürətlə geri çəkilərək 164-cü pillədə yerləşdirilib. Bu müqayisələrdən çox aydın şəkildə görünür ki, Azərbaycanla Ermənistan arasında gərginlik pik həddə çatanda, bu fonda Fransanın Azərbaycana qarşı təzyiqləri intensivləşdiriləndə, “Sərhədsiz Reportyorlar” da bütün neqativlərini Azərbaycan üzərinə yönəldir. Azərbaycanı pisləməyə, Ermənistanı öyməyə çalışır. Bu məntiqlə 2020-ci ildə, yəni II Qarabağ savaşı dönəmində Azərbaycanın adını sürətlə geri çəkərək 168-ci pilləyə yerləşdirib. Aralıq dövrdə 154-ə endirib. 2023-cü ildə, yəni Qarabağda antiterror tədbirlərinin həyata keçirildiyi dönəmdə isə yenidən geriyə, 164-cü pilləyə çəkməklə tendensiyalı davranıb.

Əslində, "Sərhədsiz Reportyorlar"ın Azərbaycana qarşı münasibəti Ermənistandan həmişə fərqli, daha doğrusu, neqativ olub. 2002-ci ildə, yəni, 22 il öncə ilk hesabatını hazırlayanda Azərbaycanın adını 101-ci, Ermənistanın adını isə 90-cı yerdə qeyd etmişdilər. Bu nöqtədən başlayaraq müntəzəm şəkildə hər il Azərbaycanın adını geri, Ermənistanın adını isə önə çəkiblər. Neqativ tendensiya 2020-ci ildə pik həddə çatıb. Həmin il Azərbaycanın adı 168, Ermənistanın adı isə 61-ci yerdə qərarlaşıb. 2021–2022-ci illərdə "Sərhədsiz Reportyorlar"ın fəaliyyət tarixində ilk dəfə olaraq Azərbaycanın adı geriyə deyil, önə çəkilib, 154-cü pillədə qərarlaşdırılıb. Düzdür, irəliləmə simvolik olub. Amma istənilən halda 2021–2022-ci illər neqativ tendensiyanın sınma xətti kimi tarixə düşüb. Bu il isə proses yenidən geri çevrilib. Azərbaycanın adı yenidən geri çəkilərək 164-cü yerdə işarələnib.

"Sərhədsiz Reportyorlar"ın mərkəzi ofisi Paris şəhərində yerləşir. Bu baxımdan öz siyasətində Fransanın maraqlarını nəzərə alır. Fransanın Azərbaycana yanaşması hansı tərzdədirsə, "Sərhədsiz Reportyorlar"ın yanaşmasında da eynidir. Müstəqil hərəkət edən beynəlxalq təşkilat adlandırılsa da, öz fəaliyyətini Fransanın maraqları üzərində qurur, tendensiyalı davranır. Fransa xarici siyasətinin, prezident Emmanuel Makronun Azərbaycana yanaşması hansı tərzdədirsə, "Sərhədsiz Reportyorlar"ın yanaşması da eynidir. "Sərhədsiz Reportyorlar" Parisin siyasi ambisiyalarının ruporudur.

Diqqət yetirsək görərik ki, Fransanın dövlət başçısı Emmanuel Makron və ölkənin Xarici İşlər Nazirliyi II Qarabağ savaşından sonra Azərbaycana qarşı sistemli təbliğat aparırlar. "Sərhədsiz Reportyorlar" da bu xətti inkişaf etdirir. Azərbaycana qarşı təbliğat aparanlar sırasında öndə gedir. Ölkəmizə neqativ, qeyri-obyektiv münasibət göstərir. Fransanın xarici siyasət kursuna uyğun olaraq Ermənistanı demokratik ölkə, Azərbaycanı isə qeyri-demokratik ölkə qismində göstərmək üçün bütün vasitələrə əl atır. Nəticə çıxır ki, onun davası demokratiya, söz, ifadə azadlığı, insan haqları deyil. RSF-nin fərqli maraqları, fərqli prinsipləridir. Əgər belə olmasaydı min kilometrlərlə uzaqda yerləşən Azərbaycan üzərində çalışmaqdansa, öz ofislərindən yüz metr aralıqda baş verən insidentlərə baxardı. Onların Parisdə araşdırmalı olduqları, amma göz yumduqları yüzlərlə problemlər var.

Digər tərəfdən, Fransada fəaliyyət göstərən güclü erməni diasporundan yardım alır. Bu mənada erməni diasporunun maraqlarını nəzərə alır. Türkiyəyə, Azərbaycana qarşı daimi olaraq düşmən münasibət sərgiləyir. Türk Dövlətləri Təşkilatına qoşulandan sonra Macarıstanı da hədəfə çevirib. Macarıstanın da adını qeyri-demokratik ölkələrin sırasında yerləşdirib. Türkiyə və Macarıstanın adı da “Sərhədsiz Repartyorlar”ın indeksində Azərbaycan kimi geri sıralarda göstərilib. Ermənistanı öndə, demokratik ölkələr sırasında, Türkiyəni isə ondan 100 pillə geri, qeyri-demokratik ölkələr sırasında göstərmək "Sərhədsiz Reportyorlar"ın “Ümumdünya Mətbuat Azadlığı İndeksi”nin mahiyyətini açır.

# Ermənipərəst Konqresin “lobbi” epidemiyası

## İşğaldan azad etdiyimiz Şuşaya 2 xarici ölkənin – ABŞ-nin və Fransanın Bakıdakı səfirləri hələ də ayaq basmayıblar

**Sərlövhəyə çıxardığımız bu fakt, əslində, Azərbaycanın bu iki ölkə ilə münasibətlərinin altqatındakı mənzərəsini əks etdirir. Bu fakt bir tərəfdən həmin ölkələrin Azərbaycanın Qarabağda ərazi bütövlüyünü və suveren hüququnu təmin etməsi ilə barışmaması məntiqinə gəlirsə, digər tərəfdən, böyük ehtimalla, məğlub Ermənistana müəyyən mənada mənəvi dəstək və təsəlli vermək məqsədini daşıyır. Fəqət, reallıq və danılması mümkün olmayan başqa bir amil ondan ibarətdir ki, indiki olduqca mühüm tarixi mərhələdə Azərbaycan–ABŞ münasibətləri ciddi sınağından keçir.**



Əslində, bu münasibətlər, qəribə də olsa, genişmiqyaslı ikitərəfli faydalı əməkdaşlığa, bundan qaynaqlanan potensiala tərs mütənasibdir. Bunun səbəbini daha çox qarşı tərəfin reallıqdan uzaq, sırf siyasi konyuktur maraqlarına söykənən Cənubi Qafqaz planlarının arxasında axtarmaq doğru olar. Məhz Vaşinqtonun yanlışlıqları ucbatından ikitərəfli münasibətlər bəzən “hamar” yolundan çıxaraq dalana dirənir, əməkdaşlığın üzərinə kölgə düşür.

Fransa ilə hər şey aydındır. Azərbaycana qarşı az qala açıq düşmənçilik müstəvisinə keçirdiyi siyasətindən əl çəkmək istəməyən, Afrikada, Orta Asiyada və sonda Cənubi Qafqazda uğursuzluq zolağına düçar olan Emmanuel Makron artıq beynəlxalq qınaq obyektinə çevrilib. Əlbəttə, Yelisey sarayının müvəqqəti kirayənişinin son üç ildə Bakıya qarşı sərgilədiyi təkəbbürlü davranışı, ultimativ bəyanatları, hədə-qorxuya köklənən ritorikası ona baha başa gəlməliydi, gəldi də. Bakı ilə təmas körpülərini yandırdığına görə məhz rəsmi Paris peşman olacaq.

***

Ermənilər indi də okeanın o tayında anti–Azərbaycan kampaniyasını qızışdırmaqla məşğuldurlar. ABŞ Konqresinin 66 üzvü Qarabağdan öz xoşları ilə köçmüş ermənilərə 200 milyon dollar ayırmağa və Ermənistana “özünü müdafiə etməyə” köməyə çağırıb. Ermənistan parlamentinin ABŞ ilə dostluq qrupunun iqtidardakı “Mülki müqavilə” partiyasından olan deputatı Sarkis Xandanyanın başçılıq etdiyi nümayəndə heyəti mayın 1-dən Vaşinqtondadır. Heyət Senatın Xarici əlaqələr komitəsinin sədri Ben Kardinlə görüşüb. Ermənistan parlamentinin yaydığı məlumatda bildirilir ki, görüşün müzakirə mövzusu regionda sülhün təmin edilməsinin mühüm komponenti kimi Azərbaycan və Ermənistan arasında sülh prosesi və “Sülh yollarının kəsişməsi” layihəsi olub.

Son vaxtlar Konqresin hər iki palatasında xeyli fəallaşan erməni lobbisi gah Azərbaycana qarşı sanksiyaların tətbiq olunmasını tələb edən qanunvericilik təşəbbüsü ilə çıxış edir, gah da Ermənistana iki yüz milyon ABŞ dolları həcmində yardım paketinin ayrılmasına nail olmağa çalışır. “Armenpress” xəbər verir ki, bu barədə ABŞ-nin “HayDat” Komissiyası məlumat yayıb. Ermənilərin müraciəti Nümayəndələr Palatasının Xarici əməliyyatlar üzrə təsisatlar alt komitəsinin sədri Mario Diaz-Ballarta və konqresmen Barbara Liyə göndərilib. Məktubda “Dağlıq Qarabağ”dan olan qaçqınlar üçün 200 milyon dollar vəsaitin ayrılması, ABŞ-nin Azərbaycana hərbi və təhlükəsizlik yardımının dayandırılması” ilə yanaşı, Ermənistana 20 milyon dollar orduya, xaricdə hərbi təhsil və təlim üçün isə 10 milyon dollar tələb olunur. Bundan başqa, 10 milyon dollar daxili hüquqi, daha 10 milyon da demokratik islahatların aparılması üçün istənilir.

Haypərəst konqresmenlərin “istək və arzuları” bununla da bitmir. Qanunvericilər Dövlət Departamentini və beynəlxalq təşkilatları Azərbaycan hökumətini insan haqlarının pozulmasına görə məsuliyyətə cəlb etməməkdə qınayıb: “Birləşmiş Ştatların Azərbaycanın bütün beynəlxalq hüququn pozulmasına görə cavabdehlik daşıması üçün sanksiyalar tətbiq etmək barədə ciddi düşünməsinin vaxtı çatıb”.

Otuz il BMT başda olmaqla, ən nüfuzlu beynəlxalq təşkilatların qətnamə, müraciət və təkliflərini ayaqlar altına atan işğalçı Ermənistan indi “beynəlxalq hüquqları pozduğuna” görə Azərbaycanı “cəzalandırmağa” çalışır. İndi nəyə təəccüblənəsən: erməni həyasızlığına, yoxsa hüquqi nihilizmə?

***

Azərbaycan ötən ilin payızında Qarabağda lokal antiterror tədbirləri həyata keçirdikdən, öz ərazisi üzərində suverenliyini tam bərpa etdikdən sonra erməni lobbisinin səyləri nəticəsində ABŞ Dövlət Departamenti 907-ci düzəlişin qüvvəsini növbəti il üçün dayandırmaqdan imtina etdi. Bunun nəticəsində Ağ Evin Azərbaycana hərbi və təhlükəsizlik yardımı dayandırıldı. Ermənilərə lobbiçilk edən üzdəniraq senator və konqresmenlər bundan sonra da müxtəlif qanunvericilik təşəbbüsləri ilə çıxış etsələr də, heç biri uğurlu olmayıb.

**Ekspert rəyi**



**Rasim MUSABƏYOV, Milli Məclisin deputatı, politoloq:**

ABŞ Konqresinə bu cür müraciətlər tez-tez edilir. Amma onların reallaşması sual altındadır. Ermənilərin qoparmağı arzuladıqları məbləğ də çox yuxarıdan götürülüb. Məlumdur ki, Dövlət katibi Antoni Blinken 5 aprel Brüssel görüşündə Ermənistana yardımla bağlı konkret rəqəmi səsləndirib. ABŞ daxili proqramlarını gerçəkləşdirmək üçün İrəvana 65 milyon dollar ayırıb. Əgər Ermənistana gələcəkdə ediləcək maliyyə yardımından söhbət gedirsə bu Konresin ömrü payızda başa çatır. Nümayəndələr Palatasını tərkibi yenilənəcək. Sonra yeni büdcəyə baxılanda hansı təşəbbüslər irəli sürüləcəyini indidən demək çətindir. Hər halda, Konqresin bu tərkibdə büdcəyə dəyişikliklərə baxmaq imkanı olmayacaq.

Qarabağdan köçmüş ermənilər 200 milyon dolların ayrılacağı heç inandırıcı görünmür. Hərbi-texniki yardım məsələsinə gəldikdə isə “təhlükəsizlik və sülh” adlandırılan məqsədlər üçün əvvəllər də Ermənistana maliyyə dəstəyi göstərilb. Həmin yardımın həcmi nadir hallarda on milyon həddinə çatıb. Adətən, həmin məbləğ iki, üç, uzağı beş milyon dollar həndəvərində olub. Amma həmin maliyyə yardımı heç də silah-sursat demək deyil. Buraya hansısa dil kursları, birgə təlimlər və sairə daxildir. Amma ərazisində Rusiya hərbi bazalarının yerləşdiyi Ermənistanın Amerikadan silah əldə edə bilməsi qeyri-mümkündür.

Həqiqət ondan ibarətdir ki, ABŞ-dakı erməni lobbisinin dəridən-qabıqdan çıxmasına və böyük pullar xərcləməsinə baxmayaraq, 44 günlük müharibədən keçən üç il yarımda anti-Azərbaycan blokunda birləşmiş nə İrəvan, nə Paris, nə də Vaşinqton öz istəklərinə nail olublar. Qaldırdıqları siyasi-ideoloji hay-küyə, keçirdikləri etiraz aksiyalarına baxmayaraq, onların avantürist təklif və təşəbbüsləri, müraciətləri Konqresdə əksər çoxluğun təqdirini və təsdiqini qazana bilməyib. Yəni, onların ədalətə və beynəlxalq hüquqa tamamilə zidd tələbləri qanun, yaxud qətnamə şəklində paraflanmayıb. İnanırıq ki, tarixi ədalət tərəzisinin gözü bu dəfə də əyilməyəcək və erməni lobbisinin uzun əlləri elə öz ətəyindən aşağıda qalacaq.

Doğrudan da, faktın və reallığın üzünə dik baxanda heyrətlənməmək mümkün deyil. Ermənistan ordusunun tör-töküntüsünün, Xankəndidəki daşnak–separatçı xunta rejiminin Qarabağ iqtisadi rayonunda basdırdığı 1 milyondan çox minanı təmizləmək üçün Azərbaycana 1 dollar belə yardım etməyən Konqresə həmin ərazidən köçmüş ermənilər üçün 200 milyon dollar ianə istənilir. Dünyada azadlıq və ədalətin ən nəhəng heykəlini ucaltmış ABŞ parlamentinin indi bir ovuc erməninin və onların yerli “muzdlu lakeylərinin” əlində oyuncağa çevrilməsinə nə ad vermək olar? İndiki halda ikili standart və səlibçilik, yəqin, ən doğru cavabdır.

***

Bu arada ABŞ-nin Beynəlxalq Dini Etiqad Azadlıqları Komissiyası (USCIRF) 2023-cü ilin sonuna qədər baş verən hadisələri “sənədləşdirən” hesabatını dərc edib. Həmin hesabatda Azərbaycan “qırmızı risk” zonasındadır. Guya, keçən il Azərbaycanda dini etiqad azadlığı üçün yaradılan şərait pisləşməkdə davam edib. Aydın məsələdir ki, Azərbaycanın adını bu hesabata ABŞ-dakı ermənim lobbi və diaspor təşkilatları qəsdən saldırıblar. Motivləri də bu olub ki, Azərbaycan “Dağlıq Qarabağ” bölgəsində və onun ətrafında “erməni dini obyektlərini, mədəni irsini təhdid etməkdə” davam edib. Hesabatda belə bir yalan məlumat da yer alıb ki, 2023-cü ilin may ayında Azərbaycanın Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi ÜAK-ın erməni keşişlərinə onların bu dini məbədə heç aidiyyatı olmadığını bildirərək, Kəlbəcər rayonundakı Dadivank monastırdan rədd olmağı tələb etmişdi.

Bunun ağ yalan olduğu BMT-nin Xankəndidəki missiyasının 2023-cü ilin oktyabr ayında hazırladığı məruzəsində öz əksini tapıb. Beynəlxalq qurumun ekspertləri Bakının sentyabrın 19-20-də həyata keçirdiyi antiterror tədbirində ermənilərin bölgədəki mədəni və ya dini abidələrinə heç bir ziyanın dəymədiyi barədə nəticəyə gəliblər. İntəhası, digər “maraqlı” təşkilatlar regionda potensial ziyan və ya dağıntı riskindən “narahat olduqlarını” bildiriblər. 2023-cü ilin noyabrında Qafqaz İrs Mərkəzinin (CHW) Kornell Universitetinin dəstəklədiyi tədqiqat qrupu Şuşadakı Meqretsots Surb Astavatsatsin kilsəsinə ziyan vurulduğunu bildirmişdi. Elə həmin ay CHW təşəbbüsçüləri Şuşada iki erməni qəbiristanlığına dəydiyi ehtimal olunan ziyanı göstərən peyk şəkillərini dərc etdi. Amma sonradan həmin videogörüntülərin Şuşaya aid olduğu öz təsdiqini tapmadı.

Təsdiqlənmiş və inkarı mümkün olmayan fakt və sübutlar isə ermənilərin Qarabağda törətdiyi vandallıq aktları ilə bağlıdır. İşğala qədər Azərbaycanın Qarabağ və ətraf rayonların ərazilərində rəsmi fəaliyyət göstərmiş 67 müsəlman məscidinin (Şuşada 13, Ağdamda 5, Füzulidə 16, Zəngilanda 12, Cəbrayılda 5, Qubadlıda 8, Laçında 8) 63-ü tamamilə, 4-ü isə qismən ermənilər tərəfindən dağıdılaraq yararsız hala salınıb. Erməni faşistlərinin Qafqazın Xirosimasına çevirdikləri Ağdamda daş üstündə daş qoymadıqlarına indi bütün dünya şahidlik edir. Vəhşiləşmiş hayların xaraba qoyduqları Qarabağın digər şəhər və kəndlərində üzləşdikləri dəhşətli mənzərədən şoka düşən əcnəbi jurnalistlərin sənədli yazıları və videomaterialları dünyanın ən mötəbər qəzet və jurnallarında dərc olunur, telekanallarda nümayiş etdirilir.

Azərbaycan Cənubi Qafqazın ən uzunömürlü problemini təkbaşına həll etməklə bölgədə yeni geosiyasi reallığın müəllifi oldu. İndi Bakı sülh və əməkdaşlıq üçün dünyaya çağırışlar edir, böyük layihələrdən birgə bəhrələnmək təşəbbüsünü irəli sürür. Bu çağırış və təşəbbüsləri dəstəkləyənlərlə yanaşı, özlərinin qlobal maraqlarını sülhdən və əməkdaşlıqdan üstün tutulanlar da var. Bu mənada Ağ evin Cənubi Qafqaz regionu ilə bağlı sərgilədiyi siyasət heç də xoş məramа xidmət etmir. Görünür, onun Ermənistan vasitəsilə bölgəyə daxil olmaq arzusu hələ də “sönməyib”. Amma bu zaman, o, həmin arzunun gerçəkləşməsinə heç vaxt imkan verməyəcək real güc və söz sahiblərini unudur. Azərbaycan – Türkiyə birliyini yaddan çıxarmağı heç kəsə rəva görməzdik.

**İmran BƏDİRXANLI**
**XQ**

# Baş prokuror Tərtərdə qəbul keçirib



**Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırıqlarına uyğun olaraq prokurorluq orqanları tərəfindən vətəndaşların qəbulu daim diqqətdə saxlanılmaqla onların ərizə və şikayətlərinin yerində dinlənilərək həll olunması üçün müvafiq tədbirlər görülür.**

Mayın 3-də Baş prokuror Kamran Əliyev Tərtər rayon prokurorluğunun inzibati binasında Tərtər, Ağdam, Bərdə, Goranboy və Xocalı rayonu və digər bölgələrdən olan vətəndaşları qəbul edib.

Qəbulda iştirak edən 71 nəfər vətəndaşın müraciətində konkret cinayət işlərinin istintaqı və törədilmiş cinayətlər barədə məlumatların araşdırılması zamanı yol verilmiş qanun pozuntuları, məhkəmədə baxılan cinayət işləri üzrə dövlət ittihamının müdafiəsi, habelə mülki xarakterli mübahisələr və sosial problemlərə dair qeyd olunan məsələlərin bilavasitə prokurorluqda və ya aidiyyəti icra orqanlarında operativ həlli üçün müvafiq göstərişlər verilib.

Qəbuldan sonra prokurorluq əməkdaşları ilə görüş keçirən Kamran Əliyev onlara konkret tapşırıqlar verib, vətəndaşların müraciətlərinə obyektiv baxılması və qəbulu işinin düzgün təşkilinə görə tabe prokurorların fərdi məsuliyyət daşıdığını diqqətə çatdırıb.

**XQ**

**Tərsməzhəb**

**Etnik şovinizmin, “dənizdən-dənizə böyük Ermənistan” xəyalının ilhamverici qüvvəsi rolunda məhz erməni qriqorian kilsəsinin çıxış etdiyi bu günün gerçəkliyi deyil. İki yüz ildir ki, dini məzhəbləri kimi, xaçları və düşüncələri də saxtakarlıqdan yoğrulmuş bu kilsə hay təbəəsinin beynini milli natamamlıq kompleksi, qonşulara qarşı ərazi iddiaları ilə zəhərləməklə yanaşı, həm də nifrət ideologiyası üzərində zombiləşdirməklə məşğuldur. Hələ də sağlam millətə çevrilməyi bacarmamış bu qövmün, demək olar ki, başına gələn bütün faciələrin baiskarı əməlləri kimi qara əbaya bürünmüş katolikos və keşişlərdir.**

# Keşiş Baqratın hipnoz seansı



Tavuşluları mövcud hakimiyyətə qarşı zəiflikdə, onu devirmək üçün ayağa qalxmamaqda ittiham edən Baqrat Srbazyan adlı başabəla “keşiş” İrəvanda bütün ermənilərin katolikosu II Qaregin və eks-prezident Robert Koçaryanla görüşlər keçirib. O, həmin görüşlərdə göz yaşı tökərək, “ümummili erməni hərəkatının sönməyə başlamasından”, hətta Tavuşun dörd kəndinin sakinlərinin hakimiyyətə qarşı getməməsindən şikayətlənib.

Azərbaycan torpaqlarının işğalında, soydaşlarımızın qətlində əlində silah iştirak etmiş erməni keşişin “göz yaşları”nın səmimiliyinə heç də ermənilərin hamısı inanmır. Bunu biz yox, erməni deputat deyir: “Keşişlər Ermənistanı yeni müharibəyə cəlb etməklə fəal məşğul olurlar”.

Ermənistan Milli Assambleyasının “Vətəndaş müqaviləsi” fraksiyasının deputatı Emma Palyan parlament saatındakı çıxışında özlərini “din xadimi” adlandırılanların bəd əməllərindən danışıb. Son günlər ölkəsində gedən prosesləri tarixi hadisə adlandıran Palyanın sözlərinə görə, bu mühüm və tarixi hadisələrə paralel olaraq digər dövlətlərin maraqlarına xidmət edən bəzi siyasi qüvvələr, din xadimləri Ermənistanı yeni müharibəyə cəlb etməklə fəal məşğul olurlar. Emma Palyan çıxışında Baqrat Srbazyan kimi əbalı separatçıları nəzərdə tutaraq, “onların kənardan belə bir tapşırığı var” – deyə bildirib.

Mətbuatda dərc olunan məlumatlara görə, kənardan istiqamətləndirilən anti-Paşinyan hərəkatına Tavus yeparxiyasının lideri, eyni zamanda, iş adamı Baqrat Srbazyan rəhbərlik edir. Bu işbaz “din xadimi” Ermənistan–Azərbaycan sərhədində basdırılan ilk sərhəd dirəyini “Ermənistanın məzarının ilk daşı” adlandırıb. Bu maraqlı fikri də deputat Palyan söyləyib.

Separatçı keşişə dəstək verənlərdən biri də keçmiş prezident, hazırda mal-mülkünün müsadirə ediləcəyi təhlükəsi ilə üzləşən Robert Koçaryandır. O, Srbazyanı “istefa aksiyasını” İrəvana köçürməyə, eyni zamanda, onun məsləhətlərinə qulaq asmağa və hakimiyyətə qarşı birlikdə getməyə çağırıb. Koçaryan keşişə “Nikolun etdiyi kimi, İrəvana piyada getmək” məsləhətini verib, yol boyu əhalidə hökumət əleyhinə əhval-ruhiyyə yaratmağı tapşırıb. Bundan başqa, o, “xalq qəhrəmanı” Srbazyana əlində olan mediadan informasiya dəstəyi vəd edib.

Erməni saytları “müqəddəs ata” Baqratın Kremllə və beşinci kolonla əlaqə yaratmağa başlayandan sonra Rusiyadakıı biznes şəbəkəsini üzə çıxarıb. Bir vaxtlar Kanada vətəndaşı olan, indi Tavuş yeparxiyasının rəhbəri Baqrat Srbazyanın soydaşlarına üfürdüyü moizəsindən bir parça: “Həqiqət naminə çarmıxa çəkilməkdən və onu qəbul etməkdən şərəfli bir şey yoxdur. Hər kəs belə düşünməlidir. Yalan mənim üçün çarmıxa çəkilib, mən də yalan üçün. Həqiqət mənim xaçımdır və mən bu həqiqət üçün yaşayacağam. Bizim şüurumuzun, addımlarımızın, hərəkətlərimizin, mübarizəmizin mahiyyəti bu olmalıdır. Bundan başqa heç nə bizim üçün dəyər ola bilməz, çünki ondan kənar hər şey uğursuzluqdur”.

“Milli əzabkeş” obrazını yaratmağa çalışan keşiş Srbazyan özünü az qala İsa peyğəmbərə (ə.) bənzədir. Erməniləri ilğımvarı illüziyalarla hipnoza salmağa çalışan keşişin sabah hamını Nikol Paşinyana qarşı silahlı üsyana çağırması təəccüblü görünməməlidir. Deyəsən, o, özünü İsa peyğəmbəri (ə.) çarmıxa sürükləyən “məzarqazan” İuda rolunda görmək istəyir...

**İ.HƏSƏNQALA**
**XQ**

# Azərbaycanda alimlik və elmi təcrübənin "fəlsəfi formulu"



Azərbaycanın elmi-texniki səviyyəsini inkişaf etdirmək üçün yüksək təhsilə, elmə nail olmalıyıq.

**Heydər ƏLIYEV,**
**Ümummilli lider**

## Cəmiyyətdə alimin yeri

Alimliyi, adətən, ümuminsani və ümumbəşəri fenomen kimi qəbul edirlər. Böyük mənada "alimliyə" anlayış kimi baxsaq, əlbəttə, belədir. Çünki bu dünyada ancaq insan alim ola bilir. Başqa varlıqlardan hansınınsa alim olması təcrübəsi hələlik yoxdur. Kimsə süni intellektin nə vaxtsa, insan kimi yaradıcı ola biləcəyini düşünürsə, bu da xəyal dünyasının elementlərindən biridir (hələlik belədir).

Ancaq alimlik insan reallığı kimi həm anlamda, həm də funksiyada çoxmənalıdır. Alimin məntiqi təfəkkür, emosional təfəkkür, duyğusallıq və digər keyfiyyətləri haqqında insanlar "müdrik", "bilikli", "mənəviyyatlı", "əxlaqlı", "qayğıkeş" və digər fəzilət sahibi olaraq, fikir söyləmişlər və indi də söylənilir. Məhəmməd peyğəmbər (s.) alimlərlə bağlı dillər əzbəri olan fikir demişdir: "Alim öldü, aləm öldü"! Bu dərin və çox orijinal fikrin mənaları üzərində dayanmıram. O, ayrıca bir araşdırmanın mövzusudur. Yalnız onu demək istərdim ki, alimin bu dünyada "aləm yaradan bəndə" olması deyimi alimliyin ən yüksək pillədə olduğunun dində təsdiqidir. Niyə?

Çünki dünyanın mahiyyətini, insanın kimliyini və həyatının mahiyyətini, cəmiyyətin varoluşunun təməllərini alimlər aydınlaşdırırlar. Bu prosesdə ümumilikdə alimlərin nə dərəcədə uğurlu olduğu ayrıca dərin fəlsəfi problemdir. O cümlədən, konkret hansı alimin dünyaya nə kimi yeniliyi gətirməsi də xüsusi mövzudur. Burada əsas olanı odur ki, bütün bəşəriyyət üçün alim elə bir nurlu çıraqdır ki, dünyanın ən qaranlıq guşələrini belə işıqlandırmağa çalışır. Alim bu anlamda "aləmi insanlar üçün yaradandır". Alimin həmin yolda fəzilətli olması peşə deyil, missiyadır, alimliyin boynuna qoyulmuş yükdür!

Lap qədimlərdən hər bir xalqın öz "alimi" və "alimlik" fəlsəfəsi" olmuşdur. Onların hamısını birləşdirən ümumi keyfiyyət isə müdriklik, ağıllılıq, dünya və insan haqqında dərin bilgilik və fəzilətlilik olmuşdur.

Qədim yunanlardan Platon bu keyfiyyətlərə görə, 7 müdriki müəyyən etmişdir. Platona görə, Fales, Pittak, Biant, Solon, Kleobul, Mison və Hilon müdrikdirlər. Başqa siyahı da vardır. Onların "Özünü dərk et", "Ölçüdən yuxarı heç nə yoxdur", "Ölçü hər şeydən əhəmiyyətlidir", "Həyatda ən başlıcası sondur" və digər deyimləri məşhurdur.

Platon müdrikliyi həmişə öyrənməyə canatma ilə tərif etmişdir. Lakin burada başqa bir şərt də digər yunan filosoflar tərəfindən qoyulur: çox bilmək müdriklik deyildir. Bununla bağlı Heraklitin maraqlı deyimi vardır: "Çox bilmək ağıllanmağı öyrətmir, elə olsaydı, Pifaqor müdrik olardı". Lakin bir sıra filosoflar məhz Pifaqoru da müdriklər sırasına daxil etmişlər. Paradoks...

Digər xalqlarda da buna bənzər təsniflər mövcuddur. Onların alimlik kriteriyaları fərqli ola bilir. Lakin hamısını birləşdirən başlıca cəhət alimin insanlar, cəmiyyət və dünya üçün yalnız müsbət işlər görmələri və bunun üçün də hamıdan ağıllı, bilikli və müdrik olmaları ilə əlaqəlidir. Eyni zamanda, əsl alim alimliyini əmələ çevirə bilməlidir (Tofiq Hacıyev). Təsadüfi deyildir ki, türklərdə Bilgə Xaqan, Bilqamıs (hər şeyi bilən adam) və s. anlayışlar vardır. "Kutadğu-Bilik" və "Nizamülmülk"də alimlik dünyəvi olmaqla yanaşı, dövləti və toplum fenomeni kimi də təqdim edilir. Bu zaman, alimlərə xüsusi qayğı və diqqətin göstərilməsi vacibliyi ayrıca vurğulanır. Məsələn, "Kutadğu-Bilik"də yazılır ki, hökmdar alimi təmin etməlidir, olmasa, başqası bu işi görəcəkdir ki, alim də kənara xudmət etməli olacaq.

Azərbaycan şifahi yaradıcılığında alimlər və alimlik daima xüsusi yer tutmuşdur. Bir qayda olaraq, alim xilaskar, ağsaqqal, müdrik, xalqsevər, biliyini xüsusi olaraq şagirdləri ilə paylaşan, inanclı, çalışqan və ədalət tərəfdarı obrazlarında tədqim olunmuşdur.

Cəmiyyət dəyişdikcə, strukturu və funksiyaları inkişaf etdikcə alimlik obrazı da yeniləşmişdir. Müasir dövrdə alim və alimliyin öncəki tarixi mərhələlərdən fərqli keyfiyyətləri mövcuddur. Məsələn, indi alimlərin sayı çoxdur. Onlar, demək olar ki, cəmiyyətin bütün təbəqlərindən çıxa bilirlər. Hətta, ziyalı kimi alimlər ayrıca sosial kəsim kimi qəbul edilirlər.

Son illər alimlər və alimlik "prekariat" statusunda (yəni daimi iş yeri olmayan və keçici müqavilələr əsasında araşdırma aparan yaradıcı adam) da özünü göstərir. Bu təbəqəni bir sıra fəlsəfi və sosioloji araşdırmalarda cəmiyyətə təhlükə kimi tədqim edirlər. Digərləri isə artıq onların fəaliyyətini "akademik rəsmi sistemdən kənar", lakin onlarla eyni hüquqlara malik alimlər kimi qəbul edilməsini daha doğru sayırlar. Hər bir halda alim və alimlik yenə də cəmiyyət üçün olduqca əhəmiyyətli olan fenomenlər kimi qəbul edilməkdədir. Bir nümunə vurğulanmalıdır.

Keçən əsrin ikinci yarısından ABŞ-də ən nüfuzlu peşə müəyyənləşdirən sosioloji araşdırmalar aparılır. Hər il keçirilən sorğularda professorluq birinci olmuşdur. Müqayisə üçün hakimlik, prokurorluq peşəsi isə 6-7-ci sırada yer almışdır. Lakin bu cür qiymətləndirmənin bütün dövlətlər və cəmiyyətlər üçün universal olduğunu demək mümkün deyildir. Burada alimin və alimliyin öz tarixçəsi vardır. Həmin tarixçəyə uyğun da alim və alimlik obrazı formalaşır. Məsələn, Latın Amerikasını fəlsəfi aspektdə araşdıran alimlərin qənaətinə görə, orada təhsil ənənəvi olaraq aşağı səviyyədə olduğundan Avropa üçün müəyyən edilən təsnifat keçərli deyildir – alimin nüfuzu ilə bağlı tamamilə fərqli pilləvari struktur alınır.

## "Hər birimiz kitablara borcluyuq"

Şərqdə və ayrıca Azərbaycanda alimin və alimliyin öz ənənəsi mövcuddur. Fəlsəfi araşdırmalara görə, şifahi mədəniyyətin üstünlük təşkil etdiyi tarixi mərhələdə (M.Maklüyen) bilik, bir qayda olaraq, ustaddan (müəllimdən) şagirdə (tələbəyə, öyrənənə) vahid qaydada ötürülürdü. Burada dəmir qayda şagirdin ustada tam sədaqətli olması və ustadın şagirdə bildiyini dəyişməz halda tam paylaşmasından ibarət idi. Deməli, vəzifə ilə məsuliyyət qarşılıqlı müəyyən edilmişdi: müəllim biliyini şagirdi ilə tam paylaşmalı, şagird isə aldığı biliyi deyildiyi kimi tətbiq etməli və öz növbəsində digərlərinə ötürməlidir. Bundan başqa, müəllimlə şagird arasında mütləq mənəvi-əxlaqi bağlantı olmalıdır: "Əti sənin, sümüyü mənim" deyimi!

Yazılı mədəniyyət dövründə alim, alimlik, biliyi paylaşma mexanizmləri yeniləşməyə başladı. Artıq alimin birbaşa bir şagirdlə bilik paylaşması modeli mütləq və yeganə bilik paylaşmaq üsulu deyildir. Çünki alim kitabı yazır və çox sayda nəşr etdirir ki, biliyini bu üsulla görmədiyi və tanımadığı insanlarla paylaşa bilir. Bunun üçün nəşr evləri və kitabxanalar yaranır. Məktəblər təşkil edilir və Orta əsrlərdə universitetlər qurulur. Marşall Maklüyen bu prosesi "Hutenberq qalaktikası" kimi obrazlı ifadə edir. Hutenberq Avropada ilk kütləvi kitab nəşr edən mətbəənin sahibinin adıdır. Bu adam həmin dövrdə ən varlı və tanınmış şəxs olmuşdur. Avropa cəmiyyətinin elitası Hutenberqin evinə yığışırmış və s.

Azərbaycanda alimlik və biliyin paylaşılması üsulu Bizansın dağılmasından sonra yunan fəlsəfi və elminin təsiri ilə məktəblərin meydana gəlməsi fonunda tədricən dəyişməyə başlamışdır. Bu məsələ üzərində geniş dayanmayaq, lakin avropalı səyyahlar VII-XI əsrlərdə Azərbaycan ərazisinə səyahətləri zamanı burada güclü elmi-tədris məktəblərinin mövcudluğundan heyranlıqla yazmışlar. Həmin məktəblərdə dini tədrislə yanaşı, dünyəvi elmlərin öyrədilməsi də yüksək səviyyədə olmuşdur. Nəsirəddin Tusinin Marağadakı elm ocağı dünyada məşhur idi. Ədəbildə, Təbrizdə, Marağada, Naxçıvanda, Bakıda, Şamaxıda və digər Azərbaycan şəhərlərində güclü məktəblər vardı ki, dövrün tanınmış alimləri orada çalışırdılar.

Bütün bu prosesin nəticəsi idi ki, əsrlərlə Azərbaycanda güclü fəlsəfi, elmi və bədii yaradıcılıq mühiti olmuşdur. Böyük alimlər, şairlər, səlnaməçilər, tarixçilər, ədəbiyyatçılar dünyada tanınmışlar. Bütün bunlar Azərbaycanda alim, alimlik və biliyin, elmi təcrübənin paylaşılmasına xüsusi məna və məzmun vermişdir.

Azərbaycanda dayanıqlı bir ziyalılıq ənənəsi formalaşmışdır. Onun başlıca xüsusiyyətini ulu öndər Heydər Əliyev müxtəlif deyimlərində dəqiq ifadə etmişdir. "Azərbaycan xalqı yüksək elmə, biliyə savada...malik xalqdır", "Azərbaycanda elmi həmişə cəmiyyətin ali dəyəri hesab etmişlər", "Hər birimiz kitablara borcluyuq" və digər kəlamlarında Ümummilli lider ölkəmiz və cəmiyyətimiz üçün alimin, müəllimin, ziyalılığın xüsusi rolunu vurğulamış və bu ənənənin indi də davam etdiyini vurğulamışdır.

## Mənəviyyat və əxlaq

Bunlar belə bir nəticə çıxarmağa tam əsas verir: Azərbaycanda alimliyin, ziyalılığın və biliyi paylaşmanın öz təcrübəsi qədimdən formalaşmışdır və bunun fəlsəfi dərki olduqca vacibdir. Bu vaciblik həm, ümumiyyətlə, alimliyin mənası aspektində, həm də tarix boyu alimlərin cəmiyyətin varlığında göstərdiyi xidmətlərə görə mütləq nəzərə alınmalıdır. Azərbaycanda əsl ziyalı və alim obrazının fəlsəfi cizgiləri çəkilməlidir ki, onun fonunda elmi biliyin ünsiyyətdə və başqa üsullarla paylaşılmasının cəmiyyətimiz üçün əhəmiyyətini araşdırmaq mümkün olsun. Qısa desək, Azərbaycanda alimliyin və elmi biliyi paylaşmanın "fəlsəfi formulu"nu birgə müəyyən etmək çox lazımdır.

Məsələnin tarixi aspektdə əhəmiyyəti alimlərin toplumumuzda oynadıqları rolun məzmununda aydın görünür. Heydər Əliyev çox doğru olaraq vurğulayırdı ki, Azərbaycan xalqının formalaşmasında elm və təhsil həlledici rol oynamışdır. Bu cəmiyyət üçün alimlik və müəllimlik həmişə müqəddəs sayılmışdır. Deməli, cəmiyyətin ən dərin qatlarına qədər alimlər təsir etmişlər, onu formalaşdırmanın mexanizmlərini yaratmışlar və yollarını göstərmişlər. "Kutadğu-Bilik" kitabı nümunəsində bunu görə bilərik.

"Kutadğu-Bilik" "Dövlət Olma Bilgisi" deməkdir ki, həm də "Xoşbəxtlik verən bilgi" mənasını verir. Əsəri Yusuf Balasaquni (Yusuf Has Hacib) XI əsrdə Qara Xana ithafən yazmışdır. Deməli, türk toplumları və dövləti üçün bilik xoşbəxtliyin rəmzi olmuşdur. Eyni zamanda, elm sayəsində dövlət olmanın mümkünlüyü fəsəfəsi qəbul edilmişdir. Kitabın mətnində də alimlərin və alimliyin yüksək qiyməti verilmiş, onları qorumağın və həyat şəraitlərini təmin etmənin dövlətin müqəddəs borcu olduğu fikri irəli sürülmüşdür. Çünki türk qavramında alim cəmiyyətin yaradıcısı, alimlik isə onun mənəvi-əxlaqi aləminin istehkamıdır. Bu iki keyfiyyətin birliyi əsl anlamda türk alimi və alimliyini müəyyən edir.

Belə alınır ki, qədimdən bu yana Azərbaycan alimliyində başlıca xüsusiyyətlər dərin və geniş bilgi ilə yanaşı, ictimai faydalılıq və mənəvi-əxlaqi dəyərlər öncül rol oynamışdır. Bu isə o deməkdir ki, Azərbaycan alimi çalışqan, bilik əldə etməkdən usanmayan şəxsiyyət olmaqla yanaşı, mütləq ictimai faydası olan və davranışı ilə bütün topluma nümunə göstərən insan olmalıdır. Heydər Əliyev bu səbəbdən həmişə Azərbaycan alimliyində mənəvi-əxlaqi nümunəni ön plana çəkirdi. Azərbaycanda alimliyin kriteriyalarından biri mənəviyyat və əxlaqdır!

Bu özəllik Azərbaycan alimi və alimliyi üçün ünsiyyət və bilik paylaşımı keyfiyyətini ön plana çıxarır. Bununla bağlı Azərbaycanda müasir mərhələdə hansı təcrübə mövcuddur?

**(ardı var)**

**Füzuli QURBANOV,**
**XQ-nin analitiki,**
**fəlsəfə elmləri doktoru**

**Təqdimat**

# Ərəb müəllifin ölkəmizə "Vətən və liderlik" baxışı



**Azərbaycan Mətbuat Şurasında iordaniyalı tarixçi-araşdırmaçı Omar Nezzel Əl-Armutinin Azərbaycana həsr etdiyi "Vətən və liderlik" kitabının təqdimatı keçirildi.**

Mətbuat Şurası ilə İslam Əməkdaşlıq Təşkilatına üzv Dövlətlərin Jurnalistləri Assosiasiyasının birgə keçirdiyi toplantıda İordaniya Haşimilər Krallığının səfiri Ömər Bərəkət əl-Nahar, Mərakeş Krallığının səfiri Məhəmməd Adil Embarş, Fələstin Muxtariyyətinin səfiri Nəssir Əbdül Kərim Əbdül Rəhim, Milli Məclisin deputatı, Xalq şairi Sabir Rüstəmxanlı edirdilər.

Mərasimi idarə edən Mətbuat Şurasının idarə heyətinin üzvü Müşfiq Ələsgərli bildirdi ki, "Sülh və qlobal təhlükəsizlik naminə dialoq" mövzusunda keçirilən 6-cı Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun iştirakçısı Omar Nezzel Əl-Armutinin Qarabağ münaqişəsinə, ölkəmizin ictimai-siyasi, mədəni həyatına, müstəqil dövlətçiliyimizə həsr etdiyi silsilə əsərlərin üçüncüsü olan "Vətən və liderlik" kitabında Azərbaycan həqiqətləri, xalqımızın çağdaş mübarizəsi dünya ictimaiyyətinə çatdırılmışdır. Bu əsərlər ərəb dünyasının Qarabağ müharibəsində həmrəyliyinə önəmli təsir göstərmişdir.

Milli Məclisin deputatı Sabir Rüstəmxanlı dedi ki, bu gün çox dəyərli bir dostumuzun kitablarını müzakirə edirik. Birinci kitabda Qarabağ haqqında dolğun məlumatların olması bizi çox sevindirir: "Ömər əl-Armuti dəfələrlə Azərbaycana gəldiyinə və Qarabağ həqiqətlərini bildiyinə görə bu hadisələrə biganə qala bilməyib, ağrı-acılarımızı real faktlarla işıqlandırıb".

Yazıçı-publisist, ərəbşünas Fazil Abbasov isə qeyd etdi ki, Ömər Armutinin birinci kitabı "Qarabağ münaqişəsi beynəlxalq hüquq müstəvisində" adlanır: "Bu, o zamanlar idi ki, ermənilər ərəb dünyasının kapitalını Ermənistana yönləndirmək istəyirdilər. İkinci kitabı Azərbaycan və İordaniya əlaqələrinə həsr olunub. İƏT Üzv Dövlətləri Jurnalistlərinin Assosiasiyası həmin kitabları Azərbaycan dilinə tərcümə etmişdir. Ömər Armuti təkcə ərəb dünyasının deyil, bütün islam dünyasının problemlərindən yazır. O, islam mücahididir. Bu gün burada üçüncü kitabın təqdimatına toplaşmışıq. Bu kitabı da ana dilimizə tərcümə edəcəyik".

Səudiyyə Ərəbistanındakı "Əl Cəzirə" qəzetinin baş redaktoru Xalid əl-Maliki, İordaniya Haşimilər Krallığının ölkəmizdəki səfiri Ömər Bərəkət əl-Nahar İslam dünyasında həmrəyliyə xidmət edən belə nəşrlərə ciddi ehtiyac olduğunu söylədilər.

**Sonda kitabın müəllifi Omar Nezzel Əl-Armuti dedi:**

– Çox xoşbəxtəm ki, son on il ərzində 5 dəfə Azərbaycana gəlmişəm. Mənim ürəyim Azərbaycana və bu xalqa çox bağlıdır: "Mən bilirəm ki, bizim İslam dünyasında birliyimiz olmalıdır. Azərbaycan gerçəkləri haqqında 2 kitabımı dostum Fazil Abbasov tərcümə edib. "Vətən və liderlik" kitabını həmkarım Məhəmməd Əbdülhəmid əl-Nasirlə birgə ərsəyə gətirmişik. Bu işimiz ümummilli lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunub. Kitabda müstəqil Azərbaycanın qurucusu Heydər Əliyevin tarixi fəaliyyətini real faktlarla qələmə almışıq".

Mərasimdə iştirak edən rəsmi şəxslər, ziyalılar, jurnalistlər ərəb dünyasında Azərbaycanla bağlı sənədli faktlar əsasında belə dəyərli kitabların yazılmasını alqışladılar.

**Kəmalə ABDİNOVA,**
**Fidan SALMANOVA,**
**XQ**

# Hüquq jurnalları vahid bazada



**Hüquq və İnsan Haqları İnstitutu hüquq sahəsində nəşr olunan elmi jurnalların vahid elektron axtarış bazasının yaradılması, hüququn ayrı-ayrı sahələri, o cümlədən, insan hüquq və azadlıqları sahəsində elmi-tədqiqat potensialının artırılması və hüquq nəşrlərinin bir bazada toplanılması məqsədilə dəyirmi masa təşkil edib.**

Mayın 3-də institutda keçirilən tədbirdə 20 hüquq jurnalının təsisçiləri və redaksiya heyəti, müxtəlif təhsil ocaqlarını təmsil edən hüquqşünas alimlər və aidiyyəti dövlət qurumlarının əməkdaşları tərəfindən sözügedən mövzu ətrafında fikir mübadiləsi aparılıb, elektron axtarış bazasının yaradılması istiqamətində səmərəli təkliflər dinlənilib.

İnstitutun İdarə Heyətinin sədri Məhəmməd Quluzadə qeyd edib ki, hüquq jurnallarına dair vəziyyəti öyrənmək məqsədilə İnstitut 109 hüquqşünas və 13 hüquq jurnalı arasında onlayn elektron sorğu keçirib və monitorinq hesabatı hazırlayıb. Monitorinq nəticəsində hüquqşünasların Azərbaycanda dərc olunan hüquq jurnallarına məqalə yazmaqda maraqlı olduqları, bir çox hüquq jurnallarının elektron formatının mövcud olmaması, yazılan məqalələrin keyfiyyətinin aşağı olması və beynəlxalq reytinqlərdə az təmsil olunmaları müəyyən edilib. Bu problemlərin aradan qaldırılması üçün İnstitut BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarlığı (OHCHR) ilə birlikdə hüquq jurnallarının vahid elektron axtarış bazasını yaratmağa dair razılıq əldə edib.

Daha sonra Vəkillər Kollegiyasının Akademiyasının rektoru, professor Əmir Əliyev çıxış edərək, hüquq sahəsində məqalə dərc edən jurnallarla bağlı mövcud vəziyyətin qənaətbəxş olmadığını bildirib. O, hüquq jurnallarının nüfuzunu artırmaq üçün onların beynəlxalq data-bazada yer almasının vacibliyini vurğulayıb. Professor institutun bu istiqamətdə atdığı bütün addımları dəstəklədiyini, mövcud çətinliklərin həlli istiqamətində Vəkillər Kollegiyasının Akademiyasının da lazım olan köməkliyi göstərməyə hazır olduğunu qeyd edib.

Müzakirələr zamanı dərc olunan məqalələrə görə qonorarın verilməsi, elmi məqalələrin hazırlanmasında beynəlxalq təcrübənin tətbiq edilməsi, bu sahədə gənc hüquqşünaslara təlimlərin keçirilməsi, bəzi jurnalların sosial media hesablarının yaradılması, jurnallara göndərilən məqalələrin standartlara uyğunlaşdırılması və s. təkliflər irəli sürülüb.

Tədbirdə iştirak edən AMEA-nın vitse prezidenti, akademik Gövhər Baxşəliyeva, Ədliyyə Nazirliyinin İnsan Hüquqları və Kommunikasiya İdarəsinin rəisi Aynur Sabitova, Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının şöbə müdiri Elşən Məmmədli, Baş Prokurorluğun Elm-Tədris Mərkəzinin rəis müavini Talıb Cəfərov və digər şəxslər öz dəyərli fikirlərini səsləndiriblər.

**Qabil YUSİFOĞLU**
**XQ**

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 233**

**Bakı şəhəri, 1 may 2024-cü il**

**"Enerji balansının hazırlanması, təsdiq edilməsi və icrasına nəzarət Qaydası"nın təsdiq edilməsi haqqında**

"Energetika haqqında" Azərbaycan Respublikasının 2023-cü il 24 oktyabr tarixli 1006-VIQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 5 dekabr tarixli 2372 nömrəli Fərmanının 2.2-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** "Enerji balansının hazırlanması, təsdiq edilməsi və icrasına nəzarət Qaydası" təsdiq edilsin (əlavə olunur).

**2.** Azərbaycan Respublikasının Energetika Nazirliyi:

2.1. enerji balansının tərtib edilməsi üçün energetika subyektlərindən alınan məlumatlara dair hesabat formaları və metodoloji izahları altı ay müddətində təsdiq etsin;

2.2. bu Qərarın 2.1-ci bəndində qeyd olunan hesabat formalarının və metodoloji izahların, habelə hər il "Azərbaycan Respublikasının enerji balansı"nın layihəsinin tərtib edilməsi və icrasına nəzarət məqsədilə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi, Azərbaycan Respublikasının Maliyyə Nazirliyi, Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, Azərbaycan Respub-likasının Dövlət Neft Şirkəti, "Azərenerji" Açıq Səhmdar Cəmiyyəti, "Azərişıq" Açıq Səhmdar Cəmiyyəti, "Azəristiliktəchizat" Açıq Səhmdar Cəmiyyəti və Dövlət Kontrakt Korporasiyası "Azərkontrakt" Açıq Səhmdar Cəmiyyətinin nümayəndələri də daxil olmaqla daimi fəaliyyət göstərən İşçi qrupun yaradılmasını və onun fəaliyyətinin əlaqələndirilməsini təmin etsin;

2.3. rəsmi internet səhifəsində "Azərbaycan Respublikasının enerji balansı" adlı məhdud giriş imkanlarına malik elektron məlumat bazasının on ay müddətində yaradılmasını təmin etsin;

2.4. ölkədə istehsal (tədarük) olunan enerji və yanacaq növlərinin istiliktörətmə qabiliyyəti üzrə göstəricilərini müəyyən edərək, "Enerji məhsullarının şərti ölçü vahidlərinə orta çevrilmə əmsalları"nı səkkiz ay müddətində təsdiq etsin və rəsmi internet səhifəsində yerləşdirilməsini təmin etsin.

**3.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Qərarın 2.3-cü bəndində nəzərdə tutulmuş tədbirin həyata keçirilməsini təmin etmək məqsədilə müvafiq maliyyə vəsaitinin ayrılması üçün zəruri tədbirlər görsün.

**4.** Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi rəsmi statistika məqsədləri üçün ölkə üzrə enerji balansının beynəlxalq metodologiyalara uyğun olaraq hər il iyul ayının sonunadək tərtib edilməsini və rəsmi internet səhifəsində yerləşdirilməsini təmin etsin.

**Əli ƏSƏDOV,**
**Azərbaycan Respublikasının**
**Baş naziri**

*Qeyd: Qərara edilmiş əlavələrin tam mətni ilə www.nk.gov.az və www.xalqqazeti.com saytlarında tanış ola bilərsiniz.*

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 234**

**Bakı şəhəri, 1 may 2024-cü il**

"Azərbaycan Respublikasında dövlət büdcəsindən maliyyələşən idarə, müəssisə və təşkilatlarda nəqliyyat vasitələrindən istifadə qaydalarının təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 18 iyul tarixli 120 nömrəli Qərarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 18 iyul tarixli 120 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 7, maddə 747 (Cild I); 2024, № 1, maddə 101; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 12 mart tarixli 133 nömrəli və 3 aprel tarixli 196 nömrəli qərarları) ilə təsdiq edilmiş 2 nömrəli əlavə - "Azərbaycan Respublikasının mərkəzi icra hakimiyyəti və məhkəmə orqanlarının aparatları (hərbi qurumlar, dövlət təhlükəsizliyi, xarici kəşfiyyat xidmətləri, hüquq mühafizə və prokurorluq orqanları, rayon (şəhər) məhkəmələri istisna olmaqla), mərkəzi icra hakimiyyəti orqanlarının yerli bölmələri, onların yanında, tabeliyində olan orqanlar, mərkəzi icra hakimiyyəti orqanlarının yanında yaradılan dövlət agentliklərinin, dövlət xidmətlərinin aparatları və onların yerli bölmələri üçün xidməti minik avtomobillərinin say həddi (limiti)"ndə aşağıdakı dəyişikliklər edilsin:

1. 6-cı hissənin "aparat üzrə" sütununda "5" rəqəmi "7" rəqəmi ilə əvəz edilsin və həmin hissənin "yanında olan orqanlar üzrə" sütunundan "2" rəqəmi çıxarılsın.

2. Aşağıdakı məzmunda 6-1-ci hissə əlavə edilsin:

| | | | | | |
|---|---|---|---|---|---|
| 6-1. | Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında Elektron Təhlükəsizlik Xidməti | 2 | 2 | | |

3. 14-cü, 42-ci və 54-cü hissələr ləğv edilsin.

4. 55-ci hissənin "Orqanın adı" sütununda "Azərbaycan Respublikasının Dövlət Mülki Aviasiya Administrasiyası" sözləri "Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında Dövlət Mülki Aviasiya Agentliyi" sözləri ilə əvəz edilsin.

**Əli ƏSƏDOV,**
**Azərbaycan Respublikasının**
**Baş naziri**

# Ulu öndərin dövlətçilik irsinə ehtiram



**Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsində Ümummilli lider, müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, ilk Konstitusiyamızın müəllifi Heydər Əliyevin anadan olmasının 101-ci ildönümü münasibətilə "XXI əsrdə insan hüquq və azadlıqlarının müdafiəsi sahəsində müasir nəzəri və praktiki yanaşmalar" mövzusunda elmi-nəzəri konfrans keçirilib.**

Məclisin açılışında Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayev ulu öndər Heydər Əliyevin keçdiyi şərəfli həyat yolundan, zəngin fəaliyyətindən, müasir Azərbaycanın inkişafı və milli dövlətçiliyin gücləndirilməsi istiqamətində misilsiz tarixi xidmətlərindən, böyük xilaskarlıq missiyasından bəhs edib. O qeyd edib ki, Vətən müharibəsində Prezident İlham Əliyevin rəhbərliyi ilə qazanılmış şanlı Zəfər sayəsində Konstitusiyanın hüquqi qüvvəsi və vətəndaşlarımızın Əsas Qanunda təsbit edilmiş hüquqları işğaldan azad olunmuş Azərbaycanın ərazisində tam bərpa edilib.

Çıxış edənlər Ulu öndərin ölkəmizə rəhbərlik etdiyi dövrdə uzaqgörənliklə atılmış addımlar, Azərbaycanda əsası qoyulan uğurlu sosial, mədəni iqtisadi və intellektual sərmayələrin xalqımızın istiqlaliyyət qazanmasına zəmin yaratmasından ətraflı söhbət açıblar.

Konfransın praktiki hissəsində "Konstitusiya nəzarət orqanlarının subsidiarlıq prinsipi", "Azərbaycan Respublikasının əmək qanunvericiliyinin təkmilləşdirilməsi zamanın tələbidir", "Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsində insan və vətəndaş hüquqlarının və azadlıqlarının təminatı" və digər hüquqi mövzular üzrə məruzələr səsləndirilib, hüquq elminin aktual məsələlərinə toxunulub və geniş fikir mübadiləsi aparılıb.

Tədbirin sonunda sədr Fərhad Abdullayev xüsusilə qeyd edib ki, bu gün ulu öndər Heydər Əliyevin siyasi irsinin davamı kimi Prezident İlham Əliyev tərəfindən aparılan uğurlu və milli maraqlara söykənən siyasət, həyata keçirilən dövlət proqramları və genişmiqyaslı layihələr ölkəmizin dayanıqlı inkişafına, həmçinin Azərbaycanın beynəlxalq aləmdə mövqelərinin möhkəmlənməsinə xidmət edir.

**XQ**

# İlin "Ədəbiyyat adamları" mükafatının qalibləri




**Dillər Universitetində (ADU) Azərbaycan Yaradıcılıq Fondunun dəstəyi ilə təşkil edilən "Ədəbiyyat adamı" müsabiqəsinin mükafatlandırma mərasimi keçirilib.**

Xalq yazıçısı, akademik Kamal Abdulla müsabiqə qaliblərinin ciddi meyarlarla seçildiyini deyib: "Ulu öndər Heydər Əliyevin doğum günü münasibətilə ədəbiyyatçılarımız, ziyalılarımız üçün təsis edilmiş mükafat hər ilin may ayında təqdim edilir. Bu ənənəni beşinci ildir davam etdiririk. Ədəbiyyat adamı ədəbi fəaliyyətlə məşğul olan, peşəkarlığı əsas prinsip seçən, ədəbiyyatı təmənnasız həyat tərzi kimi yaşayan şəxsdir. Bu mükafatın bənzərsiliyi ondadır ki, burada rəqiblər yoxdur".

Bildirilib ki, bu ilin "Ədəbiyyat adamı" Ramiz Rövşən, Həmid Herisçi, Rüstəm Behrudi, Aqşin Yenisey, Azər Turan, Aydın Talıbzadə, Nərgiz Cabbarlı, Ulucay Akif, Etimad Başkeçid, Varis seçiliblər. Mükafatlar təntənəli surətdə qaliblərə təqdim olundu. Mükafatçılar verilən qiymətə görə münsiflərə minnətdarlıqlarını bildirdilər.

"Ədəbiyyat adamı" layihəsi çərçivəsində həm ölkə daxilində, həm də xaricdə müxtəlif tədbirlər – konfranslar, poeziya gecələri, ödənişli qapalı seminarlar keçirilməsi, mükafatların verilməsi nəzərdə tutulub.

**R.QURBANOVA**
**XQ**

# "İctimai proseslər media müstəvisində" mövzusunda forum





**Mayın 3-də Bakıda Medianın İnkişafı Agentliyinin təşkilatçılığı ilə "İctimai proseslər media müstəvisində" mövzusunda forum keçirilib.**

Medianın İnkişafı Agentliyinin İcraçı direktoru Əhməd İsmayılov tədbirdə açılış nitqi ilə çıxış edərək bildirib ki, Prezident İlham Əliyev bir qayda olaraq cəmiyyətdə baş verən hadisələr haqqında əsas informasiya qaynaqlarından biri kimi medianın rolunu daim yüksək qiymətləndirib və onun ictimai nəzarət funksiyasına böyük önəm verdiyini həmişə vurğulayıb. Medianın ictimai maraqlardan irəli gələn obyektiv və qərəzsiz məlumat hazırlamaq funksiyasını layiqincə yerinə yetirməsi üçün ölkəmizdə həm ictimai-siyasi, həm də hüquqi zəmində hər cür şərait yaradılıb.

"Ölkəmizdə son 5 il ərzində inqilabi sosial islahat paketləri həyata keçirilib. Minimum əməkhaqqı 2,7 dəfə artırılıb. Eyni zamanda, əmək müqaviləsinin leqallaşdırılması üzrə işlər görülüb. Məhz bu səbəbdən leqal əmək müqaviləsinin sayı 40 faiz artıb. Özəl sektorlarda isə bu göstərici 90 faizdir", – deyən Əmək və əhalinin sosial müdafiəsi naziri S.Babayev vurğulayıb ki, bu gün əmək, məşğulluq, sosial müdafiə sahələrində aparılan islahatlar, sosial dəstək proqramları, bu sahələrdə innovativ yeniliklər və digərləri ilə bağlı ictimaiyyətin mütəmadi məlumatlandırılmasında media mühüm rol oynayır.

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova isə bildirib ki, ailə sirlərinin, çətin həyat şəraitində yaşayan uşaqların hekayələrinin, şəxsi məlumatların yayımlanması qanunvericiliyin və etik prinsiplərin tələblərinin pozulmasına, bu da öz növbəsində yanlış düşüncələrin, davranış pozuntularının yaranmasına, şəxsi həyata qanunsuz müdaxilənin, hüquq pozuntularının norma kimi təbliğinə yol açır.

Forum işini panel sessiyalarla davam etdirib.

**XQ**

# MDB İnformasiya Şurasının XXXI iclası



**Mayın 3-də Bakıda Müstəqil Dövlətlər Birliyi Dövlət İnformasiya Agentlikləri Rəhbərləri Şurasının XXXI iclası keçirilib. Görüş AZƏRTAC-ın binasında keçirilib.**

İclasda iştirak edən AZƏRTAC, TASS, BELTA, "Kabar" və "Xovar" agentliklərinin rəhbər şəxsləri əməkdaşlığın perspektiv istiqamətlərini, həmçinin gələn il İkinci Dünya müharibəsinin 80 illik yubileyinin qeyd edilməsinə hazırlıq üzrə qarşılıqlı fəaliyyət məsələlərini müzakirə ediblər.

Azərbaycan Dövlət İnformasiya Agentliyi İdarə Heyətinin sədri Vüqar Əliyev qeyd edib ki, AZƏRTAC Birliyə üzv dövlətlərin informasiya agentlikləri ilə əməkdaşlığın inkişafına böyük əhəmiyyət verir.

MDB Baş katibinin müavini Denis Trefilov qonaqpərvərliyə, Bakıda toplaşmaq, fikir mübadiləsi aparmaq və ölkələrimiz arasında dostluq və əməkdaşlıq əlaqələrinin möhkəmləndirilməsinə kömək edən tədbirləri işləyib hazırlamaq imkanına görə AZƏRTAC-a təşəkkürünü bildirib.

Sonra çıxış edən Vüqar Əliyev iqlim dəyişikliyi və yaşıl enerji məsələlərinin işıqlandırılmasından bəhs edib. Prezident İlham Əliyevin cari ili ölkəmizdə "Yaşıl dünya naminə həmrəylik ili" elan etdiyini xatırladan sədr iclas iştirakçılarının diqqətinə çatdırıb ki, ölkəmizdə bu sahədə böyük layihələr həyata keçirilir. Vüqar Əliyev deyib: "Prezident İlham Əliyev işğaldan azad edilmiş əraziləri yaşıl enerji zonası elan edib. Tamamilə dağıdılmış və yenidən dirçəldilən bu ərazilərdə yaşıl enerji o yerlərin bərpası prosesinin əsas istiqaməti olacaq".

Azərbaycanın BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) evsahibliyi edəcəyini xatırladan İdarə Heyətinin sədri vurğulayıb ki, iki həftə ərzində Bakı dünyanın mərkəzinə çevriləcək və ölkəmizə 80 minə yaxın əcnəbi qonaq gələcək. AZƏRTAC bu konfransın işıqlandırılmasında fəal iştirak edəcək.

Vüqar Əliyev həmkarlarını iyulun 22-də Şuşa şəhərində keçiriləcək Qlobal Media Forumunda iştirak etməyə dəvət edib.

MDB İnformasiya Şurasının sədri, Rusiyanın TASS informasiya agentliyinin baş direktoru Andrey Kondraşov Rusiya Federasiyasının MDB-də sədrliyi ilində Birlik ölkələrinin dövlət informasiya orqanları arasında əməkdaşlıq istiqamətləri barədə məlumat verib.

BELTA-nın baş direktoru İrina Akuloviç Belarusun faşist işğalçılarından azad edilməsinin və İkinci Dünya müharibəsində Qələbənin 80 illiyi ilə bağlı agentliyin layihələri barədə danışıb.

Qırğızıstanın "Kabar" Milli İnformasiya Agentliyinin baş direktoru Mederbek Şermetaliyev və Tacikistan Respublikasının "Xovar" Milli İnformasiya Agentliyinin direktoru Subhiddin Şamsiddinzoda Qələbənin 80 illik yubiley tədbirlərini işıqlandırmaq üçün rəhbərlik etdikləri strukturların hazırlıq işlərindən bəhs ediblər.

TASS agentliyi baş direktorunun birinci müavini Mixail Qusman Qələbənin 80 illiyinə həsr olunacaq və SSRİ-nin hər bir xalqının onun qazanılmasına töhfəsini əks etdirəcək xüsusi nəşr hazırlamağı təklif edib. Onun təklifi qəbul edilib.

# Dini konfessiyaların nümayəndələri Suqovuşan və Talışdakı Alban məbədlərini ziyarət ediblər

**Ölkəmizdə fəaliyyət göstərən dini konfessiyaların nümayəndələri Ermənistanın işğalından azad edilən Suqovuşan qəsəbəsində və Talış kəndində səfərdə olublar.**



Dini konfessiyaların nümayəndələri Pasxa bayramı münasibətilə Suqovuşan qəsəbəsindəki və Talış kəndindəki Alban məbədlərini ziyarət ediblər. Dini ayinlər icra olunub, bayram duaları oxunub.

Talış kəndindəki məbədin həyətində bayram süfrəsi açılıb. Süfrəyə kuliç və digər bayram nemətləri düzülüb, mahnılar ifa olunub. Tolerantlığın bariz nümunəsi olaraq xristianlarla yanaşı, müsəlmanlar da bayram tədbirində iştirak ediblər.

# Türk Dövlətləri Təşkilatı – coğrafiya geniş, imkanlar böyükdür




**2024-cü ilin yanvar–mart ayları ərzində Azərbaycanın Türk Dövlətləri Təşkilatına (TDT) üzv və müşahidəçi statusa malik ölkələrlə ticarət dövriyyəsi 1 milyard 709,1 milyon ABŞ dolları təşkil edib. Bu da ölkəmizin ümumi ticarət dövriyyəsinin 17,6 faizinə bərabər olub.**

Dövlət Gömrük Komitəsinin məlumatına görə, cari ilin ilk rübündə Azərbaycan Türkiyə ilə 1 milyard 469,1 milyon dollar, Türkmənistanla 96 milyon 926 min dollar, Qazaxıstanla 70 milyon 829 min dollar, Özbəkistanla 35 milyon 814 min dolar, Qırğızıstanla 23 milyon 382 min dollar, Macarıstanla isə 13 milyon dollar məbləğində idxal-ixrac əməliyyatları həyata keçirib.

2024-cü ilin yanvar-mart aylarında Azərbaycandan Türkiyəyə 150 milyon 291 min dollar, Qırğızıstana 20 milyon 815 min dollar, Türkmənistana 16 milyon 861 min dollar, Qazaxıstana isə 11 milyon 731 min dollar dəyərində qeyri-neft məhsulları ixrac edilib.

Xatırladaq ki, 2023-cü ildə Azərbaycanın TDT-yə üzv ölkələrlə ticarət dövriyyəsi 8 milyard 208 milyon dollar təşkil edib ki, bu da əvvəlki illə müqayisədə 23,7 faiz və ya 1 milyard 574 milyon dollar çox olub. Ümumilikdə, ötən il təşkilata üzv ölkələrlə aparılan idxal-ixrac əməliyyatları Azərbaycanın ümumi ticarət dövriyyəsinin 16 faizinə bərabər olub.

Göründüyü kimi, ölkəmizin təşkilata üzv və müşahidəçi dövlətlərlə ticarət dövriyyəsinin həcmində ötən ilin müvafiq dövrü ilə müqayisədə 15,6 faiz və ya 316,1 milyon dollar azalma qeydə alınıb. Buna baxmayaraq, Azərbaycanla adı çəkilən ölkələr arasında ticarət dövriyyəsinin artırılması üçün potensial olduqca yüksəkdir. Son illər TDT-yə üzv ölkələr nəqliyyat, investisiya, enerji və sənaye kimi mühüm sahələrdə fəal əməkdaşlıq edirlər. Eyni zamanda, ötən müddətdə TDT-yə üzv ölkələr arasında iqtisadi-ticari əlaqələrin daha da genişləndirilməsi istiqamətində bir sıra layihələr reallaşdırılıb. Bu baxımdan "Türk Dövlətləri Təşkilatının hökumətləri arasında sadələşdirilmiş gömrük dəhlizinin yaradılması haqqında" 2022-ci il noyabrın 11-də Səmərqənd şəhərində imzalanan saziş xüsusi əhəmiyyət daşıyır. Belə ki, sözügedən sənəd TDT hökumətlərinin gömrük orqanları arasında malların və nəqliyyat vasitələrinin hərəkəti ilə bağlı məlumat mübadiləsinin asanlaşdırılmasına imkan yaradıb. Bununla da, təşkilata üzv hökumətlər arasında daşınan mallar və nəqliyyat vasitələri haqqında məlumatların elektron şəkildə mübadiləsi gerçəkləşib, nəticədə sürətli yük daşımaları və yüklərin həcmi xeyli artıb.

"Türk Dövlətləri Təşkilatına üzv dövlətlərin hökumətləri arasında beynəlxalq kombinə edilmiş yük daşımaları haqqında" sazişin təsdiqlənməsi isə Orta Dəhlizin praktiki əhəmiyyətinə müsbət təsir göstərməklə yanaşı, regionda baş verən yeni geosiyasi və geoiqtisadi reallıqlar çərçivəsində sözügedən marşrutla Çindən Avropaya quru yolla daşınan yüklərin Qazaxıstan və Azərbaycandan keçərək ötürülməsi reallaşıb.

Xatırladaq ki, Türk Dövlətləri Təşkilatı 2009-cu il oktyabrın 3-də Naxçıvan şəhərində keçirilən Zirvə Görüşündə imzalanmış sazişə əsasən 2012-ci il noyabrın 1-də yaradılıb. İlk vaxtlar təşkilatın adı Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası olub. 2021-ci ildən isə qurum Türk Dövlətləri Təşkilatı adı ilə fəaliyyətini davam etdirir. Türk Dövlətləri Təşkilatı türkdilli ölkələr arasında siyasət, iqtisadiyyat, elm, təhsil, nəqliyyat və turizm sahələrində əməkdaşlığı genişləndirmək məqsədilə yaradılmış dövlətlərarası blokdur. Qurumun üzvləri Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Türkiyə və Özbəkistandır. Macarıstan, Türkmənistan və Şimali Kipr Türk Respublikası isə təşkilatda müşahidəçi statusuna malikdir. Təşkilatın mənzil-qərargahı Türkiyənin İstanbul şəhərində yerləşir.

Türk Dövlətləri Təşkilatı fəaliyyət göstərdiyi ötən müddətdə səmərəli inkişaf yolu keçib. Qurum 173 milyona yaxın insanın yaşadığı böyük bir coğrafiyada və qlobal miqyasda güclü təşkilat kimi tanınıb. Qeyd edək ki, Türk dünyası hazırda beynəlxalq münasibətlərin yeni bir güc mərkəzi kimi mühüm önəm daşıyır, ciddi geosiyasi və geoiqtisadi çəkiyə malik olması ilə diqqət çəkir. Bunu statistik göstəricilər də təsdiq edir. Hazırda bu dövlətlərdə ümumi daxili məhsulun həcmi 1,5 trilyon dollar, ticarət dövriyyəsi isə 1,2 trilyon dollar təşkil edir. Ümumilikdə, dünya ərazisinin 1 faizi, ticarət dövriyyəsinin isə 2,4 faizi TDT-yə üzv ölkələrin payına düşür.

Bir məqamı da qeyd edək ki, ötən müddətdə Azərbaycan Türk Dövlətləri Təşkilatına üzv ölkələrin iqtisadiyyatına 20 milyard ABŞ dollarından çox sərmayə qoyub. Təsadüfi deyil ki, Prezident İlham Əliyev TDT ölkələri ilə bütün sahələrdə əlaqələrin möhkəmləndirilməsini Azərbaycanın xarici siyasətinin əsas prioritetlərindən biri elan edib. Dövlətimizin başçısı 2024-cü il fevralın 14-də yenidən ölkə Prezidenti seçilməsi münasibətilə keçirilən andiçmə mərasimindəki çıxışında TDT-yə üzv bütün ölkələrlə qardaşlıq münasibətləri olduğunu və dövlət siyasətimizin bu təşkilatı gücləndirmək məqsədi daşıdığını bildirib. Prezident İlham Əliyev daha sonra vurğulayıb: "Türk Dövlətləri Təşkilatına üzv olan bütün ölkələrlə qardaşlıq münasibətlərimiz var və bizim siyasətimiz Türk Dövlətləri Təşkilatını gücləndirməkdir. Bu, böyük coğrafiyadır, böyük ərazidir, böyük hərbi gücdür, böyük iqtisadiyyatdır, təbii sərvətlərdir, nəqliyyat yollarıdır, gənc əhalidir, artan əhalidir və bir soydan, kökdən olan xalqlardır. Bundan güclü birlik ola bilərmi? Əlbəttə ki, yox. Biz müştərək səylərlə elə etməliyik ki, Türk Dövlətləri Təşkilatı qlobal arenada önəmli aktora və güc mərkəzinə çevrilsin. Buna biz ancaq birlikdə nail ola bilərik".

Heç şübhəsiz, bu fikirlər Prezident İlham Əliyevin Türk dünyasına verdiyi xüsusi önəmin, türk dövlətləri ilə əməkdaşlığın Azərbaycanın xarici siyasətinin prioritet istiqamətlərindən olmasının, həmçinin türk birliyi və həmrəyliyinin, TDT-nin bundan sonra da inkişaf edərək möhkəmləndirilməsinə əminliyin parlaq ifadəsidir.

2024-cü il mayın 2-də Bakı şəhərində təşkil olunan Türk Dövlətləri İqtisadi Forumunda səsləndirilən fikirlər də onu deməyə əsas verir ki, son zamanlar hökumətlərlə yanaşı, vətəndaş cəmiyyəti də türk dövlətləri arasında iqtisadi münasibətlərin daha da dərinləşməsində mühüm rol oynayır. Tədbirlə bağlı fikirlərini bölüşən Milli Məclisin deputatı Məzahir Əfəndiyev deyib ki, forum Azərbaycanın nəinki Türk Dövlətləri Təşkilatı çərçivəsində iqtisadi fəaliyyətinin şaxələndirilməsində maraqlı olduğunu, həmçinin bu gün ölkəmizin Şərqdən Qərbə, Cənubdan Şimala istiqamətlənən logistik imkanlarının artırdığını, Türk dünyası məkanının nəqliyyat təhlükəsizliyinin daha da dayanıqlılığını bir daha nümayiş etdirdi.

**Mirbağır YAQUBZADƏ**
**XQ**



# BP-nin İKT və kibertəhlükəsizlik sahələrinə töhfəsi

**Dünən BP şirkəti Bakı Mühəndislik Universitetində ölkə üçün informasiya-kommunikasiya texnologiyaları (İKT) və kibertəhlükəsizlik sahəsində yüksək ixtisaslı mütəxəssislərin hazırlanmasına dəstək məqsədilə yeni laboratoriya açıb.**

Laboratoriya BP tərəfindən xüsusi olaraq alınmış və universitetdə quraşdırılmış 30 ədəd müasir və innovativ İKT avadanlığı və proqram təminatı ilə təchiz olunub. Hər il 1000-ə yaxın müəllim və tələbə laboratoriyadan istifadə edərək İKT sahəsində öz bilik və bacarıqlarını təkmilləşdirəcək, innovativ İKT-dən istifadə etməyi, təhlükəsiz və səmərəli informasiya sistemləri yaratmağı və saxlamağı öyrənəcək, rəqəmsal transformasiyanı mənimsəyəcək. Bura, əsasən, kompüter mühəndisliyi, İKT, kompüter elmləri və kibertəhlükəsizlik/informasiya təhlükəsizliyi sahələrində ixtisaslaşan tələbələr daxildir.

BP-nin Xəzər regionu üzrə vitse-prezidenti Bəxtiyar Aslanbəyli deyib ki, Mühəndislik Universiteti üçün İKT və kibertəhlükəsizlik bacarıqları və ümumilikdə digər mühəndislik qabiliyyətləri üzrə təlim və tədrisin keyfiyyətini yaxşılaşdırmağa kömək edəcək yeni laboratoriya kibertəhlükəsizlik, məlumat analitikası, şəbəkələrin idarə edilməsi, proqram təminatının işlənib hazırlanması və digər əlaqəli sahələri əhatə edən bacarıqların inkişaf etdirilməsi üçün geniş karyera imkanlarına qapı aça bilər. "Gündəlik həyatımızı İKT xidmətləri və tətbiqləri olmadan təsəvvür etmək mümkün deyil. Ölkənin İKT imkanları və mütəxəssis bacarıqları nə qədər güclü olarsa, onun informasiya sistemləri bir o qədər təhlükəsiz olar. Ümid edirik ki, layihəmiz ölkənin onlayn təhlükəsizliyini təmin etmək üçün lazımi bacarıqların inkişaf etdirilməsi səylərinə töhfə verəcək",– deyə o əlavə edib.

Qeyd edək ki, 2023-cü ilin mayında başlanan layihə vaxtından xeyli əvvəl başa çatdırılıb. Layihənin ümumi dəyəri isə, təqribən, 403 min manatdır.

**XQ**

# AÇG-dən 4,3 milyard barel neft çıxarılıb



**Xəzər dənizində yerləşən "Azəri-Çıraq-Günəşli" (AÇG) yataqlar blokundan indiyədək 4,3 milyard bareldən artıq neft hasil edilib. Eyni zamanda, ötən müddətdə AÇG-dən xam neftlə yanaşı çıxarılmış səmt qazının 50 milyard kubmetrdən artıq hissəsi təmənnasız olaraq Azərbaycan dövlətinə təhvil verilib.**

Bunu BP-nin Xəzər regionu üzrə vitse-prezidenti Bəxtiyar Aslanbəyli Bakı Mühəndislik Universitetində ölkə üçün informasiya-kommunikasiya texnologiyaları və kibertəhlükəsizlik sahəsində yüksək ixtisaslı mütəxəssislərin hazırlanmasına dəstək məqsədilə yeni laboratoriyanın açılışı mərasimində bildirib.

O, həmçinin deyib ki, 2006-cı ilin sonlarında hasilata başlanılmış "Şahdəniz" qaz-kondensat yatağından indiyədək 200 milyard kubmetrdən artıq "mavi yanacaq" çıxarılıb.

**XQ**

# İpəkçilik yenidən dirçəldilir

## Barama istehsalı gələn il 6 min tona çatdırılacaq

**Son illər ərzində ölkəmizdə baramaçılığın inkişafı istiqamətində ciddi addımlar atılıb, mühüm qərarlar qəbul olunub, bu sahəyə dövlət dəstəyi gücləndirilib. Prezident İlham Əliyev tərəfindən barama istehsalı ilə bağlı əhalinin məşğulluğunu artırmaq və sosial rifahını daha da yaxşılaşdırmaq məqsədilə "Azərbaycan Respublikasında ipəkçiliyin inkişafına dövlət dəstəyi haqqında" 2016-cı il 15 sentyabr tarixli sərəncam imzalanıb. Sənədə əsasən, barama istehsalı ilə məşğul olan şəxslərə barama emalı və ipək istehsalı müəssisələrinin qəbul etdiyi yaş baramanın hər kiloqramına görə növündən asılı olaraq veriləcək subsidiyanın məbləği və verilmə qaydası təsdiqlənib.**



Kənd Təsərrüfatı Nazirliyindən verilən məlumata əsasən, ölkədə 2024-cü ilin barama mövsümünə start verilməsi ilə bağlı Qax Damazlıq İpəkçilik Stansiyasında aran və dağətəyi zonalarda yerləşən 19 baramaçılıq rayonundan olan kümçülərin iştirak etdikləri tədbirdə yuxarıda vurğulanan məsələlər ətrafında geniş söhbət gedib. Kənd təsərrüfatı nazirinin müavini Sarvan Cəfərov Azərbaycanda qədim ənənələrə malik, tarix və mədəniyyətimizin bir parçası olan ipəkçiliyin bərpasının kənd əhalisinin rifah halının yaxşılaşdırılmasında və məşğulluğunun təmin olunmasında sosial-iqtisadi məsələ kimi xüsusi əhəmiyyət daşıdığını bildirib. S.Cəfərov qeyd edib ki, barama istehsalının dəstəklənməsi üçün Azərbaycan Prezidenti İlham Əliyev müvafiq sərəncamı ilə "Azərbaycan Respublikasında baramaçılığın və ipəkçiliyin inkişafına dair 2018–2025-ci illər üçün Dövlət Proqramı"nı təsdiq edib.

Adıçəkilən sənəd bu sahəyə dövlət dəstəyinin gücləndirilməsi, ixrac potensialının artırılması və kənd yerlərində məşğulluğun təmin edilməsində əhəmiyyətli rol oynayıb. Dövlət Proqramında ipəkçiliyin dayanıqlı əsaslarla inkişafını sürətləndirmək, ipək emalı sənayesinin xammal təminatını yüksəltmək, istehsal olunan məhsulun keyfiyyətini və həcmini artırmaq, yeni təsərrüfat subyektləri yaratmaq, ipək məhsullarının ixrac potensialını gücləndirmək və məşğulluğu artırmaqla bağlı məsələlər qarşıya mühüm vəzifələr kimi qoyulub. Bu məqsədlərə nail olmaq üçün mövcud bağlarda bərpa və yenidənqurma işləri aparmaqla tut (çəkil) ağaclarının məhsuldarlığının artırılması, barama toxumçuluğunun inkişafı, yeni məhsuldar ipəkqurdu cinsləri və hibridlərinin yaradılması, baramaçılığın və ipəkçilik sənayesinin müasir texnologiyalar əsasında təşkili, ipək məhsulları ixracının dəstəklənməsi və təşviqinin zəruriliyinə önəm verilib. Eyni zamanda, sözügedən dövlət proqramının icrası nəticəsində 2025-ci ilədək yaş barama istehsalı həcminin 6 min tona çatdırılması nəzərdə tutulub.

Tədbirdə vurğulanıb ki, Kənd Təsərrüfatı Nazirliyi tərəfindən cari mövsümdə baramaçılıq sahəsində qabaqcıl təcrübə və ənənələrə malik kümçülərin müəyyənləşdirilməsi və tut ipəkqurdularının hər qutusundan məhsuldarlığın yüksəldilməsi hesabına ölkədə barama istehsalının artımına nail olmaq qarşıya önəmli vəzifə kimi qoyulub. Bununla yanaşı, rayonlarda fəaliyyət göstərən barama istehsalçılarının siyahısı, onlara məxsus kümxanaların vəziyyəti barədə məlumatlar toplanılaraq təhlil edilib və müvafiq tədbirlər planı hazırlanıb. Tədbirlər planına uyğun olaraq mövsümün əvvəlindən kümxanaların aqrozootexniki tələblərə uyğun hazırlanması, ipəkqurdularının düzgün bəslənməsi, xəstəliklərin qarşısının alınması istiqamətində qabaqlayıcı tədbirlərin görülməsi məqsədilə nazirliyin mütəxəssisləri tərəfindən bütün baramaçılıq rayonlarının məhsul istehsalçıları üçün maarifləndirici təlimlər keçirilib, kümxanalarda xəstəlik və zərərvericilərə qarşı qabaqlayıcı dezinfeksiya işləri aparılıb və kümçülərə yerində məsləhətlər verilib.

Rayonlar üzrə barama istehsalçılarının sayı, yem ehtiyatı, mövcud kümxanaların sahəsi və vəziyyəti nəzərə alınmaqla cari ildə istehsal olunacaq yaş baramanın həcminə uyğun olaraq aprelin 20-də 9 min qutu ipəkqurdu toxumu Qax Rayon Damazlıq İpəkçilik Stansiyasında, həmçinin Zərdab, Bərdə, Ağsu, Zaqatala rayonlarında yerləşən baramaqurutma məntəqələrində inkubasiyaya qoyulub.

Tut ipəkqurdularının bölgüsünə dair məlumatlar baramaçılıq rayonlarının DAİM-lərinə göndərilib, rayonun kəndləri üzrə barama istehsalçılarının seçilməsi və siyahısının dəqiqləşdirilməsi, kümxanaların yaradılmasında uyğun tikililərdən istifadə edilməsi və onların aqrozootexniki tələblərə uyğun hazırlanması ilə bağlı tövsiyələr verilib.

İnkubasiya nəticəsində əldə edilmiş ipəkqurduların təbii-iqlim şəraitinə uyğun olaraq iki mərhələdə 40 rayonun kümçülərinə paylanılmasının qrafiki hazırlanıb və məlumat üçün əvvəlcədən Qax Damazlıq İpəkçilik Stansiyasına, baramaqurutma məntəqələrinə və Dövlət Aqrar İnkişaf Mərkəzlərinə təqdim edilib.

Yeri gəlmişkən, Qax Damazlıq İpəkçilik Stansiyasında keçirilən tədbirdə, təxminən, 3250 qutu ipəkqurdu toxumlarının aran və dağətəyi zonalarda yerləşən 19 baramaçılıq rayonlarına paylanılması prosesi gerçəkləşdirilib.

Qeyd edək ki, barama istehsalının təşkilinin sınaqdan keçirilməsi məqsədilə cari ildə ilk dəfə olaraq Naxçıvan Muxtar Respublikasına 30 qutu ipəkqurdu toxumu ayrılıb, bu toxumların inkubasiyasının həyata keçirilməsinə metodiki kömək göstərilməsi üçün Kənd Təsərrüfatı Nazirliyi tərəfindən Naxçıvan Muxtar Respublikasına mütəxəssis ezam olunub.

Bütün bu qeyd edilənlər respublikamızda baramaçılığın inkişafının diqqət mərkəzində saxlandığını göstərir. Kənd Təsərrüfatı Nazirliyinin məlumatına əsasən, ötən mövsümdə ölkəmizdə 357 ton (2022-ci illə müqayisədə 4,6 faiz çox) barama istehsal olunub. Ən çox yaş barama Zərdab rayonunda tədarük edilib. Yerli kümçülər tərəfindən 2023-cü il mövsümündə 52 min 865 ton yaş barama təhvil verib. Ağcabədi (34 min 336 ton), Zaqatala (28 min 907 ton), Balakən (28 min 151 ton), Bərdə (21 min 117 ton), Tərtər (14 min 747 ton), Şəki (13 min 737 ton), Qax (12 min 385 ton), Füzuli (10 min 416 ton), Lənkəran (9 min 896 ton), Sabirabad (9 min 744 ton), Yevlax (9 min 583 ton) və Ağdam (9 min 210 ton) ən çox yaş barama tədarük edən rayonlar kimi qeydə alınıb.

Ötən mövsümdə kümçülərlə imzalanan müqaviləyə əsasən, istehsal olunan yaş barama müvafiq qurum tərəfindən 5 manata təhvil alınıb, dövlət isə istehsal olunan hər kiloqram yaş baramaya görə kümçülərə 6 manat subsidiya ödəyib.

Maliyyə Nazirliyinin 2024-cü ilin dövlət büdcəsində də respublikada istehsal edilib tədarükçülərə təhvil verilən yaş baramanın hər kiloqramına görə ayrılan barama subsidiyalarının maliyyələşdirilməsi nəzərdə tutulub.

**Vaqif BAYRAMOV**
**XQ**

# Cəmiyyətdə qadınların rolu artır

**Ölkəmizdə qadının cəmiyyətdəki yeri və rolu dövlətimizin yeritdiyi siyasət sayəsində yüksək qiymətləndirilir. Azərbaycan qadını analıq missiyasını yerinə yetirməklə bərabər, həm də bacarıqlı siyasətçi, uğurlu iş adamı, sadiq dövlət məmuru, yüksəkixtisaslı peşəkar mütəxəssisdir. Bu cür fəal həyat mövqeyi respublikamızda uğurla həyata keçirilən gender siyasətinin mahiyyətindən, qadınlara müasir cəmiyyətin tamhüquqlu üzvləri kimi bütün imkanlardan bərabər istifadə üçün zəruri şəraitin yaradılmasından irəli gəlir.**

Dövlət müstəqilliyimiz bərpa edildikdən sonra qadınların ictimai-siyasi həyata qovuşması, onların dövlət idarəçiliyində geniş təmsilçiliyi, bütün sahələrdə kişilərlə bərabər hüquqlara malik olması dövlət-qadın siyasətinin prioritet istiqamətlərindən birinə çevrilib. Çünki Azərbaycan məhz müstəqillik qazandıqdan sonra gender bərabərliyi və qadın hüquqlarına dair beynəlxalq normalara riayət olunması ilə bağlı bir sıra öhdəliklər götürüb. Prezident İlham Əliyevin rəhbərliyi ilə insan hüquqlarının müdafiəsi sahəsində aparılan islahatların davamı olaraq 2010-cu ildə "Məişət zorakılığının qarşısının alınması haqqında" Qanun qəbul edilib, qadın hüquqlarının qorunması, məişət zorakılığının qarşısının alınması sahəsində güclü qanunvericilik bazası yaradılıb. Qadınların sosial həyatın bütün sahələrində fəal iştirakı üçün şərait yaradılıb və mühüm işlər görülüb. Azərbaycanda fəaliyyət göstərən aidiyyəti QHT-lərin qadınların cəmiyyətdəki rolunun artırılması istiqamətində fəal iştirakı getdikcə genişlənib.

Qadınların dövlətlərin sosial-iqtisadi həyatında bərabər iştirakı hələ də dünyanın bütün aparıcı təşkilatlarının gündəmində duran aktual məsələlərdən biridir. Azərbaycanda isə müstəqillik illərindən bu mövzuya xüsusi diqqət yetirilib, dövlət strukturlarının fəal dəstəyi qadın sahibkarlığının inkişafına müsbət təsir göstərib, amma buna baxmayaraq yerlərdə bu məsələlərdə hələ də bir sıra problemlər özünü büruzə verir. Bu çətinlikləri aradan qaldırmaq, qadın sahibkarlığının dəstəklənməsi üçün mövcud problemləri minimuma endirmək məqsədilə özünüməşğulluq üçün yeni xidmətlər və hökumət tərəfindən həyata keçirilən dəstək tədbirləri də ilbəil artır. Bugünkü müzakirədə iştirak edən qadın təşkilatları rəhbərlərinin Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinə təqdim etdikləri layihələrdə də bu barədə söhbət açılır.

**Novella CƏFƏROVA,**
**"D.Əliyeva adına Azərbaycan Qadınlarının Hüquqlarının Müdafiə Cəmiyyəti" İctimai Birliyinin sədri:**



– Azərbaycan cəmiyyətində qadınlarla bağlı bütün problemləri ilk dəfə cəmiyyətin nəzərinə çatdıran və çıxış yollarını göstərən 1989-cu ildə təsis edilən D.Əliyeva adına Azərbaycan Qadınlarının Hüquqlarının Müdafiə Cəmiyyəti olub. Bu gün Bakıda və regionlarda fəaliyyət göstərən çoxsaylı qadın təşkilatlarının əksəriyyəti cəmiyyətin, necə deyərlər, "şinelindən" çıxıb.

Təşkilatımızın əsas məqsədi cəmiyyətdə qadınların rol və hüquqlarını genişləndirmək yolu ilə onların dövlət qadın siyasətinin aparıcı qüvvəsinə çevrilməsidir. Fəaliyyətimiz dövründə qadınlarla bağlı çox sayda layihələr həyata keçirmişik. Burada layihələr dedikdə, qadınların hüquqi sahədə maarifləndirilməsi, onlarda liderlik xüsusiyyətlərinin inkişaf etdirilməsi, onları problemlərin həllinə cəlb etməklə fəallaşdırılması və cəmiyyətin sosial-iqtisadi və mədəni həyatında rol və hüquqlarının artırılması nəzərdə tutulur. Bundan başqa, seçkili orqanlarda iştirak etmək üçün qadınların maarifləndirmə yolu ilə hazırlanması, reallıqda qadınlara kişilərlə bərabər hüquq və imkanların verilməsinin həyata keçirilməsi, sahibkarlıq fəaliyyətinə hazırlanması və cəlb edilməsi ilə ölkədə layiqli iş yerlərinin yaranmasına və yoxsulluğun azaldılması istiqamətində layihələrin icrası diqqətdə saxlanılır.

Bu məqsədlərin həyata keçməsində bizə ölkəmizdə və xaricdə fəaliyyət göstərən səfirliklər, nümayəndəliklər, fondlar, nazirliklər, sonrakı illərdə isə Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası və QHT-yə Dövlət Dəstəyi Agentliyi dəstək olub.

Bu il agentliyə təqdim etdiyimiz layihə "Regionlarda qadın və qızların bələdiyyələrdə iştiraklarını genişləndirməklə gender bərabərliyinin təbliği" adlanır. Layihəni əsasən, Masallı və Astara rayonlarında reallaşdırmağı düşünürük. Məqsədimiz regionlarda qadın və qızların cəmiyyətdə inkişafına və onları 2024-cu il dekabrın 22-də keçiriləcək bələdiyyə seçkilərinə daha çox cəlb etməkdir. Məqsəd, eyni zamanda, onların bələdiyyələrdə iştiraklarının genişləndirilməsi, seçkilərdə saylarının çox olması və gender bərabərliyinə nail olmaqdır. Layihəni 2 istiqamətdə həyata keçirməyi nəzərdə tuturuq. Birinci istiqamət – qadın və qızların inkişafına nail olunması, namizədlərin özlərinə inamlarının artması üçün region qadınlarının maarifləndirmə və məlumatlandırılmasıdır.

İkinci istiqamət isə seçkili orqanlarda qadın və qızların təmsilçiliklərinin artırılmasıdır. Bu, eyni zamanda, gender bərabərliyinə nail olmaqdır. Biz bələdiyyə seçkilərində namizəd olmaq istəyən qadınları bələdiyyələr, seçkilərlə bağlı qanun haqda və seçki prosesinin aparılması ilə bağlı maarifləndirəcəyik.

Layihəni həyata keçirən zaman qadınların yaş həddi, yəni onların gənc və ya orta yaşlı olması nəzərə alınmayacaq. Daha savadlı, bacarıqlı, işləmək arzusunda olan, layiqli xanımlara üstünlük veriləcək. Qadınlarla bağlı layihələrin qadın fəallığına təsir edəcəyinə əminik.

**Bahar QASIMOVA,**
**"Azərbaycan Qadınları Respublika Cəmiyyəti" İctimai Birliyinin sədri:**



– 103 illik tarixi,75 mindən çox üzvü olan təşkilatımız fəaliyyəti dövründə bir çox layihələrə imza atıb, postmüharibə dönəmində 6 dəfə sərhəd zonasında əsgərlərlə görüşüb, "100 əsgərə 100 məktub, 100 sovqat" layihəsi çərçivəsində maddi-mənəvi dəstək göstərib, 200-dən artıq beynəlxalq təşkilatlara və dövlət rəhbərlərinə müxtəlif dillərdə bəyanatlar və müraciətlər göndərib.

Təşkilat tərəfindən Ağdam, Ağcabədi, həmçinin Bakının Xəzər və digər rayonlarında şəhid ailələrinin üzvlərinə, qazilərə və aztəminatlı ailələrə psixoloji, tibbi, hüquqi yardımlar edilib. İçərişəhərdə, Xırdalan şəhərində, Sabunçu, Suraxanı və Yasamal rayonlarında 115 ailəyə müəyyən məbləğdə talonlar paylanılıb. "Narkotik maddələr təlɘdir" layihəsi çərçivəsində Lənkəran, Masallı və Bakı kəndlərində əhali arasında maarifləndirici söhbətlər aparılıb.

İçərişəhərdə Bəylər məscidində Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın iştirak etdikləri qədim Quran kitabları və əmanətlər sərgisi təşkil olunub. Şuşa və Ağdama ziyarət zamanı məscidlərə çox qədim, ceyran dərisi üzərində yazılan Quranlar bağışlanılıb.

Bütün bunlarla yanaşı, cəzaçəkmə müəssisəsində xanımlarla görüşüb maarifləndirici söhbətlər aparmışıq. Respublikada ilk dəfə gözdən əlil uşaqlar arasında şahmat yarışı keçirmiş və internat məktəbdə 20 şagirdin gözlərini müayinə etdirib himayəyə götürmüşük.

Ulu öndər Heydər Əliyevin 100 illik yubileyi ilə bağlı Yasamal rayonunda "Əbədiyaşar Ulu öndər" adlı tədbir, Abşeron rayonunda "100 agac əkək" aksiyası, Şuşa–Laçın dəhlizində aksiyaya qoşulub Bakı Mühəndislik Universiteti ilə birgə "Qarabağda ekoloji terrora son!" elmi-praktik konfrans keçirmişik.

Şəhid ailələrinin üzvlərinə, qazilərə, aztəminatlı ailələrə daim dəstək göstərilir. Narkomaniya, digər sosial problemlərə və məişət zorakılığına nəzarət edir, TV kanallarında ekspert kimi maarifləndirici söhbətlər aparırıq.

Bu il təqdim etdiyimiz "Qadınlar ailə dəyərləri uğrunda" adlı layihəmiz sosial problemləri əhatə edir. Ağcabədi, İsmayıllı və Qusar rayonlarında keçirəcəyimiz bu layihənin icrası zamanı yerli icra orqanları, gənclər, yuxarı sinif şagirdləri, valideynlər, hüquq-mühafizə orqanlarının və sosial-təminat qurumlarının nümayəndələri ilə birlikdə maarifləndirici söhbətlər, psixoloq, hüquqşünas, tibb işçiləri ilə görüşlər nəzərdə tutulub. Tədbirlərdə boşanmalar, erkən nikahlar, zərərli vərdişlər, məişət zorakılığı və digər məsələlər müzakirə olunacaq. Şəhid ailələrinin üzvlərini, qaziləri və aztəminatlı ailələri həmişə olduğu kimi ziyarət edəcək, layihədən kənar şəxsi vəsaitimiz hesabına onlara maddi dəstək göstərəcəyik.

Hazırda COP29-la bağlı təşkilatın keçirəcəyi layihə hazırlayırıq.

**Səadət BƏNƏNYARLI,**
**"Beynəlxalq İnsan Hüquqları Cəmiyyətinin Azərbaycan Milli Bölməsi" İctimai Birliyinin sədri:**



– Əsas istiqamətimiz ölkədə ən az hüquqi yardım alan həssas qruplarla işdir. Elə əhali qrupları var ki, onların problemləri ilə onlarca vətəndaş cəmiyyəti institutu məşğuldur. Üstəlik dövlət də xüsusi həssaslıq göstərir. Bu sıraya şəhid ailələrinin üzvlərini, qaziləri, ahıl insanları, valideyn himayəsindən məhrum uşaqları və s. aid etmək olar. Ancaq elə problemlər var ki, faktiki olaraq ölkənin bütün əhalisini əhatə edir, amma sosial problem kimi dərindən araşdırılmadığından, ya da onların həlli gündəmə yeni gəldiyindən vətəndaş cəmiyyətinin aktiv müdaxiləsinə ehtiyac var. Məsələn, gənclərin yad təsirlərdən qorunması, özəlliklə Azərbaycanın dövlət və milli maraqlarına ziyan vurmaq istəyən kənar güclərin süni surətdə yaratmaq istədiyi narkomaniya, ideoloji təbliğat kimi problemlərin həllinə dəstək təşkilatımızın prioritetlərindəndir.

Biz indiyə qədər bu məqsədlə bir neçə uğurlu layihə həyata keçirmişik. Həm maarifləndirmə, həm hüquqi yardımla məşğul olmuşuq. Eyni zamanda, vətəndaş qrupları ilə təmaslar zamanı topladığımız bilgilər əsasında konkret təkliflər hazırlayaraq uyğun dövlət qurumlarına təqdim etmişik. Sevinirik ki, təkliflərimiz əsasında hazırlanan bir sıra qanunvericilik təşəbbüsləri Milli Məclisin komitələrində müzakirə edilib, zaman-zaman qanunverici bazada əks olunub.

Bizim bu yaxınlarda icrasına başladığımız "Həssas əhali qrupuna aid olan qadın və gənclərin sosial hüquqlarının müdafiəsi" layihəsinin də məqsədi yuxarıda sadaladıqlarımızdır. Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin maliyyə yardımı ilə həyata keçiriləcək layihə Bakıda və regionlarda icra ediləcək.

İndiyə qədər də layihələrin bölgələrdə icrasına üstünlük vermişik. Çünki paytaxtda insanların öz məsələlərini həm ictimailəşdirməsi asandır, həm rəsmi qurumlara, həm də vətəndaş cəmiyyəti institutlarına çıxış imkanları daha çoxdur. Bölgələrdə bu imkanlar məhduddur. Ona görə də biz peşəkar komandamızla həm problemlərin öyrənilməsi, həm onların həlli yollarının tapılması, həm hüquqi dəstək, həm rəsmi qurumlarla əlaqələndirmə məsələlərində vətəndaşlara yardım etməyə çalışırıq.

Bugünə qədər yüzlərlə vətəndaşa konkret məsələnin həllində yardım etmişik, ehtiyac olduğu zaman psixoloqlarımız ailələri ilə danışıqlar aparıblar, onlara rəsmi qurumlara müraciət vərdişləri öyrədilib, məsələlər həll edilənə qədər proses nəzarətdə saxlanıb. Bir məsələni unutmaq olmaz ki, görülən iş kompleks xarakter daşımalıdır – başdan sona qədər, hətta proses bitəndən sonra da ailə ilə, ya da şəxslə təmaslar itməməlidir. Vətəndaş cəmiyyəti məhz belə yaranır.

**Südabə ŞİRƏLİYEVA,**
**"Qadın və müasir dünya" Sosial Xeyriyyə Mərkəzi İctimai Birliyinin sədri:**



– "Qadın və müasir dünya" Sosial Xeyriyyə Mərkəzi İctimai Birliyi 25 il bundan əvvəl Ədliyyə Nazirliyində qeydiyyata alınıb. Milli QHT kimi BMT-nin bütün tədbirlərində iştirak etmək hüququ və müzakirə olunan məsələlər üzrə statment hazırlayıb yaymaq səlahiyyətimiz var.

Biz BMT-nin elan etdiyi müddətdə "Yoxsulluğun həlli yolu ilə gender bərabərliyinin və bütün qadınların və qızların səlahiyyətlərinin artırılmasının sürətləndirilməsi və genderə cavab verən institutların və maliyyələşdirmənin gücləndirilməsi" mövzusu üzrə "Azərbaycanda yoxsulluğun həlli yolu ilə gender bərabərliyinin və qadınların və qızların səlahiyyətlərinin artırılmasının sürətləndirilməsi" adlı 1500 sözdən ibarət statment hazırlayıb qeydiyyatdan keçirmişdik. Bu statmentlər çap olunub bütün iştirakçılar arasında paylanır. BMT-nin mənzil-qərargahında Qadının Statusu üzrə Komissiyanın illik toplantısı olan 68-ci sessiyasında iştirak etmişəm.

Təşkilatımız bu il "Kənd yerlərində qadınların sahibkarlıq fəaliyyəti" informasiya treninq proqramını icra edəcək. Bu, əvvəllər həyata keçirdiyimiz layihələrin davamıdır və builki layihəni də həmin istiqamətdə Şirvan zonasında kənd qadınları arasında sahibkarlıq və kiçik biznesin inkişafı – məşğulluq problemlərinin həllinə kömək informasiya– treninq proqramı kimi reallaşdıracağıq.

Layihə iki mərhələdə həyata keçiriləcək. İsmayıllı, Ağsu, Şamaxı və Qobustan rayonlarında hər mərhələdə bir gün olmaqla iki günlük təlimlər aparılacaq.

Kənd yerlərində qadınlar kənd təsərrüfatında çalışan işçi qüvvəsinin böyük hissəsini təşkil edir, ödənişsiz ev işlərinin və baxım işlərinin çoxunu görür, ev təsərrüfatını idarə edir, ərzaq istehsalını gerçəkləşdirir və s. Düşünürük ki, işsizliklə mübarizə aparmaq üçün ən təsirli strategiyalardan biri kiçik və orta biznesin inkişafıdır. Aparılan təhlillər nəticəsində məlum olub ki, özünüməşğulluqda iş tapmış və yaxud da iş yeri yaratmaq istəyən əhalinin 70 faizi kənd yerlərində yaşayanlardır. Deməl olar ki, özünüməşğulluq de-fakto aşağı keyfiyyətli iş yerləri ilə xarakterizə olunan gizli işsizliyin maskalanmasının əsas forması kimi çıxış edir, yəni qazanc çox vaxt sadə yaşayış minimumu səviyyəsində olur.

Son illərin müşahidələri göstərir ki, ölkəmizdə qadınlar kiçik biznesin yaradılmasına və özünüməşğulluğuna daha çox maraq göstərirlər. Stereotiplər, Şərq təfəkkürü, kişi tərəfdaşlar tərəfindən qeyri-ciddi münasibəti aradan qaldırmaq bəzən işə başlamaqdan daha çətindir. Digər tərəfdən, qadınlara uğurlarını sübut etmək üçün kişilərlə müqayisədə biznes üçün lazım olan ilkin kapitalı toplamaq daha çətindir.

Bizm QHT-nin həyata keçirdiyi bu layihənin əsas məqsədi "kölgədən çıxmaq" üçün stimullaşdırıcı tədbirlərin işlənib hazırlanması və özünüməşğulluqda artım sahələrinin inkişafında qadınların potensialının artırılmasına kömək etməkdir. Biz hesab edirik ki, icra hakimiyyəti orqanları aktiv məşğulluq tədbirləri hazırlayarkən, layihələrin hədəflərinə nail olmaq üçün, habelə makro səviyyədə məşğulluq siyasətinin əsas istiqamətlərini müəyyən edərkən qadınların potensialının üzə çıxarılmasına çalışmalıdırlar.

**Vüsalə ƏLİYEVA,**
**"Xüsusi Qayğıya Ehtiyacı Olan Uşaqlara və Onların Ailələrinə Yardım" İctimai Birliyinin sədri:**



– İctimai birliyimiz 2017-ci ildən müxtəlif layihələrin icrasına imza atıb. 2019-cu idə Qeyri-Hökümət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının 1-ci qrant müsabiqəsində "Xüsusi qayğıya ehtiyacı olan uşaqlara ümumi, orta ixtisas və ali təhsil, mədəniyyət və incəsənətin inkişafına dair təşəbbüslər"lə iştirak etmişik. 2022-ci ildə isə "Xüsusi qayğıya ehtiyacı olan gənc xanımların peşə təlimi və peşə təhsilinə marağın artırılması üzrə təşəbbüslər" layihəsini həyata keçirmişik. Layihənin icrası çərçivəsində gənc qız və xanımlara peşəkar təlimçilər tərəfindən rəssamlıq kursları və qadın bərbəri peşələrinin öyrədilməsi istiqamətində təlimlər keçirildi. Müxtəlif peşə təlimləri keçməklə göstərmək istəyirdik ki, peşə təhsili, ümumiyyətlə, xüsusi qayğıya ehtiyacı olan uşaqlara necə müsbət təsir edir. Keçirilən təlimlərdən sonra xanımlar informasiya əldə edə, asudə vaxtlarını səmərəli və maraqlı keçirə, intellektual səviyyələrini artıra, ictimaiyyətlə sıx virtual əlaqə saxlaya bildiklərini söyləyirdilər.

"Peşə təhsili və təlimi" layihəsinin icrası zamanı 3 nömrəli internat məktəbində xüsusi qayğıya ehtiyacı olan uşaqlara təlimçilər tərəfindən rəssamlıq, kompüter kursları, qadın bərbəri, aşpazlıq peşələrinin öyrədilməsi istiqamətində təlimlər keçirildi.

2023-cü ildə ictimai birliyimiz "Peşə təhsili və təliminin inkişafına dair Strateji Yol Xəritəsi – peşə təhsilinin təşviqi ilə bağlı tədbirlərin təşkili" adlı layihə icra etdi. Layihənin məqsədi peşə təhsilini təbliğ etmək, peşə təlimləri barəsində maarifləndirmə işləri aparmaq, insanları peşə təhsilinə cəlb etmək idi.

Bu il "Xüsusi qayğıya ehtiyacı olan ailələrdə qadınların peşə təhsilinin gücləndirilməsi" layihəsini təqdim etmişik. Layihəni həyata keçirmək üçün hər şeydən əvvəl işçi qrupu hazırlanacaq. Qrup üzvləri arasında iş bölgüsü aparılacaq. Layihənin icrasına dəstək məqsədilə aidiyyəti üzrə qurumlara rəsmi məktublar yazacaq, danışıqlar aparacağıq. Təlimlərdə istifadə etmək məqsədilə uyğun materiallar hazırlamağı və peşələr üzrə təlimçilər dəvət etməyi planlaşdırmışıq.

Layihənin icrasına may ayından başlayacağıq. Bakı və Gəncədə peşə təhsilinin daha önəmli olduğuna dair məlumatlandırma işi aparılmalı, xanımlara peşə təhsilinə diqqəti artırmalı, onların işsizliyinin aradan qaldırılmasında mühüm rol oynayacağı əhaliyə, əsasən də qadınlara çatdırılmalıdır. Hər birində 4 dəfə olmaqla seçim əsasında aztəminatlı və şəhid ailələrinin üzvləri olan qadınlara aşpazlıq və bərbər təlimləri keçiriləcək.

Təlimlər bitdikdən sonra iştirakçılara peşə sertifikatları veriləcək ki, bu da onların işlə təmin olunmalarına kömək edəcək. Bakıda 15 nəfərin iştirakı ilə bərbərlik, Gəncədə isə həmin sayda aşpaz sənətinə yiyələnmək istəyənlər üçün peşə təlimi kursları keçiriləcək. İnanıram ki, hazırda təqdim etdiyimiz layihəni də uğurla icra edəcək, qadınların peşə təhsilinə cəlb olunması istiqamətində istəyimizə qismən də olsa nail olacağıq.

**Sevil ALLAHVERDİYEVA,**
**"Qadın Problemlərinin Tədqiqatları Mərkəzi" İctimai Birliyinin sədri:**



– 17 ildir ki, təşkilatımızın fəaliyyət istiqamətləri müxtəlif olsa da, əsas məqsədi qadınların hüquqi biliklərinin yüksəldilməsinə və hüquqlarının qorunmasına yardım etməkdir. 2006-cı ildən indiyədək ölkə ərazisində çoxsaylı layihələr icra etmişik. Son 3 ildə reallaşdırdığımız layihələrdən qısaca danışım.

Öncə onu deyim ki, 2021-ci ildə Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin dəstəyi ilə "Məişət zorakılığına son qoyaq" adlı tədbirlərin təşkili" layihəsini reallaşdırmışıq. Layihənin icrasını İmişli, Ucar, Ağdaş və Zərdab rayonlarında həyata keçirmişik. 2022-ci ildə agentliyin dəstəyilə "Qızların ali və peşə təhsilinə marağının artırılması ilə təhsildən yayınmalarının qarşısının alınmasına dəstək" layihəsini Masallı, Cəlilabad, Saatlı və Sabirabad rayonlarında reallaşdırmış, qızların ali təhsildən uzaq düşsə də, bir peşəyə sahib olmasının vacibliyi ilə bağlı onları və valideynlərini məlumatlandırmışıq.

Ötən il isə "Regionda yaşayan qadınların elektron xidmətlərdən istifadə ilə bağlı məlumatlandırılması" layihəsini icra etmişik. Layihəni Şirvan, Kürdəmir, Neftçala və Zərdab rayonlarında texnologiyalara maraq göstərən gənclər, habelə digər rayon sakinləri ilə həyata keçirmişik.

Bu il təqdim etdiyimiz "Həssas qrupdan olan qadınların müdafiəsi" adlı layihənin əsas məqsədi məişət zorakılığından əziyyət çəkən, övladını təkbaşına böyüdən və digər həssas qruplardan olan qadınlara ödənişsiz hüquqi məsləhət xidməti göstərib, onların hüquqlarını qorumaqla sosial vəziyyətlərini yaxşılaşdırmaqdır.

Layihənin icrası müddətində məişət zorakılığına məruz qalan, övladını təkbaşına böyüdən və digər həssas qruplardan olan 30–35 nəfər qadına ödənişsiz hüquqi konsultasiya xidməti göstəriləcək. Layihə çərçivəsində hədəf qrupundan olan müraciətlər əsasında onların hüquqlarının qorunması üçün tələb olunan ərizə, şikayət və müraciətlər hazırlayacağıq. Bundan başqa, aliment təyini, həmçinin alimentin artırılması, uşaqların ananın himayəsində saxlanması, məhkəmədən öncə mediasiya sənədlərinin hazırlanmasında hədəf qrupuna hüquqi xidmət göstəriləcək.

Layihənin əsas tərəfdaşı Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi olacaq. Layihənin icrasında komitə və regionlarda fəaliyyət göstərən qadın resurs mərkəzləri ilə əməkdaşlıq ediləcək. Əvvəlki illərdə birgə çalışdığımız həmin qadın resurs mərkəzləri vasitəsi ilə də hələ də hüquqlarını bilməyən, hüquqi məsləhət xidmətinə ehtiyacı olan qadınlara dəstək göstəriləcək.

**Jalə TEYMURLU,**
**"İnci" Məcburi Köçkün Qadınlar Birliyinin sədri:**



– İctimai birliyimiz 2009-cu ildə qeydiyyatdan keçib. Ötən illər ərzində qadınlarla bağlı müxtəlif layihələrin icra olunmasına dəstək göstərmişik. 2016-cı ildə Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının köməyilə "Fermer qadınların maarifləndirilməsi və innovativ texnologiyaların tətbiqi yolu ilə yerli istehsalın artırılmasına dəstək" layihəsini həyata keçirmişik. 2018-ci ildə isə şuranın dəstəyi ilə "Cəbhə bölgəsində yaşayan məcburi köçkün uşaq və yeniyetmələrin sosial inteqrasiyası məqsədilə yay məktəbinin təşkili" layihəsini uğurla icra etmişik.

Bu il Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinə "Doğma yurdlarına dönməyə hazırlaşan qadınlara dəstək" adlı layihə təqdim etmişik. Layihəni Cəbrayılın məcburi köçkün qəsəbələrində, Ağdam, Göygöl, Goranboy rayonlarının ərazisində həyata keçirməyi planlaşdırmışıq.

Məqsədimiz Böyük Qayıdış proqramı ilə doğma yurdlarına dönmüş və doğma yurdlarına dönməyə hazırlaşan sakinlərin, əsasən də qadınların işlə təmin olunmalarına dəstək olmaqdır. İstəyimiz odur ki, mövcud sosial müdafiə mexanizmlərindən istifadə etməklə qadınlar fərdi təsərrüfatlara sahib olsunlar, onların dövlət yardımından asılılığı aradan qalxsın, öz zəhmətləri hesabına ailə gəlirlərini artırsınlar və sahibkarlığa çıxış imkanı qazansınlar. Bununla da ölkədə kiçik ailə biznesi genişlənsin. Bütün bu sadaladıqlarımıza nail olmaq üçün isə əsas yol qadınların bu məsələlərlə bağlı maarifləndirilməsindən keçir. Vəzifəmizin əsasını məhz bu maarifləndirilmə işlərinin düzgün aparılması təşkil edir.

Layihəni həyata keçirərkən düşünürük ki, öncə doğma yurdlarına dönməyə hazırlaşan qadınların özünüməşğulluğunun təmin olunmasına dəstək olmalı və qadınların hüquqi və iqtisadi sahədə maarifləndirilməsini təşkil etməliyik. Proqrama cəlb olunanlar arasında əlaqələrin gücləndirilməsi və müsbət nümunənin təşviq olunmasına çalışmalıyıq. Eyni zamanda, proqrama cəlb edilənlərin ehtiyaclarının müəyyənləşdirilməsi və tədqiqata uyğun satış və idarəetmə sahəsində bacarıqlarının artırılması üçün dəstək olmalıyıq. Layihəyə cəlb olunanların müasir texnologiyalardan istifadə etməklə tərəfdaş tapmaları və öz kiçk bizneslərini inkişaf etdirməklə özünüməşğulluqlarını təşkil etməliyik. Bundan başqa, doğma yurdlarına dönməyə hazırlaşan qadınlarla Azərbaycanın digər ərazilərində olan uğur qazanmış kiçik sahibkarlar arasında əlaqələrin gücləndirilməsinə, müsbət təcrübələrin təşviq olunmasına nail olmalıyıq.

**Hazırladı:**
**Zərifə HÜSEYNOVA**
**XQ**

# "Avropa Komandasının Mina Əleyhinə Təşəbbüsü"nə start verildi





**Mayın 3-də Bakıda Avropa İttifaqının Azərbaycandakı nümayəndəliyinin təşkilatçılığı ilə "Avropa Komandasının Mina Əleyhinə Təşəbbüsü" mövzusunda tədbir keçirilib.**

Avropa İttifaqının (Aİ) Azərbaycandakı nümayəndəliyinin rəhbəri, səfir Peter Mixalko Aİ-nin digər məsələlərdə olduğu kimi, mina təhlükəsi sahəsində də Azərbaycanla əməkdaşlığı diqqətdə saxladığını və dəstəyini əsirgəmədiyini qeyd edib.

Avropa İttifaqı ilə Azərbaycanın güclü və yaxın tərəfdaşı olduğunu vurğulayan Peter Mixalko bildirib: "Azərbaycan vətəndaşları münaqişə başlayandan indiyədək çox əziyyət çəkiblər. Ötən müddət ərzində Aİ Azərbaycanın yanında olub və həmişə də olacaq".

Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev bildirib ki, 30 ilə yaxın erməni işğalı nəticəsində Azərbaycan minalar və müharibənin partlayıcı qalıqları kimi nəhəng çağırışla üz-üzədir. Azərbaycan dünyanın minalarla ən çox çirkləndirilmiş ölkələri sırasındadır. Ölkəmizdə 1,5 milyon mina və partlayıcı qalıqları var. Bu, Azərbaycan ərazisinin 12 faizini əhatə edir. Bu, həm mülki vətəndaşlara ciddi risk yaradır, həm də sosial-iqtisadi inkişafa əngəl törədir.

Prezidentin köməkçisi diqqətə çatdırıb ki, 2020-ci ildə müharibənin başa çatmasından bu il aprelin 27-dək 212 mina partlayışı hadisəsi baş verib, nəticədə uşaqlar və qadınlar daxil olmaqla, 356 şəxs bu partlayışların qurbanı olub. Bu hadisələr göstərir ki, ərazilərin minalardan təmizlənməsinə və qurbanlara kömək göstərilməsinə təcili zərurət var. Ümumilikdə, ötən 30 il ərzində Azərbaycandakı mina qurbanlarının sayı 3435 nəfərdir.

Hikmət Hacıyev diqqətə çatdırıb ki, Ermənistanın Azərbaycanda yerləşdirdiyi minaların dəqiq xəritələrini verməkdən imtina etməsi minatəmizləmə işlərini çətinləşdirir və 800 min keçmiş məcburi köçkünün öz evlərinə qayıtmasına mane olur.

"Azərbaycan beynəlxalq ictimaiyyətin minalardan təmizlənmə səylərində bəşəriyyətin həmrəyliyinin əlaməti olaraq adekvat siyasi və praktiki dəstəyinə güvənir. Belə ki, bu prosesin böyük və mənfi humanitar təsiri olmaqla yanaşı, minalarla çirklənmə sülh və barışıq prosesi ilə bağlı da çağırış yaradır. Ölkəmizin müəyyən dərəcədə inkişaf etmiş institusional bacarıqlarını və təlim proqramlarını nəzərə alsaq, birbaşa maliyyə ianələrini əməliyyatların əhatə dairəsini genişləndirmək üçün bu prosesdə ən mühüm yardım növü hesab etmək olar.

Digər prioritetlərə isə mina qurbanlarına dəstək, texniki sorğular, texniki-iqtisadi araşdırmalar, məlumatların idarə olunması, texnoloji irəliləyişlər, coğrafi ərazi üzrə metodologiyaların yerinə yetirilməsi, təmizləmə prosesini daha da yaxşılaşdırmaq üçün bir neçə texnologiyadan eyni vaxtda istifadə edilməsi, qadınlardan ibarət minatəmizləmə komandalarına dəstək göstərilməsi, mexaniki minatəmizlənmənin genişləndirilməsi, minaaxtaran itlərin təlimi, demarkasiya, hasarlama, partlayıcı sursat riski ilə bağlı maarifləndirmə daxildir", – deyə Prezidentin köməkçisi vurğulayıb.

Minatəmizləmə fəaliyyətində maarifləndirmə prosesini genişləndirmək və əməkdaşlığı təşviq etməklə bağlı Azərbaycanın beynəlxalq təşəbbüslərinə toxunan H.Hacıyev bildirib ki, ölkəmizin dünya miqyasında səyləri mina məsələsinə dair xarici dəstək axtarışından daha irəliyə gedərək maarifləndirmənin genişləndirilməsini, beynəlxalq əməkdaşlığın və həmrəyliyin təşviqini əhatə edir. Azərbaycan bu istiqamətdə aşağıdakı təşəbbüsləri həyata keçirib:

– Azərbaycanda minatəmizləmə fəaliyyətinə dair illik beynəlxalq konfransların keçirilməsi. BMT-nin İnkişaf Proqramı ilə birgə təşkil olunan bu konfranslar ölkəmizi mina fəaliyyəti üzrə siyasi dialoq üçün mühüm məkana çevirib. Növbəti konfrans bu il mayın 30-31-də Zəngilanda və Bakıda keçiriləcək. Konfransda minaların ətraf mühitə təsirlərindən bəhs olunacaq və bu mövzu Azərbaycanın COP29 sədrliyinə uyğundur. Biz Aİ-nin və onun üzv dövlətlərinin yüksək səviyyədə iştirakını səbirsizliklə gözləyirik.

– Qoşulmama Hərəkatının humanitar minatəmizləmə üzrə Təmas Qrupunun yaradılması təşəbbüsü. Prezident İlham Əliyevin tövsiyəsi əsasında Qoşulmama Hərəkatının ötən il qəbul etdiyi qərara əsasən bu təmas qrupunun əsası qoyulub və sentyabrda qrup fəaliyyətinə başlayıb.

– Minaların mədəni irsə mənfi təsirlərinin vurğulanması. Azərbaycan hərbi münaqişələr zamanı mədəni irsin qorunmasını qəti surətdə dəstəkləyir. Azərbaycan 2016-cı ildə UNESCO-nun mədəni mülkiyyətin qorunmasından bəhs edən "Hərbi bələdçi"ni maliyyələşdirmişdir. Ötən il UNESCO minaların mədəni irsə təsiri ilə bağlı qətnamə qəbul edib. Bu qətnamənin davamı olaraq hazırda Ağdamda bu məsələyə həsr edilmiş xüsusi konfrans keçirilir.

– Azərbaycan BMT ilə birlikdə minatəmizləmə fəaliyyəti üzrə təlimlər üçün BMT-nin İnkişaf Proqramı–ANAMA mərkəzini yaratmaq üzrədir. Azərbaycan artıq oxşar problemlərlə üzləşən digər ölkələrə öz təcrübə və biliklərini paylaşaraq yardım edir. Bu mərkəzin yaradılması ANAMA-nın təlim dəstəyi göstərmək imkanlarını əhəmiyyətli dərəcədə artıracaq.

– Azərbaycan minatəmizləmə fəaliyyəti üzrə milli Dayanıqlı İnkişaf Məqsədi qəbul edib və BMT çərçivəsində onun qəbulu təşəbbüsünü irəli sürüb.

Aİ-nin "Avropa Komandasının Mina Əleyhinə Təşəbbüsü" ilə bağlı danışan Hikmət Hacıyev vurğulayıb ki, minaların təmizlənməsi Azərbaycan–Aİ əməkdaşlığının ən mühüm istiqamətlərindən birinə çevrilə bilər. Bu kontekstdə biz yüksək səviyyəli siyasi dialoqun praktiki davamı olaraq "Minaların təmizlənməsi sahəsində Azərbaycanın səylərini dəstəkləmək üçün Avropa Komandası Təşəbbüsü"nün elan edilməsini yüksək qiymətləndiririk.

"Biz bu təşəbbüsün təfərrüatları, xüsusilə də onun maliyyə parametrləri haqqında daha çox şey öyrənməyi səbirsizliklə gözləyirik. Ümid edirik ki, maliyyələşdirmənin səviyyəsi üzləşdiyimiz problemin miqyasına uyğun olacaq. Bundan başqa, biz inanırıq ki, Avropa Komandası Təşəbbüsü çərçivəsində praktik layihələr üçün prioritetlərin müəyyənləşdirilməsi ev sahibi olan dövlətin prinsiplərinə əsaslanacaq. Bizə lazım olan real minatəmizləmədir. Prezident İlham Əliyevin qeyd etdiyi kimi: "Pul vermək istəmirsinizsə, pulu gəlib minatəmizləyən şirkətə verin, əgər kömək etmək istəyiniz varsa".

Aİ-nin regionda sülh və inkişafı dəstəkləmək üçün nadir imkanı var. Ümid edirik ki, Avropa Komandası Təşəbbüsünün irəli sürülməsi Aİ-nin regiona dəstək siyasətində ədalətli yanaşmanın və keçmiş münaqişədən böyük zərər çəkmiş yeganə tərəf kimi Azərbaycanın obyektiv ehtiyaclarının təmin edilməsi istiqamətində ilk addım olacaq", – deyə Prezidentin köməkçisi qeyd edib.

Avropa Komissiyasının Qonşuluq və Genişlənmə danışıqları üzrə Baş direktoru Gert Jan Koopman bildirib ki, Avropa Komissiyası Azərbaycanda mina əleyhinə aparılan işlərdə dəstəyini əsirgəmir. Avropa İttifaqına (Aİ) üzv ölkələr həmrəylik göstərəndə ortaya yaxşı iş qoya bilirik. Biz bu məsələdə daha çox iş görməyə hazırıq.

Avropa Komissiyasının rəsmisi diqqətə çatdırıb ki, Aİ və üzv dövlətlər 2020-ci ildən bəri Azərbaycana 10 milyon avro məbləğində qrant yardımı edib. Bu məbləğin 13 milyon avroya çatdırılacağı gözlənilir.

"Team Europe" proqramı çərçivəsində digər layihələrdən də söz açan Baş direktor Azərbaycanın marağı olacağı təqdirdə, həmin layihələrdə iştirak üçün dəstək göstərməyə hazır olduqlarını vurğulayıb.

Azərbaycanın dünyada minadan ən çox əziyyət çəkən ölkələrdən biri olduğunu xatırladan Minatəmizləmə Agentliyinin İdarə Heyətinin sədri Vüqar Süleymanov keçmiş məcburi köçkünlərin öz evlərinə qayıtmaları üçün ərazilərin minalardan təmizlənməsi işlərinin prioritet məsələ olduğunu diqqətə çatdırıb.

V.Süleymanov ANAMA-nın fəaliyyəti nəticəsində indiyədək 134 min hektar sahənin minalardan təmizləndiyini diqqətə çatdırıb. Bildirib ki, indiyədək 119 mindən çox partlayıcı maddə tapılıb və bunlardan 31 mini piyada əleyhinədir. O, Avropa İttifaqının təşəbbüsü ilə qadınlardan ibarət minatəmizləmə qrupunun yaradılmasının yaxşı təşəbbüslərdən biri olduğunu vurğulayıb.

Mina təhlükəsi ilə bağlı videoçarx nümayiş etdirildikdən sonra Avropa İttifaqının Azərbaycandakı nümayəndəliyinin rəhbəri, səfir Peter Mixalko "Team Europe" Avropa Komandasının mina əleyhinə təşəbbüsü barədə məlumat verib.



# Şeyxülislamın dini liderlərlə görüşü

**Qafqaz Müsəlmanları İdarəsinin sədri, şeyxülislam Allahşükür Paşazadə Azərbaycan Prezidenti İlham Əliyevin himayədarlığı ilə keçirilən VI Bakı Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu çərçivəsində ölkəmizdə səfərdə olan dini liderlərlə görüşüb.**

Qafqaz Müsəlmanları İdarəsinin sədri, şeyxülislam Allahşükür Paşazadə Azərbaycanda dinlər və mədəniyyətlərarası əməkdaşlığa dair, insan həmrəyliyinə xidmət edən ideyalara xitabən multikulturalizm, İslam həmrəyliyi və "Yaşıl dünya naminə" illərin elan olunmasını, mütəmadi tədbirlərin keçirilməsini Azərbaycan Prezidentinin bəşəri dəyər kəsb edən siyasi liderliyinin təzahürü olduğunu qeyd edib.

Müsəlman Ağsaqqalları Şurasının baş katibi Məhəmməd Əbdüssəlam deyib ki, Şuşada keçirilmiş dinlərarası mötəbər tədbir Azərbaycan dövlətinin dinlərə, multikulturalizmə verdiyi önəmin, söz və insan azadlığına göstərdiyi hörmətin göstəricisidir: "Məhz bu cür hörmət və qonaqpərvərliyə görə mən Azərbaycan dövlətinə və Prezidentinə öz təşəkkürümü bildirirəm".

Görüşdə 38 ölkəni və 10 beynəlxalq təşkilatı təmsil edən müsəlman, xristian, yəhudi, buddist, induist və digər dinlərin liderləri və nümayəndələri iştirak ediblər.

**XQ**



# Azərbaycan–Rusiya nəqliyyat əməkdaşlığı

**Azərbaycan Respublikası Baş nazirinin müavini Şahin Mustafayev və Rusiya Federasiyası Hökuməti sədrinin birinci müavini Andrey Belousov mayın 3-də Moskvada, Hökumət Evində Azərbaycan–Rusiya əməkdaşlığının nəqliyyat sahəsində inkişaf perspektivləri barədə müzakirələr aparıblar.**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin aprelin 22-də Moskvada keçirilən görüşdə əldə etdikləri razılaşmalara uyğun olaraq, Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizi çərçivəsində dəmir yolu infrastrukturunun modernləşdirilməsi ilə bağlı prioritet vəzifələr nəzərdən keçirilib.

Ş.Mustafayev və A.Belousov Azərbaycanın və Rusiyanın dəmir yolları ilə yüklərin sabit qaydada daşınmasını təmin etmək üçün zəruri tədbirlərin həyata keçirilməsində maraqlı olduqlarını təsdiqləyiblər.

Müzakirələrin yekunlarına əsasən, Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizinin dəmir yolu daşımalarının və infrastrukturunun inkişafı üçün zəruri normativ hüquqi bazanın yaradılması üzrə Birgə fəaliyyət planı təsdiq edilib.

Danışıqlar konstruktiv və dostluq şəraitində keçib.

***

**Həmin gün Baş nazirin müavini Şahin Mustafayev ilə Rusiya Federasiyası Hökuməti Sədrinin müavini Aleksey Overçuk arasında görüş keçirilib.**

Danışıqlar əsnasında Rusiya ilə Azərbaycan arasında iqtisadi əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın gündəliyinə daxil edilmiş ikitərəfli iqtisadi-ticari əməkdaşlığın aktual məsələlərinə baxılıb.

Tərəflər iqtisadi-ticari, sənaye, enerji, nəqliyyat, kənd təsərrüfatı, maliyyə, səhiyyə, mədəniyyət, elm, regionlararası əməkdaşlıq, təhsil və turizm sahələrində əməkdaşlığın inkişafı məsələlərinə xüsusi diqqət yetiriblər.

Hökumətlərarası Komissiyanın həmsədrləri əməkdaşlığın bütün sahələrində Rusiya–Azərbaycan münasibətlərinin möhkəmləndirilməsinə yönəlmiş konstruktiv dialoqu davam etdirməyə hazır olduqlarını təsdiq ediblər.

**XQ**

**VI Mədəniyyətlərarası Dialoq Forumu**

# Forum iştirakçıları Ağdamda

## Qonaqlar bölgədəki mina təhlükəsini müzakirə ediblər



**Bakıda keçirilən "Sülh və qlobal təhlükəsizlik naminə dialoq" mövzusunda VI Mədəniyyətlərarası Dialoq Forumunun iştirakçıları işğaldan azad olunan Ağdam şəhərində səfərdədirlər. Forum çərçivəsində Ağdam Konfrans Mərkəzində "Minaların və partlamamış hərbi sursatların mədəni mülkiyyətə təsiri" mövzusunda xüsusi sessiya keçirilib.**

Əvvəlcə qonaqlar 30 illik işğal zamanı Ermənistan ordusunun rayon ərazisində basdırdığı minaların, kustar üsulla hazırlanmış partlayıcı qurğuların və partlamamış hərbi sursatların sərgisi ilə tanış olublar. Minatəmizləmə əməliyyatı haqqında qısa film nümayiş etdirilib.

Ağdam Füzuli və Xocavənd rayonlarında Prezidentin xüsusi nümayəndəsinin müavini Bəşir Hacıyev çıxışı zamanı diqqətə çatdırıb ki, işğaldan azad olunmuş ərazilərdə minatəmizləmə işləri aparılır, yeni və müasir şəhərlər tikilir.

Mədəniyyət nazirinin müavini Fərid Cəfərov qeyd edib ki, işğalçı qüvvələr bu şəhərdə bir dənə belə bina saxlamayıblar: "Müharibədən sonra minaların partlaması nəticəsində mədəni obyektlərin bərpası çətinləşib".

Malta Respublikasının UNESCO üzrə Milli Komissiyasının sədri Reymond Bondin Azərbaycanın çox qədim tarixə malik olduğunu söyləyib. Onun sözlərinə görə, qonşu dövlətin digər ölkənin mədəni irsinə bu qədər qəddarcasına yanaşması çox anlaşılmazdır.

BMT-nin İnkişaf Proqramında mütəxəssisi Qadim Tariq belə konfransların beynəlxalq ictimaiyyətin maarifləndirilməsinə müsbət təsir göstərdiyini vurğulayıb.

ICESCO-nun İslam Dünyası İrs Mərkəzinin direktoru Vebber Ndoro ölkəsi Zimbabvenin də bu problemlə üzləşdiyini diqqətə çatdırıb.

Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyinin (ANAMA) İdarə rəisi Ramil Əzizov Qarabağ və Şərqi Zəngəzurda 248 min hektar ərazinin minalarla yüksək səviyyədə çirkləndirildiyini, 780 min hektar ərazinin isə orta və aşağı səviyyədə minalanmış hesab olunduğunu bildirib. "Ümumilikdə, işğaldan azad olunmuş ərazilərə 1,5 milyona yaxın mina yerləşdirilib", – deyə İdarə rəisi əlavə edib.

**XQ**

# COP29 – qlobal çağırışlara birgə cavab



**Azərbaycanın evsahibliyi edəcək COP29-a beynəlxalq vətəndaş cəmiyyətinin hazırlıq prosesi çərçivəsində LINKS – Avropa Fondu tərəfindən mayın 3-də Almaniyanın Bonn şəhərində "COP29 və sonrası - sülh, təhlükəsizlik və iqlim dəyişikliyi" mövzusunda konfrans keçirilib.**

Konfransda BMT-nin, Avropa İttifaqının, həmçinin nüfuzlu qeyri-hökumət təşkilatlarının və beyin mərkəzlərinin nümayəndələri iştirak ediblər.

Konfransın açılışında Birləşmiş Ərəb Əmirliklərinin iqlim üzrə baş danışıqçısı Hana Əl-Haşimi, COP29-un İqlim üzrə yüksək səviyyəli çempionu Nigar Arpadarai, Almaniya Xarici İşlər Nazirliyinin Enerji üzrə xarici siyasət idarəsinin müdiri Markus Hiken çıxış ediblər.

Çıxışlarda iqlim dəyişikliyi ilə gələcəyin münaqişələri arasında ciddi qarşılıqlı əlaqənin olduğu bildirilərək, Azərbaycanın evsahibliyi edəcəyi COP29 çərçivəsində yeni qlobal çağırışlara birgə cavabların axtarılmasının vacibliyi qeyd olunub.

**XQ**

Yeni nəşrlər

# “Əzimzadə məktəbi”nin ensiklopediyası

**Ə.Əzimzadə adına Dövlət Rəssamlıq Məktəbi təsviri sənətimizin inkişafında böyük rol oynayıb. Bu təhsil ocağını bitirən elə insanlar var ki, onların əsərləri mədəniyyətimizin qızıl fonduna daxil edilib. Böyük fırça ustaları Səttar Bəhlulzadə, Tağı Tağıyev, Kazım Kazımzadə, Mircavad Mircavadov, Mikayıl Abdullayev, Elbəy Rzaquliyev, Toğrul Nərimanbəyov, Tahir Salahov, heykəltəraşlar Fuad Əbdürrəhmanov, Ömər Eldarov, Tokay Məmmədov, Mirəli Mirqasımov və digər onlarla görkəmli sənətkarımız ilk uğurlu addımlarını "Əzimzadə məktəbi"ndə atıblar.**




Əməkdar incəsənət xadimi, sənətşünaslıq doktoru Ziyadxan Əliyevin bu günlərdə "Təhsil" nəşriyyatında çapdan çıxan 560 səhifəlik "İstedadlar ocağı" kitabı bir əsr şərəfli yol keçmiş Dövlət Rəssamlıq Məktəbinə həsr edilib. Milli Məclisin Mədəniyyət Komitəsinin sədri, mərhum Qənirə Paşayevanın “Ön söz” yazdığı kitab gərgin əməyin məhsuludur və "Əzimzadə məktəbi"nin ensiklopediyası sayıla bilər.

Müəllif Azərbaycanda ilk rəssamlıq məktəbinin açılmasında böyük rəssam, sənət fədaisi Əzim Əzimzadənin əvəzsiz xidmətləri olduğunu qeyd edərək yada salır ki, gənc rəssam o illərdə, Xalq Maarif Komissarlığında məktəbdənkənar təhsil şöbəsində işləməklə yanaşı, respublikanın mədəni həyatında fəal iştirak edirdi. Əzim bəyin rəhbərliyi ilə Azərbaycanda olan maddi-mədəniyyət abidələri qeydiyyata alınır, onların vəziyyəti ilə bağlı yuxarı təşkilatlara hesabat və təkliflər hazırlanırdı. Təsviri sənətin vəziyyətilə bağlı bu şöbənin təqdim etdiyi hesabat əsasında Xalq Maarif Komissarlığı 7 iyul 1920-ci il tarixli kollegiya iclasında Azərbaycanda dövlət təminatlı ilk Rəssamlıq Studiyasının (məktəbinin) yaradılması haqda qərar qəbul edir. 1922-ci ildə Studiya Ali Rəssamlıq Məktəbinə çevrilir və burada təsviri sənət müəllimliyi, heykəltəraşlıq (1925-ci ildən), qrafika, litoqrafiya və nəqqaşlıq, tətbiqi sənət, rəngkarlıq bölmələri fəaliyyət göstərir. 1928-ci ildə tədris ocağı texnikum, 1939-cu ildən Dövlət Rəssamlıq Məktəbi (1947-ci ildən 5 illik təhsil tətbiq olunur) adlandırılır. 1943-cü il iyulun 1-də təhsil ocağı yeni vəfat etmiş Əzim Əzimzadə adına Azərbaycan Rəssamlıq Məktəbi adlandırılır.

Ziyadxan müəllim kitabın maraqla oxunması üçün, belə demək olarsa, statistik rəqəmləri və tarixi faktları elmi-publisistik sözə çevirib. Əsərin ayrı-ayrı bölmələrini oxuduqca bunun əyani şahidi oluruq. Azərbaycanda rəssamlığın tədrisi tarixindən, "Əzimzadə məktəbi"nin fəxri adlara layiq görülmüş məzunlarındək hər bir bölmə tədris ocağının keçdiyi yolun uğurlarını göz önündə sərgiləyir. Kitabın tərtibatında rəssam və heykəltəraşlarımızın ən uğurlu əl işlərindən nümunələrə də yer verilib. Nə qədər çətin olsa da, müəllif məktəbin bütün məzunlarının ad və soyadlarını da (buraxılış illəri üzrə) təqdim etməyə nail olub.

Yubilyar təhsil ocağına rəhbərlik etmiş insanlar ("İdarəçilik bacarığı"), orada dərs deyən müəllimlər ("Müəllim işığı"), Sovet İttifaqı Qəhrəmanı Mehdi Hüseynzadənin tələbəlik illəri ("Mixaylo" fırçasının gücü"), Ə. Əzimzadənin həyat və yaradıcılığı haqqında düşüncələr ("Rəssamlığımızın Sabiri") və digər bölmələr oxucu yaddaşını maraqlı faktlarla zənginləşdirir.

Kitabda diqqət çəkən bölmələrdən biri də məktəbin rəssam olmayan məşhurları haqqında yazılanlardır. Sən demə, Xalq artisti Mirzə Babayev, tarixçi Sara Aşurbəyli, yazıçı Fərman Kərimzadə, ədəbiyyatşünas alim Təhsin Mütəllimov, Avropa və Paralimpiya çempionu Gündüz İsmayılov və başqaları Dövlət Rəssamlıq Məktəbinin məzunu olublar.

"Əzimzadə məktəbi"nin (indiki Azərbaycan Rəssamlıq Akademiyasının nəzdindəki İncəsənət Kolleci)100 illiyinə həsr edilən "İstedadlar ocağı" kitabı sənət adamları, bu sahədə elmi iş yazanlar və təsviri sənətdən dərs deyən müəllimlər, ümumiyyətlə, sənətlə maraqlanan hər kəs üçün zəngin mənbədir. Bu kitab bir əsr şərəfli yol keçmiş, istedadlara bilik, qol-qanad vermiş, onları sənətin böyük yoluna çıxarmış təhsil ocağı haqqında əsl söz abidəsidir.

**Səməd MƏLİKZADƏ**

# Ənənəvi dəyərə çağdaş baxış



**Bakı Dövlət Universitetinin müəllimi, filologiya üzrə fəlsəfə doktoru Arzu Allahverdiyeva Tacikistanın paytaxtı Düşənbə şəhərindəki Rusiya–Tacikistan (Slavyan) Universitetində (RTDU) “Şərq və müasir dünya xalqlarının Ənənəvi Dəyərləri” mövzusunda 2 günlük Beynəlxalq mədəni və sivilizasiya Forumunda iştirak edib. Əməkdaşımızla söhbət zamanı Arzu xanım deyib:**

– Forumu Rusiya Federasiyası Hökuməti yanında Maliyyə Universiteti, Rusiya–Tacikistan (Slavyan) Universiteti, Tacikistan Milli Elmlər Akademiyası və İstanbul Rumeli Universiteti yanında Balkan Ölkələrinin Tətbiqi Araşdırmalar Mərkəzi təşkil etmişdi. Açılış mərasimində Tacikistan Milli Elmlər Akademiyasının prezidenti Kobiljon Xuşvaxtzoda, RTDU-nun rektoru, professor Məşrab Fayzullo, Tacikistan Elmlər Akademiyasının həqiqi əcnəbi üzvü Ramazan Abdulatipov, digər alimlər və diplomatlar iştirak edirdilər.

Tədbirdə sabitlik və harmoniya üçün əsas olan ənənəvi dəyərlərin qorunub saxlanmasının vacibliyi xüsusi vurğulandı, bu baxımdan Şərq ölkələri, o cümlədən Tacikistan Respublikası nümunə kimi göstərildi. Natiqlər həmin dəyərlərin sürətli texnoloji və sosial-mədəni inkişaf şəraitində üzləşdiyi problemlər, ənənələrin qorunub saxlanılması və davamlılığının təşviqi yolları barədə danışdılar, mədəniyyətlərarası dialoq və əməkdaşlığın genişləndirilməsi təşəbbüslərini irəli sürdülər. Mənim “Mədəniyyətlə tərəqqi: Şərq qadınlarının Azərbaycanda müasir həyata təsiri” mövzusunda təqdim etdiyim çıxışım forumun materialları ilə birlikdə toplanaraq kitab halında nəşr olunması qərara alındı. Forumun sonunda iştirakçıların müzakirə etdiyi əsas tezisləri və qlobal problemləri əks etdirən bəyannamə qəbul edildi.

**Ə.ƏLİYEV**
**XQ**

# Hər kitab bir dünyadır

## Yazıçı ömrünün səhifələri




***Filologiya üzrə fəlsəfə doktoru, dosent Elnarə Qaragözovanın sayca 5-ci kitabı – “Yusif Səmədoğlunun həyatı və yaradıcılığı” monoqrafiyası işıq üzü görüb.***

“Sənətkarın elmi pasportu seriyası”nın 48-ci nəşri olan kitabın elmi redaktoru AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli, rəyçiləri filologiya elmləri doktoru Vaqif Yusifli və filologiya üzrə fəlsəfə doktoru Lalə Həsənovadır.

Monoqrafiyada Azərbaycan ədəbiyyatının özünəməxsus imzalarından biri, Səməd Vurğun ocağının genetik və ədəbi davamçılarından olan Yusif Səmədoğlunun ədəbi irsi hərtərəfli işıqlandırılıb. “Yusif Səmədoğlunun həyatı”, “Yusif Səmədoğlu yaradıcılığı və Azərbaycan nəsri”, “Yusif Səmədoğlunun hekayə yaradıcılığı”, “Yusif Səmədoğlunun romanlarında arxetipik məqamlar”, “Yusif Səmədoğlunun yaradıcılığı ədəbi tənqiddə” bölmələrindən ibarət olan monoqrafiya ədibin həyat və yaradıcılığına yeni baxışı özündə ehtiva edir.

Kitab “Xan” nəşriyyatında çap olunub, 132 səhifədən ibarətdir.

## Çeçen poeziyası antologiyası

***“Ərənlərin nəğməsi. Çeçen şeirindən seçmələr” adlı toplu “Mücrü” nəşriyyatında çapdan çıxıb.***




Azərbaycan Yazıçılar Birliyinin (AYB) Çeçenistan Dövlət Pedaqoji Universiteti ilə birgə hazırladığı topluya son yüzildə çeçen şeirinin bütün ədəbi nəsillərini təmsil edən 41 şairin əsəri daxildir. Şeirləri dilimizə tərcümə edən, antologiyanın tərtibçisi və “Son söz”ün müəllifi AYB-nin katibi şair Səlim Babullaoğludur.

Məryəm İsayeva, Məhəmməd-Salah Qadayev, Məhəmməd Mamakayev, Nurdin Muzayev, Bilal Səidov, Arbi Mamakayev kimi tanınmış çeçen şairlərinin müxtəlif mövzulu şeirləri topluda yer alıb.

Kitabın redaktoru “Dünya ədəbiyyatı” dərgisinin baş redaktoru Seyfəddin Hüseynli, məsləhətçiləri tanınmış çeçen alimləri Tamara Avtayeva və Raisa Buralovadır. Kitabın dizaynında çeçen rəssamları Ruslan Yakixanovun, Məhəmməd Zakriyevin işlərindən istifadə edilib. Toplu Azərbaycan oxucusuna çeçen poeziyası və çeçen xalqının mənəvi tarixi ilə tanışlıq üçün dəyərli vasitədir.

## Qəhrəmanların sevgi hekayətləri




***Yazıçı-jurnalist Günel Natiqin “Elm və Təhsil” nəşriyyatında “Leyli-Məcnundan da böyük” adlı kitabı işıq üzü görüb.***

Günel Natiq bundan əvvəl də sənət və bəşər tarixində iz salmış insanların sevgi hekayətlərini qələmə alan müəllif kimi tanınır. O, daim dəyişən dünyada sevgi ideallarının hər zaman sabit qalacağı fikrini önə çəkib. Eyni zamanda, müəllifin məqsədi bu yarı gerçək, yarı əfsanə olan münasibətlərin bəşər mədəniyyətinə verdiyi dəyərlərə işıq salmaq, onun fonunda zaman, mühit, insan problemini aydınlığa qovuşdurmaqdır. Səhnələşdirilmiş radio formatında təqdim edilən “Əhməd Cavad və Şükriyyə”, “Çingiz Aytmatov və Bibisara”, “Mirzə Cəlil və Həmidə xanım”, “Lev Tolstoy və Sofiya”nın sevgi hekayətləri bu qəbildəndir.

Günel Natiqin “Kağız gəmilər”, “Məhəbbət quşları” və “Ədəbi talelər” adlı kitablarını oxucular maraqla qarşılayıblar. Yeni kitabda isə torpaqlarımızın azadlığı uğrunda döyüşmüş 13 qəhrəman və onların fədakar xanımlarının sevgi hekayətləri yer alır. Onların eşqi vətən sevgisiylə sınağa çəkilib. Sonda yenə Sevgi qazanıb. Çünki bütün sevgilər vətənə məhəbbətdən başlayır. Bir sözlə, bu hekayətləri çağdaş dövrün məhəbbət dastanları da adlandırmaq olar.

**Ə.DOSTƏLİ**
**XQ**

Zəfər yolçuları

# Vətən müharibəsinin qadın şəhidi–Arəstə

## Savaş meydanı onun son iş yeri oldu

**“Müharibəyə gedəndə bacımla mənə “İşə gedirəm, şənbə günü geri qayıdacağam” dedi. Onunla görüşüb, riyaziyyatdan hazırlığa getdim. Anam məndən iki saat sonra evdən çıxıb”. Bu sözləri Azərbaycan Ordusunun çavuşu olan hərbi feldşer Arəstə Baxışovanın oğlu Mərdan anasının şəhid olduğunu biləndən sonra deyib.**



Xaçmazlı qızı Arəstə Baxışova müharibəyə qədər doğulduğu rayona aid olsa da, indi bütün Azərbaycanın övladıdır. Özü də fəxr etdiyimiz, qürur duyduğumuz şəhid qızımızdır. Atası– Mühafizə xidməti rəisi, baş leytenant Kərim Baxışov Arəstənin 4 yaşı olanda vəfat edib. Anası çiyninə götürdüyü ağır yükü təkbaşına çəkib. Arəstə Biləsəri qəsəbəsində yerləşən Şuşa şəhər 3 nömrəli tam orta məktəbdə oxuyub. Anası onun hər hansı bir peşəyə sahib olmasını çox arzulayırdı. Ona görə də o, 2004–2008-ci illərdə Azərbaycan Dövlət Pedaqoji Kollecində ingilis dili ixtisası üzrə təhsil alıb.

Atasını uniformada geyimi ilə xatırlayan qızda bu geyimə xüsusi məhəbbət yaranıb. Ona görə peşə istiqamətini dəyişib və hərbi sahədə işləməyi seçib. Arəstə Baxışova 2018-ci ildə Azərbaycan Silahlı Qüvvələrinin Baş Hərbi Hospitalında tibbi statist işinə götürülüb. 2019-cu il iyulun 12-dək orada işləyib. Hərbi hospitaldan sonra Beyləqan rayonunda yerləşən “N” saylı hərbi hissədə operator vəzifəsində çalışıb.

Çavuş Arəstə Baxışova Vətən müharibəsinin qızğın günləri zamanı Füzulinin, Zəngilanın və Qubadlının azadlığı uğrunda gedən döyüşlərdə yaralı hərbçilərə ən qaynar nöqtədə, elə döyüş meydanında tibbi yardım göstərib. O, 1 aya qədər müddətdə kişilərlə çiyin-çiyinə gah səngərdə, gah meşədə yaralılara ana-bacı olub. Başına güllə yağa-yağa yaralanan hərbçi qardaşlarını böyük əziyyətlə atəş altından çıxarıb, neytral əraziyə gətirib. O, oktyabrın 23-də Qubadlı döyüşləri zamanı yaralı zabiti döyüş meydanından çıxararkən şəhidlik məqamına yüksəlib. Arəstə Biləsəri qəsəbəsinin Şəhidlər xiyabanında dəfn olunub. Ölümündən sonra “Vətən uğrunda” medalı və Beynəlxalq Qırmızı Xaç Komitəsi tərəfindən ingilis tibb bacısı Florens Naytingelin şərəfinə təsis olunan “Florence Nightingale” medalı ilə təltif edilib.

Gənc ananın Mərdan adında oğlu və Zəhra adında qızı yadigar qalıb. Vətən müharibəsinin yeganə qadın şəhidi Arəstə Baxışovanın oğlu ötən illərdə şəhid övladları üçün təşkil edilən “Qaliblər düşərgəsi”nin 14 günlük iştirakçısı olub. Mərdan qəhrəman xanımın oğlu olduğuna görə fəxr edir: “Anamı çox sevirdim. O bizi dəyişməz ana sevgisi ilə böyüdürdü. Anamın şəhadətindən üzülsək də, xəbəri qürurla qarşıladıq. Çünki şəhidlər ölmür, onlar hər zaman bizim qəlbimizdə yaşayacaq. Allah bütün şəhidlərə rəhmət eləsin!” – deyir Mərdan.

İki ciyərparasını anasına əmanət edərək, canından çox sevdiyi Vətənin azadlıq savaşına qalxıb döyüşə atılan Arəstə Baxışovanın son sözləri belə olub: “Bəlkə də mən sağ qayıtdım. Amma bu, döyüşdür, nəticəsi bilinməz. Uşaqlarım sənə əmanət”.

Mərdanın arzusu hərbçi olmaqdır. Anasının Vətənə bağlılığı, yurd sevgisi onda bu istəyi yaradıb. Allah yolunu açıq etsin. Bu gün Arəstənin 35 yaşı tamam olur. Gənc qız həyatının çiçəkləndiyi vaxtda çiçəklər əhatəsində uyuyur. Ruhu şad olsun.

**Zərifə BƏŞİRQIZI**
**XQ**

# “Yeni Tərtər” qəzetində yubiley görüşü

**Beynəlxalq Avrasiya Mətbuat Fondu prezidenti Umud Mirzəyev ispaniyalı fotomüxbir Qervasio Sançez Fernandezlə bugünlərdə 90 yaşı tamam olan “Yeni Tərtər” qəzeti redaksiyasının qonağı olublar.**




Uzun illərdən bəri ANAMA ilə Tərtərdə müxtəlif layihələr gerçəkləşdirən BAMF-ın rəhbəri rayonda çıxan “Yeni Tərtər” qəzeti ilə sıx əməkdaşlığın mina maarifləndirməsində önəmli rol oynadığını söylədi. Umud Mirzəyev ərazidə mina təhlükəsizliyinə verdiyi informasiya dəstəyinə görə redaksiya kollektivini Azərbaycan Mətbuat Şurası adından təbrik edərək, yubilyar nəşrə BAMF-ın diplomunu təqdim etdi. O, yarım əsrdən artıq bu qəzetdə çalışan baş redaktor Svetlana Bağırovanın bölgə mediasının tanınmış, cəfakeş qələm sahiblərindən olduğunu söylədi.

İspaniyalı fotomüxbir Sançez Fernandez də “Yeni Tərtər” qəzetini yubiley münasibətilə təbrik edərək bildirdi ki, o özü də yerli qəzetdə çalışıb. Qonaq qeyd etdi ki, Qarabağ həqiqətləri, Azərbaycanın mina problemi ilə bağlı kitab hazırlayır. Qarabağa səfəri zamanı BAMF və ANAMA ilə yanaşı, “Yeni Tərtər” qəzetinin də bu köməyindən faydalanacaq.

Baş redaktor Svetlana Bağırova bölgə mediasının çətinlikləri ilə üzləşdiyinə baxmayaraq yerli qəzetin yaşadılmasına çalışdıqlarını bildirdi, Mətbuat Şurasının və Avrasiya Fondunun dəstəyini razılıqla xatırladı.

**T.RÜSTƏMLİ**
**XQ**

# Naxçıvanda “Nuhun ayaq izləri”



**Azərbaycanın İsveç Krallığındakı Səfirliyinin təşəbbüsü, Naxçıvan Muxtar Respublikasının Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə isveçli fotoqraf və sənədli film rejissoru Mikael Silkeberq qədim diyarda film çəkilişinə başlayıb.**

Naxçıvana gələn çəkiliş heyəti muxtar respublika mədəniyyət nazirinin müavini Həsən Seyidovla görüşüb.

“Nuhun ayaq izləri” adlanan filmin rejissoru Mikael Silkeberq Naxçıvanın zəngin tarixi olduğundan bəhs edib. Görüşdə çəkilişə aparılacaq məkanlar, filmdə rol alan aktyorlarla bağlı qarşılıqlı fikir mübadiləsi aparılıb. Ekran əsərində yerli aktyorlar da çəkiləcəklər. Ssenari Haçadağda, Əshabi-Kəhf Ziyarətgahında, Əlincə qalasında, Ordubad rayonunda, Gəmiqayada, Möminə Xatın türbəsində, Nuh Peyğəmbərin türbəsində və digər məkanlarda lentə alınacaq.

**XQ**

Ekspert rəyi

# ABŞ-nin Rusiya ilə davamlı qarşıdurma siyasəti

**ABŞ Ukraynaya əlavə yardım strategiyası hazırlayır və bu strategiya iyunun 8-dək Konqresə təqdim edilməlidir. Strategiya üzərində iş ABŞ və Ukrayna arasında onillik təhlükəsizlik sazişinin müzakirələri fonunda aparılır. Kiyevə hərbi dəstəyin tərəfdarları onu təkcə indiki deyil, həm də gələcək ABŞ administrasiyalarının müdafiə siyasətinin prioritetlərindən birinə çevirməkdə qərarlıdırlar.**



Kiyevə 61 milyard dollarlıq hərbi yardımın təsdiqlənməsi Ukraynaya əlavə maliyyə ayrılması tərəfdarları və əleyhdarları arasında mübahisəni dayandırmayıb. Amerikalı qanunvericilər ABŞ-ın bu münaqişədə son hədəflərinin nə olduğunu müzakirə etməyə başlayıblar. ABŞ KİV-i yazır ki, Ağ ev Ukrayna ilə bağlı yeni strategiya hazırlayıb. Bu strategiya bir neçə ili əhatə etməli və spesifik milli təhlükəsizlik məqsəd və prioritetlərini müəyyənləşdirməlidir. Yeni Ukrayna strategiyasının Konqresə iyunun 8-dək təqdim ediləcəyi gözlənilir. Ancaq belə iddia olunur ki, respublikaçıların əksəriyyəti Kiyevi maliyyələşdirmə tərəfdarlarına qarşı yeni "cəbhə" açacaqlar. Bu həftə Vaşinqtonun hazırkı Ukrayna kursunun ən barışmaz əleyhdarları – respublikaçılar Mett Qeyts və Marjorie Taylor Qrin partiya üzvləri, Konqresin Nümayəndələr Palatasının spikeri Mayk Consona hücumları yenidən bərpa ediblər.

Ukrayna strategiyası ətrafında davam edən müzakirələri nəzərə alaraq, ABŞ müdafiə naziri Lloyd Ostin çərşənbə axşamı Nümayəndələr Palatasının Silahlı Qüvvələr Komitəsinin dinləmələrində iştirak edib. Qanunvericilərin suallarını cavablandıran Pentaqon rəhbəri əvvəlcə onları əmin edib ki, Bayden administrasiyası Kiyevə dəstəyin aktuallığını vaxtında əsaslandırmağa hazır olacaq. Onun sözlərinə görə, artıq strategiya üzərində iş başlanıb. Lakin ABŞ administrasiyası tərəfindən hazırlanan hesabatın dəqiq hansı müddəalardan ibarət olacağı sualından yayınan Lloyd Ostin Vaşinqtonun məlum siyasi bəyanatlarını təkrarlamağa üstünlük verib: "Bizim Ukrayna üçün məqsədimiz onun demokratik, müstəqil, suveren, özünü müdafiə etmək və gələcək təcavüzün qarşısını almaq qabiliyyətinə malik dövlət olmasıdır". Rusiya ilə gələcək sülh danışıqlarına gəlincə, Pentaqonun rəhbərinin sözlərinə görə, onların şərtləri və vaxtı ilə bağlı qərarı Vaşinqton deyil, Kiyev verməli olacaq. "Bu tip münaqişələrin əksəriyyətində olduğu kimi, bu münaqişə də bir növ danışıqlarla yekunlaşacaq. Əgər bu, baş verərsə, biz Ukraynanın öz məqsədlərinə çatmaq və düzgün danışıqlar aparmaq üçün ən yaxşı vəziyyətdə olmasını istəyirik", – deyə o bildirib. Ukrayna silahlı qüvvələrinin diqqət yetirməli olduğu vəzifələri sadalayan Lloyd Ostin onları "əlavə təzyiq göstərmək" üçün Krıma hücumları genişləndirməyə və həmçinin "Qara dənizə çıxışı" saxlamağa çağırıb: "Ukrayna Silahlı Qüvvələri, həmçinin Rusiyanın kiçik hücumlarını genişləndirdiyi və daha geniş hücuma keçməyə ça-lışdığı şimal və şərqdə də cəbhə xəttini müdafiə etməlidir".

Lakin Lloyd Ostini dinlədikdən sonra Ukraynanın davamlı maliyyələşdirilməsinə qarşı çıxan respublikaçılar məyus olduqlarını gizlətməyiblər. Müzakirələrdə iştirak edən konqresmen Skott Desjarlais (Tennessi ştatından olan respublikaçı) deyib ki, prezident Baydenin Kiyevə silah və hərbi texnikanın tədarükü üçün yeni büdcə ayırmalarının zəruriliyini əsaslandıran aydın Ukrayna strategiyası yoxdur. Onun sözlərinə görə, Lloyd Ostinin bəyanatlarında "Ukraynadakı endşpil" ilə bağlı ona verilən suallara cavab yoxdur.

Vaşinqtonun gələcək Ukrayna strategiyasının müzakirəsi ABŞ və Ukrayna arasında onillik təhlükəsizlik sazişinin imzalanması ilə bağlı danışıqlar fonunda gedir. ABŞ Dövlət Departamentinin çərşənbə axşamı verdiyi məlumata görə, "Dövlət Departamenti, Müdafiə Nazirliyi və Milli Təhlükəsizlik Şurasının nümayəndələri ukraynalı həmkarları ilə uzunmüddətli ikitərəfli təhlükəsizlik sazişi üçün mühüm əhəmiyyət kəsb edən məsləhətləşmələrin davam etdirilməsi barədə razılaşıblar". Dövlət Departamenti qeyd edib ki, 32 ölkə bu cür sazişləri imzalamağa hazır olduğunu bəyan edib və onlardan 9-u artıq Kiyevlə öz müqavilələrini imzalayıb. Xatırladaq ki, danışıqlardan əvvəl Ukrayna Prezidenti Volodimir Zelenskinin ötən həftənin sonunda ABŞ-la gələcək sazişin Ukraynanın digər müttəfiqlərlə bağladığı və ya imzalamaq üzrə olduğu bütün oxşar sənədlərin "ən güclüsü" olması barədə bəyanatı səslənib.

***S.ELAY***
***XQ***

# "Yaşıl" dünyanın hüquqi nizamı



**Azərbaycan Respublikasında 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi ilə əlaqədar həyata keçirilən silsilə tədbirlərin davamı olaraq, o cümlədən prokurorluq orqanlarının fəaliyyətinə ictimai maraq nəzərə alınaraq, mayın 3-də Xətai rayon prokurorluğunun inzibati binasında "Yaşıl dünya üçün hüquqi yeniliklər" adlı görüş keçirilib. Tədbirdə media və qeyri-hökumət təşkilatlarının nümayəndələri iştirak ediblər.**

Toplantı ətraf mühitin mühafizəsi, habelə prokurorluq orqanlarının fəaliyyəti ilə bağlı məlumatlılığın artırılması məqsədilə təşkil olunmuşdu. Bu barədə danışan Xətai rayon prokuroru Sərdar İmanov rayon prokurorluğunun fəaliyyəti, cinayətkarlığa qarşı aparılan mübarizə tədbirləri, habelə insan hüquq və azadlıqlarının müdafiəsi üzrə görülən işlər barədə məlumat verib.

Bakı şəhər prokurorunun köməkçisi Famil Axundov prokurorluq orqanlarının digər dövlət qurumları ilə birgə ətraf mühitin mühafizəsi və ekoloji tarazlığın bərpası istiqamətində gördüyü kompleks işlər barədə məlumat verib, "yaşıl" dünya naminə beynəlxalq əməkdaşlığın əhəmiyyətindən bəhs edib.

Baş Prokurorluğun Mətbuat xidmətinin böyük prokuroru Kənan Zeynalov "yaşıl" dünya üçün hüquqi tənzimləmələrdən bəhs edərək təbii resurslar və bioloji çeşidliyin qorunması, tullantıların, zərərli kimyəvi maddələrin idarə olunması, enerji effektliliyi və alternativ enerji istehsalı kimi sahələrdə formalaşmış hüquqi strukturlar, normativ əsaslar və hüquqi məsuliyyət tədbirləri barədə məlumat verib.

Baş Prokurorluğun Cinayət təqibindən kənar icraatlar İdarəsinin böyük prokuroru Şəbnəm Məmmədova ekoloji təhlükəsizliyin təmin edilməsi istiqamətində görülən tədbirlər barədə məlumat verərək, bəzi statistik göstəricilərə toxunub.

Həmçinin, tədbir zamanı rayon prokurorluğunun əməkdaşları tərəfindən fəaliyyət sahələri üzrə dinləyicilərə ətraflı məlumatlar verilib. Eləcə də bir sıra QHT təmsilçiləri bu istiqamətdə prokurorluqlarla birgə maarifləndirici tədbirlərin təşkili, məlumat kitabçalarının hazırlanması və digər maraqlı təkliflərlə çıxış ediblər.

İştirakçılar inzibati bina və burada əməkdaşlar üçün yaradılmış iş şəraiti ilə tanış olublar. Onlara "Elektron prokurorluq" informasiya sistemi əyani olaraq nümayiş etdirilib.

Kriminalistik avtomobil və avadanlıqlarla tanış olan qonaqlara istintaq hərəkətlərinin keçirilməsi zamanı müasir texnikadan istifadənin əhəmiyyəti izah olunub.

Prokurorluq orqanlarında görülmüş işlərlə bağlı videoçarxı izlədikdən sonra iştirakçılarla fikir mübadiləsi aparılıb, prokurorluq orqanlarının fəaliyyəti ilə bağlı onları maraqlandıran suallar cavablandırılıb.

***Rizvan FİKRƏTOĞLU***
***XQ***


## B İ L D İ R İ Ş

"Nijnoqorodskiyximiko-farmasevtiçeskiy zavod" Səhmdar Cəmiyyətinin Azərbaycan Respublikasındakı Nümayəndəliyi (qısaldılmış adı "Nijfarm" SC ARN) cəmiyyətin yeganə təsisiçisi olan "NİDDA LİNKS S.A.R.L." şirkətinin 4 aprel 2024-cü il tarixli qərarı ilə ləğv edilir.

Kreditorlar ləğv edilən hüquqi şəxsə qarşı tələbləri ilə əlaqədar 60 gün ərzində AZ1065, Bakı şəhəri, Yasamal rayonu, Tbilisi prospekti 49C nömrəli ünvanda, 11-ci mərtəbəyə müraciət edə bilərlər.

Əlaqə nömrəsi (+99455) 255-50-20).


İDMAN

# Avropanın ən güclü gimnastları Bakıda

**Avropanın 37 ölkəsinin ən güclü bədii gimnastlarının Bakıda Milli Gimnastika Arenasında keçirilən qitə kubokunda mübarizəsi başlayıb. Bakıda ilk dəfə təşkil edilən bu nüfuzlu yarışda, ümumilikdə, 160 gimnast mübarizə aparır.**




Onların arasında son mütləq Avropa çempionu Boryana Kaleyn, onun Bolqarıstan millisindəki komanda yoldaşı superulduz Stiliana Nikolova, 2022-ci ilin mütləq qitə çempionu Darya Atamanov, digər israilli, artıq böyüklərin yarışına qatılan Daniela Munits kimi tanınmış gimnastlar var. Favoritlər sırasında Azərbaycanın fəxri Zöhrə Ağamirova ilə yanaşı, 2022-ci ilin mütləq dünya çempionu Sofiya Raffaeli və daha bir italiyalı Milena Baldasarri, ukraynalı Kristina Poqraniçnaya və bir çoxlarının adları diqqət çəkir. Qrup komandaları arasında isə Azərbaycanla yanaşı, Bolqarıstan, İsrail, İtaliya, Gürcüstan, Macarıstan və Rumıniya komandalarının mübarizəsi rəqabəti daha da gərgin və maraqlı edir.

Yarışın proqramı da zəngindir. Belə ki, bu nüfuzlu turnirdə mayın 3-də böyüklərin təsnifat mərhələsində gürzlər, halqa, top və lentlə hərəkətlər icra edilib. Onlar finala vəsiqə verən ilk 16 yer, həmçinin ayrı-ayrı hərəkətlərdə həlledici raunda vəsiqə uğrunda mübarizə aparıblar.

Azərbaycan gimnastı Zöhrə Ağamirova top və halqalarla hərəkətlərdə həlledici mərhələdə iştirak hüququ qazanıb. O, topla çıxışında 33 000, halqalarla hərəkətdə isə 32 900 xal toplayaraq adını ilk "səkkizliy"ə yazdırıb.

Sonra Avropa Kubokunun açılış mərasimi olub. Tədbirdə çıxış edən gənclər və idman naziri Fərid Qayıbov Azərbaycanda yaradılan şəraitin nüfuzlu yarışları yüksək səviyyədə təşkil etməyə imkan verdiyini bildirib. Bədii gimnastikanın ölkədə qızlar arasında ən populyar idman növü olduğunu xatırladan nazir, bu turnirin idmançıların təcrübələrini artırmaları baxımından əhəmiyyətli olduğunu vurğulayıb.

**Avropa kubokunda gərgin və maraqlı mübarizəni iştirakçılar da vurğulayıblar. Halqa və topla çıxışından sonra mətbuata açıqlama verən Latviya təmsilçisi Evelina İvanova ölkəsini bu cür önəmli yarışda təmsil etməyin qürurverici olduğunu bildirib. Yarışda gərgin mübarizənin getdiyini deyən gimnast Azərbaycan təmsilçiləri Zöhrə Ağamirova və Kamilla Seyidzadəni yaxşı tanıdığını, onları əsas rəqiblərdən hesab etdiyini bildirib:**

– Turnirdə Avropanın müxtəlif ölkələrindən ən bacarıqlı idmançılar qüvvələrini sınayırlar. Onlarla ayaqlaşmaq çətin olsa da, rəqiblərimə qalib gəlib, qızıl medala sahib olmaq istəyirəm.

E.İvanova Bakıya hər gəlişində böyük yeniliklərin şahidi olduğunu və bu ecazkar şəhəri heyranlıqla seyr etdiyini deyib.

**Yarışın digər iştirakçısı, rumıniyalı gimnast Kristiana Draqan qitə turnirinin keçirildiyi Milli Gimnastika Arenasında idmançılar üçün mükəmməl şərait yaradıldığını vurğulayıb. Aprelin 19-21-də Bakıda keçirilən Dünya kubokunda da mübarizə apardığını deyən gimnast bu dəfə özünü daha yaxşı tərəfdən göstərdiyini və bunun onun üçün böyük təcrübə olduğunu söyləyib.**

Bu gün komandalar qrup hərəkətləri üzrə ilk çıxış edəcəklər. Həmçinin, çoxnövçülükdə "Cross Battles" keçiriləcək. Ardınca yeniyetmələrin komanda yarışlarında mübarizəsinə start veriləcək. Mayın 5-də həm böyüklər, həm yeniyetmələr, həm də qruplar ayrı-ayrı hərəkətlərdə mükafatçıları müəyyənləşdirəcəklər.

"Cross Battles"in qalibi 8, gümüş mükafatçı 5, üçüncü yerin sahibi 3 min avro qazanacaq. Fəxri kürsüdən kənar qalacaq digər 13 iştirakçı üçün də mükafatlar nəzərdə tutulub.

Qrup hərəkətləri üzrə çoxnövçülüyün qalibi 5, gümüş mükafatçı 3,5, bürünc sahibi 2,5 min avro əldə edəcək. Yeniyetmələrin mübarizəsində isə komanda yarışında qalib 1300, 2-ci yerin sahibi 1000, bürünc medalçı isə 700 avro mükafat alacaq.

***Leyla QURBANOVA***
***XQ***




# Soruşun, cavab verək!

**Son vaxtlar oxucular mediada və şifahi nitqdə tez-tez işlədilən bir çox ifadə və terminlərin mənasını dəqiqləşdirmək məqsədilə redaksiyamıza müraciət edirlər. Onların arzularını nəzərə alaraq "Xalq qəzeti" "Soruşun, cavab verək!" adlı yeni rubrika açmağa qərar verib.**

Bəzi şəxslər orta məktəb, tam orta məktəb, lisey və gimnaziya kimi sözlərin mənalarını dəqiq fərqləndirə bilmirlər. Bunu nəzərə alaraq, yeni rubrikanın mövcud qanunvericiliyə uyğun ilk şərhini təqdim edirik.

**Orta məktəb** – təhsilin natamam orta (IX sinfinədək təhsil) pilləsi sayılır. Bu pilləni bitirənlərə 9 illik attestat təqdim edilir. Qeyd edək ki, ölkəmizdə təhsilin ilk pilləsi icbaridir.

**Tam orta məktəb** –11 illik təhsil pilləsidir. Bu pilləni bitirənlərə tam orta təhsili bitirməsini təsdiq edən attestat verilir. Məzunlar bundan sonra ali təhsil müəssisələrinə qəbul üçün sənəd verə bilərlər.

**Lisey** – ümumi və tam orta təhsil səviyyələrində istedadlı şagirdlər üçün müvafiq təmayüllər üzrə təhsil xidmətləri göstərən ümumtəhsil müəssisəsidir.

**Gimnaziya** – əsasən humanitar sahədə istedad və qabiliyyəti ilə fərqlənən şagirdlər üçün təmayüllər üzrə təhsil xidmətləri göstərən ümumtəhsil müəssisəsidir.

***Hazırladı:***
***Rizvan FİKRƏTOĞLU***
***XQ***


## "Bakı Şərab-1" ATSC səhmdarlarının nəzərinə!

28 iyun 2024-cü il saat 11.00-da Bakı şəhəri, Heydər Əliyev prospekti 104 nömrəli ünvanda "Bakı Şərab-1" ATSC səhmdarlarının illik ümumi yığıncağı keçiriləcəkdir.

Səhmdarlardan xahiş olunur ki, şəxsiyyəti təsdiqləyən sənədlə yığıncaqda iştirak etsinlər.

İllik hesabatla cəmiyyətin saytının elanlar bölməsində tanış olmaq mümkündür. web: bakuserab.az

Telefon – 567-50-23.

***"Bakı Şərab-1" ATSC-nin müşahidə şurası***

## "Şərab-Nəqliyyat" ASC səhmdarlarının nəzərinə!

28 iyun 2024-cü il saat 12.00-da Bakı şəhəri, Heydər Əliyev prospekti 104 nömrəli ünvanda "Şərab-Nəqliyyat" ASC səhmdarlarının illik ümumi yığıncağı keçiriləcəkdir.

Bütün səhmdarların şəxsiyyəti təsdiq edən sənədlə yığıncaqda iştirakı vacibdir.

Telefon-(012)566-26-86.

***"Şərab-Nəqliyyat" ASC-nin sədri***

## B İ L D İ R İ Ş

"Freedom Finance Azerbaijan" ASC-nin AZ1002024573 Dövlət qeydiyyat nömrəsi ilə qeydiyyata alınmış, hər birinin nominal dəyəri 713,35 (yeddi yüz on üç manat otuz beş qəpik) manat olan 10.655 (on min altı yüz əlli beş) ədəd adi, adlı, sənədsiz səhmləri dövriyyədən çıxarılır.

**Səhmdarların ümumi yığıncağının qərarından çıxarış.**

## "Quba Məişət Xidməti" ASC səhmdarlarının nəzərinə!

"Quba Məişət Xidməti" ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı 22 iyun 2024-cü il saat 10.00-da keçiriləcəkdir.

Gündəlikdəki məsələlər:

1.2023-cü ilin hesabatı və maliyyə hesabatlarının təsdiq edilməsi.

2.Cəmiyyətin Müşahidə Şurasının və maliyyə-təftiş müfəttişinin seçilməsi.

3.Digər məsələlər.

Səhmdarlar yığıncaqda müzakirəyə verilmiş məsələ ilə bağlı sənədlərlə hər həftənin iş günləri saat 13.00-dək tanış ola bilərlər.

Tel– 050 – 311 –86 – 06.

Ünvan– Quba şəhəri, Mərkəzi bazar, məişət cərgəsi.

## "Qəçrəş" ASC səhmdarlarının nəzərinə!

"Qəçrəş" ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı 22 iyun 2024-cü il saat 14.00-da cəmiyyətin yerləşdiyi ünvanda keçiriləcəkdir.

Gündəlikdəki məsələlər:

1.2023-cü ilin hesabatı və maliyyə hesabatlarının təsdiq edilməsi.

2.Maliyyə-təftiş müfəttişinin seçilməsi.

3.Digər məsələlər.

Səhmdarlar yığıncaqda müzakirəyə verilmiş məsələ ilə bağlı sənədlərlə hər həftənin iş günləri saat 13.00-dək tanış ola bilərlər.

Tel– 050-616-99-30.

Ünvan– Quba rayonu, Qəçrəş kəndi.

Xalq qəzeti
XQ
xalqqazeti.az
№91 (30495) 4 may 2024-cü il, şənbə



Amaşukelinin "Akaki Tseretelinin Raça-Leçxumiya səyahəti" filmidir. Bundan başqa, ilk xarici filmlərdən olan gürcü rejissor İvan Peristianinin 1926-cı ildə çəkdiyi "Knyajna Şirvanskayanın cinayəti" filminin də çəkilişləri Azərbaycanda aparılıb. Rejissorlar Boris Barnet və Səməd Mərdanovun "Mejrabpomfilm" və "Azərfilm"in birgə istehsalı olan "Ən mavi dənizin sahilində" filmi də 1935-ci ildə Bakıda ekranlaşdırılıb.

### "Qeyri-adi şəhər, gözəl insanlar"

1999-cu ildə rejissor Maykl Eptedin "Ceyms Bond - Agent 007" silsiləsinin on doqquzuncu detektiv-macəra filmi "Dünya kifayət deyil" filminin bir çox səhnələri də Bakıda – Bibiheybət qəsəbəsində çəkilib. Xatırladaq ki, bu yaxınlarda "Agent 007" rolunun ifaçısı Pirs Brosnanın Bibiheybət qəsəbəsində çəkilmiş fotosu yayılmışdı. Ceyms Bond kimi tanınan İrlandiya əsilli aktyorun fotosu 1,9 milyon izləyicisi olan "007" adlı rəsmi "İnstagram" səhifələrində paylaşılmışdı. Qeyd edək ki, P. Brosnan müsahibələrinin birində Azərbaycanda güllələnmə səhnəsinin çəkilişlərini xatırlayaraq:

"Azərbaycanda bizi olduqca səmimi qarşıladılar. Bu təcrübə, düzünü desəm, çox qeyri-adi idi. Biz yollarda çılğıncasına, sürətlə maşın sürür və hər yerdə neft buruqlarını, neft emalı zavodlarını görürdük. Bu, qeyri-adi mənzərə idi, üstəlik, film üçün işimizə çox yaradı. Həmçinin, çox gözəl insanların əhatəsində xoş axşam yeməyini də xatırlayıram" – demişdi.

Bundan başqa, 1986-cı ildə Çili rejissoru Sebastyan Alarkonun "Çili üzərində gecə" və Nobel mükafatçısı, yazıçı Mario Varqas Lyosanın "Şəhər və itlər" romanı əsasında ekranlaşdırdığı "Yaquar" filmlərinin bəzi hissələri də Bakıda çəkilib.

Dünya şöhrətli Azərbaycan yazıçısı Çingiz Abdullayevin romanlarının motivləri əsasında 2002-ci ildə çəkilmiş 13 seriyalı "Dronqo" filmi də ölkəmizdə çəkilmiş filmlər sırasındadır. Rejissor Zinovi Royzmanın rejissorluğu ilə ekranlaşdırılmış filmdə gürcü və rus aktyorları ilə yanaşı, azərbaycanlı aktyorlar – Pərviz Məmmədrzayev, Həmidə Ömərova, Ötkəm İsgəndərli, Sadıq Əhmədov, Firdovsi Atakişiyev, Kamran Yunis, Məbud Məhərrəmov və Anar Heybətov da rol alıb.

Beləliklə, deyə bilərik ki, xarici rejissorları Bakıya gətirən əsas səbəblər Azərbaycanın çoxəsrlik qədim tarixinin bu günümüzdə də maddi sənət nümunələri kimi qorunub saxlanılması, ölkəmizin çoğrafi və mədəni baxımdan Şərqlə Qərbin vəhdəti kimi tanınmasıdır.

*Murad KÖHNƏQALA*

# Xarici rejissorları Bakıya çəkən cazibə

**Bakı hər zaman Qafqazın, eləcə də dünyanın ən gözəl şəhərlərindən biri sayılıb. XIX əsrin sonu, XX əsrin əvvəllərində neft sənayesinin sürətli inkişafı Bakıda "Art Nouveau" üslubunda çoxlu gözəl binaların tikilməsinə səbəb oldu.**

Nəticədə, paytaxtımız özündə həm Şərq, həm də Qərb sivilizasiyalarını birləşdirən unikal mədəniyyət mərkəzinə çevrildi. Bakının hər iki məkanı: həm köhnə Bakı–İçərişəhər, həm də müasir, yeni Bakı sivilizasiyaların sintezi baxımından hər zaman dünyanın diqqət mərkəzində olub.

Hələ SSRİ dövründə məşhur sovet kinorejissorları Bakının bu qiymətli özəlliyindən yararlanır, filmlərində əsasən, Şərq koloritini canlandırmaq üçün Bakıya üz tuturdular.

### Qədim, müasir və sirli Bakı

Qədim Bakı bir vaxtlar sovet və Qərb istehsalı olan bir çox populyar filmlərin çəkiliş meydançasına çevrilmişdi. Bu filmlərdən biri də Aleksandr Belyayevin elmi fantastika janrında qələmə aldığı dünyaca məşhur "Amfibiya adam" əsərinin motivləri üzərində çəkilmiş filmdir. Həmin əsərin film ssenarisi kimi işlənməsi ideyası həm sovet, həm də Hollivud rejissorları tərəfindən dəfələrlə təklif edilmişdi. Lakin o zaman heç bir tərəf bu məsuliyyəti boynuna götürməyə cəsarət etmədi. Çünki həmin illərdə nə Qərbin, nə də SSRİ-nin sualtı çəkiliş təcrübəsi yox idi. Nəhayət, sovet mütəxəssisləri sırf Hollivudu qabaqlamaq məqsədilə "Amfibiya adam"ın ssenarisi üzərində işləməyə başladılar.

Rejissorların qarşısında duran ən çətin məsələ xaricə getmədən xarici liman şəhərini canlandırmaq idi. Çoxlu götür-qoydan sonra seçim Bakının, daha dəqiqi, tarixən Şirvanşahlar dövlətinin paytaxtı olan İçərişəhərin orta əsrlərə aid bir məhəlləsinin üzərinə düşdü. Filmdə Buenos-Ayres kimi qələmə verilən qədim liman şəhərinə aid epizodlar məhz İçərişəhərin küçələrində çəkilib. Eləcə də, filmdə yer alan bir sıra kütləvi səhnələr də Bakı sakinlərinin iştirakı ilə canlandırılıb.

Çəkilişlərinin mühüm bir hissəsinin Bakıda baş tutduğu digər məşhur sovet filmi "Brilyant əl" kriminal komediyasıdır. Əfsanəvi filmin rejissoru Leonid Qayday filmdə İstanbul şəhərini canlandırmaq üçün ən uğurlu tapıntı kimi Bakıya, İçərişəhərə üz tutmuşdu. İçərişəhərdə aparılan çəkilişlər zamanı İstanbula aid səhnələrin daha təbii alınması üçün əlavə olaraq məscid və minarə maketlərindən də istifadə olunmuşdu.

Bakıda filmə çevrilən daha bir məşhur əsər Korney Çukovskinin klassik əsəri əsasında çəkilmiş "Aybolit-66" nağıl filmidir. Film ən populyar sovet ulduzlarını bir araya toplayıb. Aybolit roluna Oleq Yefremov, Barmaley roluna filmin rejissoru Rolan Bıkov, epizodik rollara isə Radner Muratov, Aleksey Smirnov kimi tanınmış aktyorlar həyat verib. Obrazlı desək, bu filmdə sevimli Bakımız qızmar Afrika rolunu oynayıb. Filmdəki bəzi epizodlar isə Azərbaycanın İranla sərhədində – Astarada çəkilib.



### Sivilizasiyaların qovuşduğu məkan

Bakıda "dünyaya gələn" məşhur ekran əsərlərindən biri də "Tehran-43" casus-detektiv filmidir. Sözügedən filmi diqqətəlayiq edən ən önəmli məqamlardan biri bu əsərdə sovet aktyorlarından başqa, Alen Delon kimi dünya şöhrətli ulduzların yer alması idi. SSRİ, İsveçrə və Fransa üçlüyünün birgə istehsalı olan filmin çəkilişlərinin İranda aparılması planlaşdırılmışdı. Lakin 1980-ci ildə Tehranda baş verən İslam inqilabı layihənin həyata keçirilməsinə mane oldu. Rejissorlar isə müdrik davranaraq, çəkiliş üçün İranla çoxəsrlik ortaq mədəniyyətə malik olan Azərbaycanı seçdilər. Bu seçim isə SSRİ-nin ən uğurlu filmlərindən daha birinin işıq üzü görməsinə səbəb oldu.

Haqqında danışacağımız növbəti filmin Bakıda çəkildiyini, bəlkə də, çox az adam bilir. Bu, hansı film olsa yaxşıdır? Söhbət 1850-ci illərin vəhşi Amerika həyatını təsvir edən "Başsız atlı" qorxu-macəra filmindən gedir. Mayn Ridin eyniadlı romanı əsasında ekranlaşdırılan filmdəki geniş çöllər, meşə yanğını, torpaq yollarda hərəkət edən at arabaları, pambıq tarlaları kimi epizodlar Azərbaycanda lentə alınıb. Doğrudur, zəngin Azərbaycan təbiətində Şimali Amerikaya məxsus kaktuslar olmasa da, filmin yaradıcıları onların plastik formalarını hazırlamışdılar.

Ümumilikdə isə, tam Azərbaycanda çəkilən ilk xarici film 1912-ci ildə gürcü rejissoru Vasili

---

İDMAN

## "Prezident Kuboku-2024"də komandamız 9 medal qazanıb



**Ümummilli lider Heydər Əliyevin anadan olmasının 101-ci ildönümünə həsr edilmiş avarçəkmə üzrə "Prezident Kuboku-2024" beynəlxalq reqatasında komandamız 9 medal qazanıb.**

Bu mükafatların 1-i qızıl, 3-ü gümüş, 5-i isə bürünc medaldır.

Qeyd edək ki, yarış mayın 1-i Suqovuşanda start götürüb, mayın 2-3-də isə Mingəçevir Kür Olimpiya Tədris-İdman Mərkəzində davam edib. Turnirdə 20-dən çox ölkədən 30-a qədər komanda iştirak edib.

## Dünya kuboku: İlk "qızıl"a Türkiyə komandası yiyələnib



**Bakıda keçirilən atıcılıq üzrə Dünya kuboku yarışında ilk qızıl medalı Türkiyə komandası qazanıb.**

10 metr məsafəyə pnevmatik tapançadan atəş açma növündə komanda yarışlarında Türkiyəni təmsil edən Şimal Yılmaz və İsmayıl Keləş fəxri kürsünün ən yüksək pilləsində yer alıblar. Final qarşılaşmasında Türkiyə atıcılarına məğlub olan qazaxıstanlı Valeriya Popelova və Eldar İmankulov gümüş mükafata yiyələniblər. Üçüncü yeri isə Ukraynanı üstələyən Çin atıcıları Li Xue ilə Xie Yu tutublar.

Qeyd edək ki, yarışda 80-dən çox ölkədən atıcılar mübarizə aparırlar. Turnir mayın 12-dək davam edəcək.

## Avropanın ən güclü güləşçiləri Bakıya gəlir



**Bakı ilk dəfə güləş üzrə U-23 Avropa çempionatına evsahibliyi edəcək.**

2022-ci ildə Dünya Güləş Birliyinin (UWW) İcraiyyə Komitəsinin qəbul etdiyi qərara əsasən, bu yaş qrupu üzrə qitə birinciliyi ölkəmizdə keçiriləcək. 32 ölkədən 400-ə yaxın idmançının qatılacağı yarış bu il mayın 20-dən 26-dək Bakı İdman Sarayında təşkil ediləcək.

Proqrama əsasən, çempionata yunan-Roma güləşçiləri start verəcək. Onlar estafeti qadın güləşçilərə ötürəcək. Yarışa sərbəst güləşçilər yekun vuracaq. Görüşlər hər gün saat 10:30-da start götürəcək. Avropa çempionatının təntənəli açılış mərasimi mayın 20-də saat 17:00-da başlayacaq.

*L.SABİRQIZI*
*XQ*

---

## Abşeronda yağmursuz, bölgələrdə leysan, duman və külək



**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata görə, mayın 4-də Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin gecə bəzi yerlərdə qısamüddətli yağış yağacağı ehtimalı var. Mülayim şimal küləyi əsəcək. Gecə 11-14°, gündüz 18-23° isti olacaq. Atmosfer təzyiqi normadan aşağı 754 mm civə sütunu , nisbi rütubət gecə 65-75, gündüz 45-55 faiz olacaq.**

Azərbaycanın rayonlarında bəzi yerlərdə arabir yağıntılı olacağı gözlənilir. Ayrı-ayrı yerlərdə arabir leysan xarakterli intensiv olacağı, şimşək çaxacağı, dolu düşəcəyi, yüksək dağlıq ərazilərdə sulu qara keçəcəyi ehtimalı var. Gecə və səhər bəzi yerlərdə arabir duman olacaq. Qərb küləyi əsəcək, bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 11-15°, gündüz 16-21°, dağlarda gecə 4-8°, gündüz 8-13° isti olacaq.

*Q. QASIMOV*
*XQ*

## Şirvan şəhərinin heyəti Manisada

**Bu günlərdə Türkiyənin Manisa şəhərində Beynəlxalq Mesir Macunu (Şirniyyət) Festivalı keçirilib. Şirvan şəhərinin nümayəndə heyəti də tədbirdə ölkəmizi təmsil edib.**

Qeyd edək ki, nümayəndə heyətinin tərkibinə Şirvan Şəhər İcra Hakimiyyəti başçısının müavini Aynur Fərzəliyeva, Şirvan Bələdiyyəsinin sədri Kürdoğlu Muradov və digər şəxslər daxil idilər.

Şirvan şəhərindən olan qonaqlar Manisa şəhərinin valisi ilə görüşüblər. Görüşdə ölkələrimiz arasında dostluq, qardaşlıq münasibətlərinin dərin tarixi köklərə malik olduğu vurğulanıb. Sonra qarşılıqlı hədiyyələr təqdim olunub, xatirə şəkli çəkdirilib.

Yeri gəlmişkən, Şirvan və Manisa şəhərləri arasında 2023-cü ilin 8 sentyabrında "Qardaşlıq və dostluq protokolu" imzalanıb. Bununla da hər iki şəhər arasında birgə layihələr, proqramlar, qarşılıqlı səfərlər, təcrübə mübadiləsi, mədəniyyət, incəsənət və digər sahələrdə əməkdaşlıq nəzərdə tutulub.



*Q.ÇAXMAQLI,*
*XQ-nin Türkiyə müxbiri*

## "Xalçalarda yaşayan tariximiz"

**Azərbaycan Milli Xalça Muzeyində Əməkdar rəssam Taryer Başirovun 65 illik yubileyi münasibətilə "Xalçalarda yaşayan tariximiz" adlı fərdi sərgisi açılıb. Sərgidə bir çox incəsənət nümayəndələri, o cümlədən rəssamlar iştirak ediblər.**

Azərbaycan Milli İncəsənət Muzeyinin direktoru Şirin Məlikova çıxışında xalçalardan və onların incəsənətimizdəki yerindən danışıb, Taryer Bəşirovun yaratdığı xalçalarda Azərbaycan tarixini necə əks etdirdiyini vurğulayıb.

Sərgidə digər çıxış edənlər yubiley münasibətilə rəssamı təbrik edib, ona uğurlar diləyiblər.

Tədbir Heydər Əliyev Fondunun 20 illik yubileyinə həsr olunmuş "Heydər Əliyev Fondu-20" xalçasının təqdimatı və sərginin açıq elan edilməsi ilə yekunlaşıb.

Mayın 12-dək davam edəcək sərgi çərçivəsində Əməkdar rəssamın fəaliyyətinə həsr olunan mühazirə də keçiriləcək.

*XQ*

## ALLAH RƏHMƏT ELƏSİN

"Xalq qəzeti"nin kollektivi "Ədalət" qəzetinin baş redaktorunun müavini Əbülfət Mədətoğluna anası

**İMMİ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 E-mail: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3895
SİFARİŞ 961
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Vaqif BAYRAMOV
Çapa imzalanmışdır 00:00